AEM

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

SCIENTIFIC WORK
International Scientific Journal

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

## Beynəlxalq Elmi Konfrans

# *ÜZEYİR HACIBƏYLİ 140*

***"Üzeyir Hacıbəylinin yaradıcılığında tarixilik və müasirlik: pedaqoji aspekt"***

# ELMİ İŞ
**Beynəlxalq Elmi Jurnal**

---

**BEYNƏLXALQ ELMİ KONFRANS**

***ÜZEYİR HACIBƏYLİ***
***140***

https://doi.org/10.36719/2663-4619/0807/2025

**Naxçıvan Müəllimlər İnstitutunun**
**Pedaqogika və Psixologiya kafedrası ilə**
**Azərbaycan Elm Mərkəzinin birgə təşkil etdiyi**
**Beynəlxalq Elmi Konfrans**

# SCIENTIFIC WORK
**International ScientifiC Journal**

---

**INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

***UZEYIR HAJIBEYLI***
***140***

**Department of Pedagogy and Psychology**
**of Nakhchivan Teachers Institute**
**organized jointly with**
**Azerbaijan Science Center**
**International Scientific Conference**

**Bakı – Baku**
**2025**

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

**Sədr**

**Prof. Dr. Mahirə HÜSEYNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Duken MASSİMXANULİ,** R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutu / Qazaxıstan

**Məsul katib**

**Assoc. Prof. Dr. Sevinc VƏLİYEVA,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Fazil BAXŞƏLİYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL,** Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. İsmayıl ƏLİYEV**,Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Rafail ƏHMƏDLİ**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Yaqub MƏMMƏDOV,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Qulu MƏHƏRRƏMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Validə PAŞAYEVA**, Atatürk Universiteti / Türkiyə
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Prof. Dr. Xəzər HÜSEYNOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ülviyyə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Afaq MƏMMƏDOVA**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Hümeyir ƏHMƏDOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan

**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Mehdi BAĞIROV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. İbrahim MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nuralı ÇƏLƏBİYEV**, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı / Azərbaycan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Akif AĞBABALI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Nigar ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Büşra BİLAL**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Əbülfət PƏLƏNGOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə
**Dr. Asif MANAFOV**, ARETN Zoologiya İnstitutu / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

**Chairman**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Deputy Chairman**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan

**Prof. Dr. Duken MASSIMKHANULY**, R.B.Suleimanov institute of Oriental Studies / Kazakhstan

**Executive secretary**

**Assoc. Prof. Dr. Sevinc VALIYEVA**, Nakhchivan Teacher Institute / Azerbaijan

**MEMBERS**

**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Ismayil ALIYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Rafail AHMADLI**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Yagub MAMMADOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Gulu MAHARRAMLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Asmad MUKHTAROVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Valida PASHAYEVA**, Atatürk University / Turkey
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Masud ASHINA**, University of Copenhagen / Denmark
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Khazar HUSEYNOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Ulviyya HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof. Dr. Afag MAMMADOVA**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Hümeyir ƏHMƏDOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Afat MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Mehdi BAGHIROV**, Azerbaijan State Oil and Industry University / Azerbaijan

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Ibrahim MAMMADOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nuralı CHALABIYEV**, Shaki branch of Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Nakhchivan Teacher Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Akif AGHBABALI**, Baku State University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Nigar ZEYNALOVA**, University of Azerbaijan Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan Science Center / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Busra BILAL**, Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Abulfat PALANGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey
**Dr. Asif MANAFOV**, Institute of Zoology of MSERA / Azerbaijan

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 7-11**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 7-11**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Sevinc Vəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-0710-6324
veliyeva_1979@bk.ru

# Üzeyir Hacıbəylinin satirik hekayələrində tərbiyə məsələləri

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, satirik hekayələr, tərbiyə, tərbiyə məsələləri, bədii yaradıcılıq*

***Keywords:*** *Uzeyir Hajibeyli, satirical stories, education, problems of upbringing, artistic creativity*

Üzeyir Hacıbəylinin bütün əsərləri təhsilləndirici, tərbiyənləndirici və inkişafetdirici imkanlara malikdir. Onun dəyərli pedaqoji ideyaları vardır. Təhsil müəssisələrində şagirdlərin və tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi məqsədilə onlardan faydalanmaq mümkündür. Bu konfrans materialında Üzeyir bəyin satirik hekayələrində tərbiyə məsələləri üzərində dayanmağı qarşımıza məqsəd qoymuşuq.

“Qarabağın keçmiş günlərindən” hekayəsi ilə tanış olduq. Bu hekayə böyük bəstəkarın satirik hekayələrinə daxildir. Fəqət satirik hekayə olmaqdan daha çox ağlamalı, faciəli, təəssüf doğuracaq məzmununa malik hekayədir. Ailə münasibətlərinin, ər-arvad, valideyn-övlad münasibətlərinin kamilliyi arzusunda olan Üzeyir bəy Azad bəyin ailəsində bunun əksini gördüyündən mütəəssir olaraq bu ailənin faciəsini, naqis tərbiyə üsulunu tənqid atəşinə tutmuşdur. Bu ailə üç nəfərdən ibarətdir: ər (Azad bəy), arvad (Gülnisə) və yeganə övladları (Xudadad bəy).

Əvvəla, ailənin başçısı Azad bəy əməli saleh adam deyil. İsrafçılıq ucbatından var-dövlətini itirmişdir. Lakin düşdüyü

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

vəziyyətdən nəticə çıxarmaq fikrində də deyildir. Evə lazım olan ərzaq məhsullarını nökəri vasitəsi ilə borca gətizdirir. Özü isə utandığından, xəcalətindən dükan sahiblərinin gözünə görünmür. Necə deyərlər, “cibində siçanlar oynamasına” baxmayaraq, qumar oynayır, qəpik-quruşunu qumarda uduzur. Arvadını aldadaraq qumarda udduğunu deyir. Çıxardığımız nəticə: 1. Ailəsinin taleyi onu maraqlandırmır. 2. Yalançıdır. 3. Qumara qurşanıb. 4. Kobuddur, söyüşkəndir. Nökəri ona deyəndə ki: “Ağa, o baqqal Həsən kişiyə bir qədər pul versəydin, yaxşı olardı. Yoxsa and içibdir ki, dəxi bundan sonra bir düyü də nisyə verməyəcəkdir”, Azad nökəri təhqir edib ona deyir: “İtil, itil burdan, səfeh oğlu səfeh!” (Hacıbəyli, 1996, s. 350).

Bu ailədə tərbiyə işləri düzgün qurulmamışdır. Naqis tərbiyə özünü göstərməkdədir. Hekayəyə müraciət edək: “Oğlunun uşaqlığı onun (*Azad bəyin – S.V.)* yadına düşdü. O zaman Xudadad bəyi atası sevirdi, heç qucağından yerə qoymazdı. Dörd yaşında Xudadad bəyi alardı dizinin üstünə və deyərdi: “Ay küçük, ay it!” Xudadad bəy də şirin uşaq dili ilə: “Əşi, küçük sənsən, it sənsən!” – deyib cınqılı əli ilə atasının üzünə şapalaq vurardı. Atası deyərdi: “Yavaş, eşşək!” Oğlu cavab verərdi: “Əşi, eşşək sənsən!” “Vallah gözünü tökərəm!” deyib, az qalardı balaca barmağı ilə atasının gözünü çıxarsın. Atası deyərdi: “Adə, adam da atasını söyərmi, ay heyvan?” Oğlu cavab verərdi: ”Bəs sən mənə niyə söyürsən, ay heyvan?”

Bu mükalimədən sonra Azad bəy oğlunu qucaqlayıb marçamarç ilə öpərdi” (Hacıbəyli, 1996, s. 352-353).

Bu, dörd yaşında uşağın əməlləridir. Ata oğluna düzgün tərbiyə vermək əvəzinə onun söyüşlərindən zövq almaqdadır. İndi Xudadad bəy 14 yaşındadır. Əvvəlcə “çastnı şkola”da oxuyurdu, indi “realnı şkola”da təhsil alır. Amma buna oxumaq, təhsil almaq demək mümkünsə. Budur, Azad bəy və arvadı Gülnisə əyləşiblər, süfrə salınıb. Xudadad bəy məktəbdən qayıdır. İçəri girərək salamsız-kəlamsız çantasını qolu getdikcə

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

tullayaraq daha oxumayacağını bəyan edir: ”Qoy direktor acığından partlasın, cırılsın, yenə oxumayacağam!” Atası onu sakitləşdirmək istəyəndə oğul çımxırır: ”Əşi, sən də qoy görüm!. Bilmirəm bu nə deyir!” (Hacıbəyli, 1996, s. 347).

Müəllimə, eyni zamanda ataya münasibətdə hörmətsizlik baş alıb gedir.

Anası Gülnisə soruşanda ki: “Axı, nə üçün oxumaq istəmirsən?” Oğlunun əvəzinə Azad bəy cavab verir: ”Oxuya bilmir, şüuru yoxdur”.

“Bu Xudadad bəyə xoş gəlməyib istehza ilə dedi: “O gözü kor urus başmaqçı Səfinin oğluna “pyat” qoyub, mənə də “dva” qoyanda, əlbəttə ki, oxuya bilməyəcəyəm.

Atası: ”Yaxşı oxu, sənə də “pyat” qoysun” (Hacıbəyli, 1996, s. 348).

Xudadad bəyi qeyzləndirən “iki” qiymət almasıdır. Dərsini bilməyə-bilməyə “əla” qiymət arzusundadır.

Bu ailədə Gülnisə xanım müsbət obrazdır. Oğlunun şıltaqlığına dözür, onu sakitləşdirmək, ərini əyri yoldan, qumardan çəkindirmək istəyir, amma o da savadsız, avamdır. Oğluna “beş” qiymət vermədiyinə görə müəllimin dalınca danışır. Ona elə gəlir ki, müəllim biliyə yox, sosial vəziyyətinə görə şagirdlərin savadını və bacarıqlarını qiymətləndirməlidir. Odur ki deyir: “Neyçin sən bəy oğlu ola-ola, sənə iki qoyublar, amma başmaqçı oğluna beş? Neyçin demirsən: ay uçitel, mənə beş qoy, altı qoy, mən bəy oğluyam, mənə yeddi, səkkiz də azdır” (Hacıbəyli, 1996, s. 348).

Xudadad bəy nəinki atası, həmçinin anası ilə də kobud davranır, onunla necə gəldi danışır: ”Ağız, qanmadığını danışma!” (Hacıbəyli, 1996, s. 348). Bütün bu davranış, rəftar tərzi düzgün olmayan tərbiyənin nəticəsidir. Ata uşaq yaşlarından oğluna pis nümunə göstərmişdir. Elə hazırda da nə həyat yoldaşı, nə də oğlu ilə qarşılıqlı münasibətlərini düzgün qurmur.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Ata gizlincə qumar oynamaqda davam edir, Xudadad bəy də təhsilini yarımçıq qoyaraq qumara qurşanır. Bir gün əli gətirir, çoxlu pul udur. Bu uduş ona baha başa gəlir. Pul hərisləri onun qabağını kəsib, canına qıyıb, pulları çırpışdırırlar.

"Qarabağın keçmiş günlərindən" hekayəsinə müraciət edək: "Bu gecə bəzzaz Hacı Əsədin toyunda imiş (*Xudadad bəy – S.V.*), özü də səkkiz yüz manat pul udubmuş. Yazığı aldadıb çölə aparıblar və orada bıçaq ilə başını kəsib cibini soyublar" (Hacıbəyli, 1996, s. 357).

Bu da naqis tərbiyənin nəticəsi.

Bu hekayədə bir məktəb direktoru obrazı da yaradılmışdır. Təəssüf ki, həmin şəxs nə bir müəllim, nə də təhsil müəssisəsi rəhbəri kimi özünü doğrultmur. Həmin şəxs Azad bəydən rüşvət alaraq onun oğlunu (Xudadad bəyi) qanunsuz olaraq "rüalnı şkola"ya qəbul edir. Müəllimlik peşəsini seçmiş şəxsin əli də, dili də düz olmalı, öz nümunəvi davranışı, oturuşu, duruşu, ünsiyyəti, nitqi, rəftarı ilə ünü bu şərəfli peşənin layiqli nümayəndəsi kimi təqdim etməlidir.

Ötən əsrin əvvəllərində Azərbaycanda ali təhsil almaq müşkül məsələ idi. Gənclər başqa ölkələrə gedib min əziyyətlə təhsil almalı olurdular. Təhsil pullu olduğundan maddi çətinlik gəncləri, onların ailələrini sıxırdı. Bu sahədə imkanlı adamlarını köməyinə ehtiyac hiss olunurdu. Hacı Zeynalabdin Tağıyevin həmin istiqamətdəki xidmətləri çox böyük olmuşdu. Lakin hər imkanlı adam öz köməyini göstərmirdi. Üzeyir bəy bu hekayədə belələrini qamçılayır. Oğlunun təhsilinə pul toplanması üçün ağız açan şəxsə kömək göstərilməsi məqsədilə bir hacıya müraciət olunur. Diqqət yetirək: "Sizin yanınıza bir cüzi təvəqqeyə gəlmişəm.

-Bu nə sözdür, sən mənə qulluq buyur, mən həmişə can və başla düzəltməyə hazıram.

-Hacı dayı, bir şəxsin oğlu Xarkovda oxuyur, onun atası xərcini indiyə kimi çəkibdir. Amma indi əli aşağı düşməyə görə

https://doi.org/10.36719/2663-4619/0807/2025

və müsəlman qardaşımız olmağa görə onun üçün bir az pul cəm etmişik. 5 manat da siz əta ediniz.

-Mən 3 dəfə həccə getmişəm, dördüncü dəfə həmniyyətliyəm. Mən həcc pulunu pozub, nə tövr Rusiyaya göndərim?

-Hacı dayı, nə vaxt Allah qoysa bu dəfə həccə təşrif aparacaqsınız?

-İnşallah, bəydadaş, gələn il.

-Yaxşı, Hacı dayı, gələn ilədək məgər 5 manat qazanmayacaqsınız ki, gələn ilki həcc pulunu pozmayıb üstünə qoyub gedəsiniz?

-Usta Qarapetə min manat borc vəd etmişəm, ona görə gərək verəm ki, binəvanın pambıq pulu kəsirdir, pambıq alsın.

-Zərər yoxdur, Hacı dayı, birisi gün gələrəm.

-Xeyr, xeyr, xeyr! Birisi gün hacı Qulaməli kişinin oğluna nömrə pulu yığılır, ona pul göndərəcəyəm" (Hacıbəyli, 1996, s. 343-344).

Göründüyü kimi, tarixi düşmənimiz olan Qarapetə min manat verməyə razı olan hacı bir həmyerlisinin, bir müsəlman balasının təhsilinə 5 manatını qıymır. Belə mənəviyyatsız insanlar cəmiyyətin irəliləməsinə, tərəqqisinə də mane olurlar.

Üzeyir bəyin "Bir dəlləyin dəftərindən", "Başa düşmədi" və s. satirik hekayələri də maarifləndirici və tərbiyələndirici imkanlara malikdir.

## Ədəbiyyat

1. Hacıbəyli, Ü. (1996). *Seçilmiş əsərləri*. Azərnəşr.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 12-14**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 12-14**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Ülviyyə Nağıyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9962-5913
ulviyyenagiyeva921@gmail.com

# Müasir təhsildə Üzeyir Hacıbəylinin yaradıcılığına pedaqoji yanaşmalar

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, pedaqoji yanaşma, müasir təhsil, musiqi, estetik tərbiyə, milli-mənəvi dəyərlər*
***Keywords:*** Uzeyir Hajibeyli, pedagogical approach, modern education, music, aesthetic education, national and moral values

Üzeyir Hacıbəyli Azərbaycan musiqi sənətinin banisi, ilk operanın müəllifi, böyük maarifçi və pedaqoqdur. Onun yaradıcılığı milli musiqinin dünya səviyyəsinə yüksəlməsində mühüm rol oynamışdır. Müasir təhsildə bu irsin mənimsədilməsi yalnız musiqi dərsləri ilə məhdudlaşmamalı, müxtəlif fənnlərlə inteqrativ yanaşmalar əsasında tətbiq olunmalıdır (Burnard, 2008). Üzeyir Hacıbəyli təkcə musiqi bəstəkarı deyil, həm də dahi maarifçi və pedaqoq kimi Azərbaycan təhsilinin formalaşmasında mühüm rol oynamışdır. Onun irsi yalnız musiqi dərslərində deyil, müxtəlif fənlərarası təlim çərçivəsində də tətbiq edilə bilər. Müasir pedaqogika tələb edir ki, tədris prosesi yaradıcı düşüncə, estetik tərbiyə və milli dəyərlərin aşılanması üzərində qurulsun. Bu baxımdan Üzeyir Hacıbəylinin yaradıcılığı əvəzsiz tədris resursudur (Əlizadə, 2021).

Üzeyir Hacıbəylinin musiqi irsi ilə yanaşı, onun publisistik məqalələri, pedaqoji çıxışları və maarifçilik fəaliyyəti təhsil tariximiz üçün böyük əhəmiyyət daşıyır. O, "xalq musiqisi

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

xalqın ruhudur" prinsipindən çıxış edərək təhsildə milli ruhun və mənəvi dəyərlərin əsas yer tutmasını zəruri sayırdı. Onun əsərlərində (xüsusilə "Leyli və Məcnun", "Koroğlu" operalarında) yalnız estetik deyil, həm də əxlaqi, vətənpərvərlik, azadlıq və ədalət kimi universal dəyərlər təbliğ olunur. "Leyli və Məcnun", "Koroğlu" kimi operalar həm tarixi, həm də estetik kontekstdə öyrənilə bilər (Hacıbəyli, 1964).

Üzeyir Hacıbəylinin əsərləri vətənpərvərlik, ədalət, azadlıq kimi ideyaları aşılayır. Onun publisistik yazıları və pedaqoji ideyaları müasir təhsil fəlsəfəsinin inkişafına töhfə verir. Şagirdlərə Hacıbəylinin həyat və yaradıcılığı ilə bağlı tədqiqat və təqdimat layihələri vermək. Mini tamaşaların hazırlanması, musiqili kompozisiyaların qurulması (Əzizova, 2024).

Üzeyir Hacıbəylinin irsi müasir təhsil üçün dəyərli bir mənbədir. Onun yaradıcılığına yönəlik pedaqoji yanaşmalar şagirdlərin həm intellektual, həm də estetik inkişafına xidmət edir. Təhsildə innovativ və inteqrativ metodlarla bu irsin dərslərə tətbiqi, gənc nəslin milli kimlik və dəyərlərlə formalaşmasına töhfə verir (Vasil, 2019). Müasir təhsildə Üzeyir Hacıbəylinin yaradıcılığına pedaqoji yanaşma yalnız musiqi dərsləri ilə məhdudlaşmamalıdır. Onun musiqi və pedaqoji ideyaları yaradıcı, tənqidi və dəyərlərə əsaslanan təlimin inkişafına xidmət edir. Hacıbəylinin irsindən istifadə edən müəllim, şagirdlərə həm bilik, həm də ruh və estetik dəyərlər aşılayır. Beləliklə, o, təkcə keçmişin deyil, həm də bu günün və gələcəyin müəllimidir (Crawford, 2016).

## Ədəbyyat

1. Burnard, P. (2008). *Inclusive pedagogies in music education*. QUT Eprints. https://eprints.qut.edu.au/

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

2. Crawford, R. (2016). Blended learning in music education. *Music Education Research*, *18*(3), 231–245. https://doi.org/10.1080/14613808.2015.1056139
3. Əlizadə, R. (2021). Üzeyir Hacıbəylinin pedaqoji baxışları. *Bakı Universiteti jurnalı*, *(3)*, 45–52.
4. Əzizova, Ş. (2024). *Multikulturalizm xalqımızın incəsənətində*. Elm və Təhsil.
5. Hacıbəyli, Ü. (1964). *Azərbaycan musiqisi haqqında məqalələr*. Azərnəşr.
6. Vasil, M. (2019). Popular music pedagogies. *Journal of Music Education*, *45*(2), 112–124. https://doi.org/10.1177/0022429419849933

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Azad Novruzov**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-9447-6073
azad.novruzov.65@mail.ru

# Üzeyir Hacıbəylinin ictimai və siyasi fəaliyyətlərinin Azərbaycan cəmiyyətinə təsiri

***Açar sözlər:*** *Üzeyir bəy, ictimai və siyasi fəaliyyət, Azərbaycan cəmiyyəti, cəmiyyətə təsir, Üzeyir Hacıbəyli yaradıcılığı*

***Keywords:*** *Uzeyir bay, socio-political activity, Azerbaijani society, influence on society, creativity of Uzeyir Hajibayly*

Üzeyir Hacıbəyli Azərbaycan musiqi sənətinin banisi olmaqla yanaşı, həm də görkəmli ictimai və siyasi xadim idi. Onun fəaliyyəti yalnız incəsənət sahəsi ilə məhdudlaşmamış, cəmiyyətin maariflənməsi, milli şüurun formalaşması və dövlətçilik düşüncəsinin inkişafı istiqamətində də mühüm rol oynamışdır.

Üzeyir bəy xalqın mədəni, elmi və ictimai tərəqqisini əsas məqsəd kimi qarşısına qoymuş ziyalı idi. Milli oyanış və mədəni dirçəliş onun yaradıcılığında milli dəyərlərin bərpası və qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Dahi bəstəkarın "Leyli və Məcnun" operası təkcə ilk Şərq operası deyil, eyni zamanda milli musiqi mədəniyyətinin yeni mərhələyə keçidinin rəmzi olmuşdur. Bu kimi əsərlər xalqda milli kimlik hissinin güclənməsinə, öz tarixinə və mədəniyyətinə marağın artmasına imkan vermişdir.

Üzeyir bəy maarifçilik və təhsil sahəsində misilsiz fəaliyyət göstərmişdir. Mətbuatda çıxış edərək xalqı savadlanmağa, elmi düşüncəyə və Avropa mədəniyyətinə açıq olmağa səsləyirdi. Onun təşəbbüsü ilə musiqi məktəbləri yaradılmış, milli musiqi

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

təhsilinin elmi əsasları formalaşdırılmışdır. Bu, Azərbaycanda peşəkar musiqiçilərin yetişdirilməsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə və daha sonra - sovet hakimiyyəti illərində Üzeyir Hacıbəyli bir sıra dövlət qurumlarında çalışmış, ictimai həyatın formalaşmasında yaxından iştirak etmişdir. O, Azərbaycan SSR Ali Sovetinin deputatı idi, milli mədəniyyət siyasətinin hazırlanmasına və həyata keçirilməsinə böyük töhfələr verirdi.

Bəstəkarın "Koroğlu" operasında öz ifadəsini tapmış azadlıq, ədalət və qəhrəmanlıq ideyaları yalnız sənət əsəri deyil, həm də ictimai mesaj idi. Bu əsərlər xalqda haqsızlığa qarşı mübarizə ruhunun formalaşmasına öz köməyini göstərmiş, vətənpərvərlik hisslərini gücləndirmişdir.

Üzeyir Hacıbəyli qadınların hüquqlarını və cəmiyyətdə iştirakını müdafiə edən əsərlər yazmaqla, cəmiyyətin müasir düşüncə tərzinə keçidini dəstəkləmişdir. "O olmasın, bu olsun" və "Ər və arvad" kimi əsərlərində qadın azadlığı və ailə münasibətləri məsələlərinə toxunaraq sosial islahatlara çağırış etmişdir.

Bütün bu fəaliyyətlər göstərir ki, Üzeyir bəy yalnız musiqiçi deyil, eyni zamanda böyük bir ictimai-siyasi xadim idi. Onun ideyaları və təşəbbüsləri Azərbaycan cəmiyyətinin inkişafına, mədəni və milli dəyərlərin qorunmasına, dövlətçilik təfəkkürünün formalaşmasına mühüm təsir göstərmişdir. Bu səbəbdən Üzeyir bəy təkcə sənət tarixində deyil, həm də ictimai fikir tarixində layiqli yer tutur.

Üzeyir Hacıbəyli cəmiyyətin intibahının rəhnini maarifdə görən ziyalı idi. O, xalqın savadlanması, qədim inancların və geriliyin aradan qalxması üçün məqalələr yazır, mətbuatda çıxışlar edirdi. Xalq məktəbləri üçün dərslik hazırlaması və musiqi təhsili sahəsindəki misilsiz xidmətləri onun maarifçilik missiyasının bir hissəsidir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisini Avropa musiqi məktəbi ilə sintez edərək yeni bir istiqamətin - professional musiqinin əsasını qoydu. "Leyli və Məcnun" operası bu baxımdan əlamətdar hadisədir. Bu sintez, mədəni modernləşmənin böyük bir addımı idi. Üzeyir bəy musiqi vasitəsilə Qərbin elmə dayanan strukturunu Şərqin emosional ruhu ilə birləşdirdi. "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili komediyalarının məzmununu sadə komediya kimi deyil, dərin sosial tənqid kimi qiymətləndirmək lazımdır. Həmin əsərlərdə qadın azadlığı, ictimai bərabərlik, ailə institutunun yenidən qurulması kimi aktual məsələlərə toxunulur. Bu yolla Üzeyir bəy ictimai rəydə yeni ideyaların formalaşmasına öz təsiriri göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Üzeyir Hacıbəyli milli marşın bəstələnməsi, konservatoriyanın yaradılması kimi böyük xidmətlərilə mədəni sənaye sahələrinin təməlinin qoymuşdur. Həmin təşəbbüslər milli mədəni kimliyin formalaşmasında, azərbaycanlılıq şürunun dərinləşməsi baxımından əhəmiyyətli idi.

Hacıbəylinin təşəbbüsü ilə Azərbaycan musiqisinin elmi tədqiqi sahəsində ilk addımlar atıldı. O, musiqinin nəinki icrasını, həm də onun metodoloji tədrisini mühüm sayır, musiqi şəxslərinin peşkərli təhsil alması üçün səy göstərirdi. Bu istiqamətdə yaratdığı konservatoriya Azərbaycan musiqisinin mühafizə və tədqiq mərkəzinə çevrildi.

Üzeyir Hacıbəyli Azərbaycan cəmiyyətinin modernləşmə tarixində müstəsna yer tutan şəxsiyyətdir. O, musiqi, maarif, teatr, sosial tənqid və dövlət quruculuğu sahələrindəki fəaliyyəti ilə xalqı ənənəvi dəyərlərin qorunması əsasında yenilənməyə, elmə, təhsilə, azad düşüncəyə doğru istiqamətləndirmişdir. Onun irsi bu gün də Azərbaycan mədəniyyəti və ictimai fikrinin dayaqlarından biri kimi yaşamaqdadır.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Tahirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9092-2049
tahireh37@gmail.com

# Üzeyir Hacıbəylinin maarifçilik fəaliyyəti

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, Azərbaycan mədəniyyəti, milli operanın banisi, jurnalist, publisist*

***Keywords:*** *Uzeyir Hajibeyli, Azerbaijan culture, founder of the national opera, journalist, publicist*

Azərbaycan ədəbi, mədəni, ictimai fikir tarixində misilsiz xidmətləri olan sənətkarlardan biri də dahi Üzeyir Hacıbəylidir. Üzeyir Hacıbəyli hər bir sahədə qələmini sınamış, bununla da ictimai fikir tariximizdə silinməz iz buraxmışdır. İstər musiqi, istər ədəbi-bədii, istərsə də publisistika sahəsindəki fəaliyyəti ədibin yaradıcılığının əhatəli və çoxcəhətli olmasını sübut etməklə bərabər, onun ustad sənətkar olmasının da təsdiqidir.

Ulu öndərimiz Heydər Əliyevin Üzeyir bəy haqqında dediyi bir fikri yada salmaq istəyirəm: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur" (Şiriyeva, 2023).

Bəli, Üzeyir bəydə hərhərəfli istedad var idi və bu istedadı onu məşhur etmişdi.

Bildiyimiz kimi, Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin ən yaxşı ənənələrini inkişaf etdirərək onu dünya səhnəsinə çıxarda bilmişdir. Belə ki, 1908-ci ildə Bakıda H. Tağıyev

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

teatrında Füzulinin eyniadlı poeması əsasında yazılan "Leyli və Məcnun" operası təqdim edilir. Bu opera ilə də Üzeyir Hacıbəyli bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuş olur.

Dahi Üzeyirin musiqi yaradıcılığında diqqət çəkən məqamlardan biri də "Arşın mal alan", "O olmasın, bu olsun" kimi dərin insani duyğuları ifadə edən gözəl səhnə əsərləri yaratması idi. Bəstəkarın yaradıcılığının zirvəsi isə "Koroğlu" operası hesab edilir. Bu opera türk xalqlarının qəhrəmanlıq dastanı hesab edilən eyniadlı dastan əsasında hazırlanır və Azərbaycan mədəniyyəti tarixində özünəməxsus yer tutur. Bütün bu kimi əsərləri ilə bəstəkar xalqının maariflənməsinə, milli oyanış və özünüdərkinə nail olmuş olur.

Qeyd etdiyimiz kimi, Üzeyir Hacıbəyli mədəniyyəıt tariximizdə təkcə bəstəkar kimi ad qoymayıb. O, böyük maarifçi-ziyalı, peşəkar jurnalist, ədib, yazıçı kimi də tanınmaqdadır.

O, ədəbi-bədii yaradıcılığa publisistika ilə başlamış, anadilli qəzetlərdən olan "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal" qəzetlərində, "Molla Nəsrəddin" jurnalında, eləcə də rus dilində dərc edilən "Kaspi" qəzetində müxtəlif gizli imzalarla dövrün mühüm ictimai-siyasi və mədəni-maarif məsələlərinə dair çoxlu sayda məqalə, felyeton, hekayə və satirik miniatürlər dərc etdirmişdir.

Nəticədə Üzeyir bəy qısa müddətdə (1905-1920) adi mühərrirlikdən Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktoru səviyyəsinədək yüksəlmiş, dövrünün görkəmli jurnalisti kimi parlamışdır (Mərdanov, 2011).

Ü.Hacıbəyli publisistik əsərlərini müxtəlif imzalarla dərc etdirirdi. Bu imzalar arasında "Filankəs", "Behmənkəs", "Lal uşaq", "Bisavad" imzaları daha məşhur idi. Üzeyir Hacıbəyli irsinin tədqiqatçısı, filologiya elmləri doktoru, professor Abdulla Abbasov çox gözəl qeyd edir ki: “müxtəlif üslublu

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

əsərlərdə ədib adətən görkəmli alim, güclü natiq, yüksək istedadlı publisist, məşhur sosioloq kimi çıxış edir" (Abbasov, 1976, s. 44).

Üzeyir Hacıbəylinin jurnalist kimi fəaliyyəti onun pedaqoji fəaliyyəti ilə üzvi əlaqədə idi. O, 1907-ci ildən başlayaraq təlim-tərbiyə və maarif sahəsində bir sıra mühüm işləri ilə yadda qalır. Ən böyük xidmətlərindən biri ondan ibarət idi ki, 1907-ci ildə "Rusi-türki və türkirusi" lüğətini tərtib edir və lüğətçilik sahəsində uğurlar qazanır.

Üzeyir Hacıbəyli xalqının maariflənməsi istiqamətində həyata keçirdiyi tədbirlər onun bir maarifçi kimi tanınmasına səbəb oldu.Bundan sonra xalqının ehtiyacını nəzərə alan dahi sənətkar 1908-ci ildə ibtidai məktəblərin I-II şöbələri üçün hazırladığı hesab dərsliyinin çapına nail olur.

"Tərcüman" qəzeti 28 dekabr 1908-ci il nömrəsində yazırdı: "Hesab məsələləri" müəllim Üzeyir Hacıbəylinin əsəridir, gozəl üsul ilə tərtib edilmişdir... Azərbaycan-türk şivəsində olduğundan məhəlli məktəblər ücün faydalı və lazımdır" (Mərdanov, 2011, s. 8).

Üzeyir Hacıbəyli öz qələmi ilə daim xalqının mədəniyyətə, müasirliyə qovuşmasına xidmət etmiş və bu yolda yorulmadan mübarizə aparmışdır. Bu məsələdən bəhs edən Mirzə İbrahimov çox haqlı olaraq qeyd edirdi: " o, publisistik yazılarında mütərəqqi ictimai-siyasi fikirləri müdafiə etməklə bərabər, həmişə bir yazıçı, bir sənətkar kimi çıxış edir, yəni obrazlı təfəkkür onun publisistikasının da əsas xüsusiyyətidir. O, toxunduğu məsələlərin psixoloji cəhətini heç zaman unutmur" (Hacıbəyli, 1985, s. 15).

Üzeyir Hacıbəyli məqalələrində pedaqoji ideyaları təbliğ edir, uşaqların təlim və tərbiyəsinin vacibliyinə toxunurdu. Eyni zamanda, tədrisin ana dilində aparılmasının da zəruriliyi fikrini irəli sürürdü. Əsl Azərbaycan vətəndaşı mövqeyində dayanan Üzeyir bəyin dilə sevgisi hər zaman hiss edilmiş, bir çox

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

məqalələrində məhz ana dili məsələlərini qabarıq şəkildə şərh edə bilmişdir.

Ana dilini ülvi bir məhəbbətlə sevən Üzeyir bəy yazırdı: "Bizim dilimiz Avropa alimləri və filosoflarının rəyinə görə, ən vüsətli və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və hisslərini bəyan etməyə qadirdir" (Şiriyeva, 2023).

Dilimizə verilən qiymət, onunən ali fikirlərin ifadəsi kimi təqdim edilməsi Üzeyirin dil sevgisindən irəli gəlir. Buna görə də məktəblərdə tədrisin Ana dilində aparılması ideyası ilə çıxış edirdi.

O, "Xəbərdarlıq" adlı məqaləsində milli məktəblər və maarif məsələlərinə toxunaraq qeyd edird: "Müəllimlik vəzifəsi çox çətin və məsuliyyətlidir. Hər adam onun öhdəsindən gələ bilməz, özünü müəllim adlandıran hər kəsə uşaqları tapşırmaq böyük bir xətadır. Təlimdən başqa uşaqların tərbiyəsi də müəllimin öhdəsindədir. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini poza bilər" (Şiriyeva, 2023). Bu fikir Üzeyir bəyin müəllim adına, müəllim əməyinə verdiyi dəyər və qiymətdir.

İnsanın kamilləşməsi, elm, bilik kəsb etməsinin yolu məktəbdən keçir. Üzeyir bəyin maarifçilk ideyalarının əsas səbəbi də uşaqların məktəbə gedib təhsil almaları ilə bağlı idi.

Gələcəyə gedən yolun məktəbdən keçdiyini qeyd edən sənətkar uşaqların təlim və tərbiyəsini həmişə vacib bilmiş, öz əsərlərinin dili ilə bu kimi məsələləri təbliğ etmişdir (Hacıbəyli, 2005).

Bütün bunlar Üzeyir bəyin xalqı üçün çalışdığının, xalqının gələcəyinin xoşbəxt və savadlı olması üçün mübarizə apardığının şahidi oluruq. Tükənməyən, iti qələmi ilə məhz bu amala xidmət etdi.

Üzeyir irsini yüksək qiymətləndirən Ulu öndərimiz cox gözəl qeyd edirdi: "Üzeyir Hacıbəyovun yaradıcılığı həmişə insanları vətənpərvərliyə dəvət edir. Biz bu gün də Üzeyir bəy

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Hacıbəyovun xatirəsini yad ediriksə, onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq" (Heydər Əliyev və Üzeyir bəy Hacıbəyli, 2023).

Bir sözlə, Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə mədəniyyət tariximizdə silinməz iz qoydu. Cəmiyyətin mədəni tərəqqisi üçün əlindən gələni etdi. Onun irsi ədəbi-mədəni intibahın güzgüsü kimi gələcəyə gedən yolumuza işıq saldı.

## Ədəbiyyat


1. Abbasov, A. (1976). *Üzeyir Hacıbəyovun sənətkarlığı*. Gənclik, 44.
2. Hacıbəyli, Ü. (1985). *Seçilmiş əsərləri*. Yazıçı, 653.
3. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri* (2 cilddə, I c.). Şərq-Qərb, 408.
4. Heydər Əliyev və Üzeyir bəy Hacıbəyli. (2023, iyun 9). *Ədalət* qəzeti, (22), 5.
5. Mərdanov, M. (2011). Üzeyir bəy Hacıbəyli: Böyük maarifçi, Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar. *Azərbaycan məktəbi*, (3), 6–20.
6. Şiriyeva, Z. (2023, sentyabr 18). Üzeyir Hacıbəyovun yaradıcılığı və maarifçilik fəaliyyəti. *Təhsil*.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 23-26**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 23-26**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Samirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-5933-3979
samirehesenova75@gmail.com
**Gülmira Əsədova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1914-8163
gulmirahaciyeva90@gmail.com

# Üzeyir Hacıbəyli yaradıcılığının üslub rəngarəngliyi və dil xüsusiyyətləri

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, musiqili komediya, bəstəkar-dramaturq, felyeton*

***Keywords:*** *Uzeyir Hajibeyli, musical comedy, composer-playwright, feuilleton*

Azərbaycan musiqi mədəniyyəti tarixində özünəməxsus rolu olan dahi şəxsiyyət Üzeyir Hacıbəyli milli bəstəkarlıq məktəbinin əsasını qoymuş, Azərbaycan musiqi tarixində ilk opera, musiqili komediya və bir sıra digər janrların yaradıcısı kimi tanınmışdır.

Fikrimə Ümummilli lider Heydər Əliyevin sözləri ilə başlamaq istəyirəm. Ulu öndər demişdir: "Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir".

XX əsr Üzeyir Hacıbəylinin musiqi, dramaturgiya yaradıcılığı və jurnalistlik fəaliyyətinin ən məhsuldar dövrü hesab edilir. M.F.Axundov və C.Məmmədquluzadənin dramaturji fəaliyyətini izləyən, şuxluğu, məlahəti, təbiiliyi ilə seçilən əsərlər yaradan Üzeyir Hacıbəyli Azərbaycan ədəbiyyat tarixinə misli

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

görünməmiş komediyalar bəxş etmişdir. Onun yaradıcılığına nəzər saldıqda bizləri bir məsələ düşündürür: bu əsərləri yaşadan şux, məlahətli, gözəl kolaritli xalq musiqiləridir, ya klassik məzhəkə kimi onların dramaturji cəhətdən məharətli quruluşa malik olamsı, gülüşlərinin məzəli və təbiiliyi və sürəkli olması? Suala belə cavab vermək olar ki, bu əsərlərdə şux musiqi ilə təravətli komediya bir- biri ilə o qədər sıx bağlanmışdır ki, onları bir-birindən ayırmaq mümkün deyil. Bu da Üzeyir Hacıbəylinin dramaturji fəaliyyətini və musiqi yaradıcılığını lazımi qədər öyrənməyə, izah etməyə və qiymətləndirməyə imkan verir. Üzeyir Hacıbəylinin dramaturgiyasının ən ümdə keyfiyyətlərindən biri onun məfkurəcə xəlqiliyi və məzmunca ictimailiyidir. Demək olar ki, onun yaratdığı əsərlərin mövzusu müasir həyatdan götürülmüşdür; müəllif öz şəxsi müşahidəsi əsasında həyat həqiqətlərini yığcam şəkildə əks etdirərək bədii yüksəkliyə qaldırmış, canlı, real xarakterlər yaratmış, məişətdə baş verən hadisələri canlandırıb bədii dildə hərəkətə gətirmişdir.

Beləliklə, görkəmli bəstəkar-dramaturq xalq ədəbiyyatından, əfsanələrdən aldığı mövzularla və qarşılaşdığı bir sıra təbii həyat səhnələrindən yığcam, milli ruhu təbliğ edən komediyalar yaratmışdır.

Üzeyir Hacıbəylinin müasir həyatı əks etdirən ilk əsəri "Ər və arvad" musiqili komediyasıdır. Komediya gənc Mərcan bəylə arvadı Minnət xanım arasında ziddiyyətdən başlayıb, bu xətt üzrə də inkişaf edir. Yazıçı böyük ustalıqla XX əsrin əvvəlində müxtəlif boyalarla belə gənclərin surətini yaratmış və onların həyat faciələrini qələmə almışdır (Qədimova, 2015).

Dramaturq öz komediyalarında komik vəziyyətlərlə bərabər, lirik və drammatik səhnələr də yaradır. Gülçöhrənin və Gülnazın, Əsgərin və Sərvərin saf eşqindən doğan lirik nəğmələr hadisələrin komik planına xələl gətirmir, əksinə, onu daha da qüvvətləndirir və təsirli edir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəylinin musiqidə olduğu kimi, dramaturgiya sahəsində də üstünlüyü onun demokratizmi və xəlqiliyi təbliğ etməsidir. Bu cəhət dramaturqun həm mövzularında, həm yaratdığı surətlərdə, həm də doğurduğu gülüşlərin məzmununda özünü göstərir. Xalqımıza məxsus adət və ənənələr, xoş yumor, hikmətli ifadələr, şən səhnələr, xoşniyyət, lirik əhval-ruhiyyə Üzeyir Hacıbəyli komediyalarının əsas qayəsini təşkil edir və bu əsərləri hər cür ağırlıq və cansıxıcılıqdan uzaqlaşdırır. Müəllif zahiri gülüş və təsirlərdən istifadə etmir; onun hər bir əsərində gülüş mövzunun daxilindən doğur, bədii təsir komediyaların təbii cərəyanı nəticəsində meydana çıxır. Hadisələrin baş verdiyi bu şəraitdə sənətkarın yaratdığı tacir Əsgər və Sərvər, Sultan bəy və Rüstəm bəy, Məşədi İbad, Gülçöhrə və Gülnaz, Sənəm, Telli və Gülpəri müstəsna surətlər deyil, bəlkə də XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin real adamlarıdır.

Bəstəkar-dramaturqun yaradıcılığı olduqca çoxşaxəlidir. Üzeyir Hacıbəyli özünün pedaqoji və jurnalistlik fəaliyyətində zəngin müşahidə qabiliyyətinə yiyələnməklə bərabər, öz felyetonları ilə müəyyən yaradıcılıq təcrübəsi əldə etmişdir. O, felyetonlarındakı əsas mənanı oxucuya çatdıra bilir, onu güldürməyi və qəzəbləndirməyi bacarırdı.

Dahi sənətkar bir jurnalist kimi öz məqalələrində və publisistik yazılarında günün ən vacib məsələlərini işıqlandırmış, məfkurə cəbhəsinin ön xəttində yer almışdır. Üzeyir Hacıbəyli öz məqalələrində xalqının taleyini daim düşünən bir jurnalist kimi çıxış edir, xalqın adından danışır, felyetonlarında xalqının düşmənlərini və çar istibdadını ifşa edərək Mollanəsrəddinçilərlə birgə addımlayır. Yazıçının publisist yazılarının kiçik həcmdə olmasına baxmayaraq, o öz ideyalarını geniş oxucu kütləsinə çatdırmaq üçün maraqlı forma və yollar seçir, onlardan səmərəli istifadə etməyi bacarırdı.

Azərbaycan və rus dillərində publisistik janrın müxtəlif formalarında yüzlərlə əsər nəşr etdirən Üzeyir Hacıbəyli

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

yaradıcılığında bədii dil və üslub anlayışlarını ümumxalq dilindən ayırmır. O, xalq dilində işlənən söz və ifadələrlə milli ədəbi dili daha da zənginləşdirmiş, xalqa məxsus söz xəzinəsindən məharətlə istifadə etmişdir. Məsələn, “Heç hənanın yeridi?”, “Qızım sənə yaylıq alım”, “Bəs elə isə ver əlini”, “Mən tarixi-Nadiri yarısına qədər oxumuşam”, “Deyirlər ki, toy olacaq”, “Saqqalın ağlığı qocalığa dəlalət eyləməz”, “Buy, sənin evin yıxılsın Məşədi Səfi” və s.

Buradan belə nəticəyə gəlmək olar ki, mədəniyyət tariximizin mühüm bir sahəsi olan not sistemli musiqimizin və operamızın banisi Üzeyir Hacıbəyli, bir dramaturq kimi Azərbaycan ədəbiyyatı tarixində və klassik dramaturqlar sırasında görkəmli yerlərdən birini tutur.

O öz əsərlərində Azərbaycan dilinin canlı, tükənməz söz xəzinəsinin bədii imkanlarından məharətlə istifadə etmiş, bədii üslub məsələsinə xüsusi əhəmiyyət göstərmiş, müxtəlif üslublarda və janrlarda əsrarəngiz əsərlər yaratmışdır. Onun bizlərə miras qoyduğu bu xəzinə Azərbaycan xalqı, mədəniyyəti və ədəbiyyatı yaşadıqca daim yaşayacaq, əsərlərində qoyduğu ideyalar, yaratdığı mükəmməl obrazlar, oxuculara çatdırmaq istədiyi nəsihətamiz fikirlər gələcək nəsillərə örnək olacaq, Üzeyir sevərlərin yoluna mayak salacaq.

## Ədəbiyyat

1. Qədimova, X. A. (2015). *Üzeyir Hacıbəyli publisistikasının poetikası*. Avtoreferat, 28.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Tahirə Həsənova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
tahireh37@gmail.com
https://orcid.org/0000-0001-9092-2049
**Məhərrəm Həsənov**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0000-1680-8264
meherremaltay@gmail.com

# Üzeyir Hacıbəylinin musiqi dünyası

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, musiqi dünyası, opera, komediya, mədəni tərəqqi, milli musiqi*
***Keywords:*** *Uzeyir Hajibeyli, world of music, opera, comedy, cultural progress, national music*

Azərbaycan mədəniyyəti tarixində milli operamızın banisi, musiqişünas alim, dramaturq və ictimai xadim kimi tanınan dahi şəxsiyyətlərdən biri Üzeyir Hacıbəylidir. Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyev tərəfindən Üzeyir Hacıbəylinin 140 illik yubileyinin qeyd olunması ilə bağlı 3 fevral 2025-ci ildə Sərəncam imzalamışdır. Sərəncamda Üzeyir yaradıcılığına yüksək qiymət verilərək qeyd edilir: Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərlərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır... Üzeyir Hacıbəyli, eyni zamanda, parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

Bəli, Üzeyir Hacıbəyli Azərbaycan ictimai fikir tarixində, milli musiqinin inkişafında böyük rol oynamaqla, əsl vətənpərvər olduğunu sübut etmişdir. Azərbaycanın şəfalı guşələrindən birində anadan olan Üzeyir Hacıbəyli hələ uşaq yaşlarından musiqiyə böyük həvəs göstərmiş, bu səbəbdəndir ki, Şərq aləmində böyük musiqiçi kimi ad qoymuşdur. Musiqiyə olan marağını Üzeyir Hacıbəyli belə ifadə edirdi: "Mən ilk musiqi təhsilimi uşaqlıq zamanı Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam. O vaxt mən "Muğam və "Təsnif" oxuyurdum. Səsim xanəndələrin xoşuna gələrdi. Onlar məni oxudar və öyrədərdilər".

Beləcə, Üzeyirdə hələ uşaqlıqdan musiqiyə böyük həvəs yaranmış, milli musiqinin inkişafında öz xidmətləri ilə seçilmişdir. XX əsrin ilk onilliyi Azərbaycan xalqının mədəni həyatında  ən uğurlu, ən yadda qalan illərdən biri olur. Belə ki, Üzeyir Hacıbəyli tərəfindən milli operamızın əsası qoyulur, ilk musiqili komediya bu illərdə yaranmış olur. 1908-ci ildə Üzeyir Hacıbəyli ilk operası olan "Leyli və Məcnun" yaranır və bu opera həm Azərbaycanda, həm də Şərqdə ilk opera idi. Bununla da, Azərbaycanda bəstəkarlıq sənətinin əsası qoyulmuş olur.

Əlbəttə, bu böyük bir hadisə idi. Bunu da məhz Üzeyir Hacıbəyli bacara bildi. Bundan sonra isə sənətkarın musiqi sahəsindəki fəaliyyəti daha da genişlənmiş olur. 1909-1915-ci illərdə "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas"  və "Xurşudbanu" operalarını bəstələyir.

Dahi Üzeyirin musiqi yaradıcılığında diqqət çəkən məqamlardan biri də "Arşın mal alan", "O olmasın, bu olsun" kimi dərin insani duyğuları ifadə edən gözəl səhnə əsərləri yaratması idi. 1911-ci ildə tamaşaya qoyulan "O olmasın, bu olsun" musiqili komediyası Üzeyir Hacıbəylini böyük bir dramaturq kimi də

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

təsdiq etmiş oldu. Q.Şirvanski adlı bir müəllif "Zakavkazye" qəzetinin 29 iyun nömrəsində yazır: "...Əsərin ədəbi qiyməti haqqında mətbuatda çox yazılmışdır. Ona görə də mən ona toxunmayacağam. Ancaq onu deməliyəm ki, "O olmasın, bu olsun" bizim yeni doğulmaqda olan dram ədəbiyyatımıza böyük hədiyyəsidir. Onun müəllifinin adı isə artıq Axundzadə, Vəzirov, Haqverdiyev kimilərinin sırasında yer tutmaqdadır". Bu əsərlər müxtəlif dillərə tərcümə edilmiş, səhnədə müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

1919-cu ildə böyük bəstəkar şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı"na musiqi bəstələyir. Bu marş indi Azərbaycan Respublikasının Dövlət Himni kimi qəbul edilib.

Üzeyir Hacıbəyli yaradıcılığında diqqət çəkən məqamlardan biri də "Arşın mal alan" musiqili komediyasıdır. Bu əsər tez bir zamanda məşhurlaşır, hətta müəllifini də bütün dünyada məşhur edir. Bu əsər Bakı teatr səhnələrində 150 dəfədən çox oynanılır və bir çox dillərə tərcümə edilir.

Əlbəttə, bundan böyük uğur ola bilməzdi. Amma Üzeyir qısa zaman kəsiyində opera və musiqili komediyaları ilə bütün dünyada məşhur olur. Əsərləri sevə-sevə səhnəyə qoyulur və ictimaiyyətə təqdim edilirdi. Üzeyir Hacıbəyli bütün ömrünü, bilik və bacarığını müasir mədəniyyətin, musiqi elmi və musiqi sənətinin inkişafına sərf edir.

Üzeyir fantaziyası və istedadının qüdrət və əzəmətinin zirvəsində isə 1937-ci ildə yaratdığı "Koroğlu" operası dayanır. Xəlqilik, vətənpərvərlik ideyaları ilə yoğrulan bu opera təkcə bir musiqi əsəri kimi deyil, həm də klassik irsə, el ədəbiyyatına yanaşmaq, onlardan yaradıcı istifadə etmək prinsiplərinə sadiq qalmağın gözəl nümunəsi kimi də diqqət çəkirdi.

Ümummilli liderimiz Heydər Əliyev dahi bəstəkarın yaradıcılığını, xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyirdi: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur".

1995-ci ildə – bəstəkarın 110 illik yubileyi münasibətilə Ulu öndərimiz Heydər Əliyevin imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə 1985-ci ildə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Abidə, həmçinin dahi musiqiçinin şəhərdəki ev-muzeyi 1992-ci ildə ermənilər tərəfindən Şuşa işğal edildikdən sonra vandalizmə məruz qalaraq tamamilə dağıdılır.

Qarabağımız və onun tacı Şuşa 2020-ci ilin 44 günlük Vətən müharibəsində işğaldan azad edildikdən sonra Üzeyir bəyin doğma yurduna qayıdışı başlanır. Dövlət başçımızın iştirakı ilə 2021-ci il avqustun 29-da Şuşa şəhərində abidənin açılışı keçirilir.

Əlbəttə, Üzeyir Hacıbəyli bütün həyatını xalqına həsr etmiş, müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu kimi adını tarixə abədi həkk etmişdir. İllər keçsə də, Üzeyir Hacıbəyli musiqiləri öz təravətini itirməyəcək, xalqımızın yaddaşında ədəbi yaşayacaqdır.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 31-35**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 31-35**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Həsənəli Eyvazlı**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-5116-3646
h.eyvazli@gmail.com
**Zeynab Mehdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fələsfə doktoru
https://orcid.org/0000-0002-0564-8805
zeynabmehdiyeva@nmi.edu.az

# Şuşadan dünyaya süzülən musiqi sədaları

***Açar sözlər:*** *Musiqi, Üzeyir Hacıbəyli, Azərbaycan bəstəkarı, xalq artisti, Şuşa*
***Keywords:*** *Music, Uzeyir Hajibeyli, Azerbaijani composer, People's Artist, Shusha*

Musiqi və ədəbiyyat sahəsində çoxşaxəli yaradıcılıq yolu keçən, hər gün səslənən müxtəlif mövzulu mahnıları ilə xalqımızın yaddaşında yaşayan Üzeyir Hacıbəylinin 140 illik yubileyinin ölkə səviyyəsində keçirilməsi haqqında Azərbaycan Respublkası Prezidentinin sərəncamı ruh yüksəkliyi ilə qarşılanmışdır.

Şərqdə ilk opera yaradıcısı kimi məhşur olan Üzeyir Hacıbəyli mənalı ömrünü Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsi istiqamətində yorulmadan çalışmış, xalqımıza böyük şöhrət gətirmişdir. O, məhşur Azərbaycan bəstəkarı olmaqla yanaşı musiqişünas alim, publisisit, opera yaradıcısı və dramaturq kimi də uğurlu bir yol keçmişdir.

Uşaqlığı Şuşada keçən Üzeyir bəy mədrəsədə oxumuş, ərəb, fars dillərinə yüksək səviyyədə bələd olmuşdur. Sonralar rus-

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

tatar məktəbində oxumuş və Qori müəllimlər seminariyasına daxil olmuşdur. Orda bir neçə musiqi alətində çalmağı öyrənir ki, bu da gələcəkdə mahnılarımızın nota alınmasında, eyni zamanda opera və operettalara, filmlərə musiqilər bəstələməsinə yardımcı olmudur.

SSRİ xalq artisti kimi fəxri adı daşıyan Üzeyir Hacıbəyli həm də SSRİ Ali Sovetin deputatı kimi tez-tez Moskvaya getməli olurdu.

Ömrünü şərəflə yaşayan Üzeyir Hacıbəyli haqqında çox sayda məqalələr, kitablar yazılıb, adı dünya şöhrətliləri içərisində sayılan yerdədir.

Mən də 2010-2013-cü ildə "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" mənzum faciəsini yazıb Seçilmiş əsərlərin I cildində çap etdirdim. Həmin əsərdə sovet rejiminin repressiya qurbanlarından birinə çevrilən Hüseyn Cavidin və ailə üzvlərinin faciəli taleyindən, eyni zamanda, 24 il qısa və mənalı ömür sürmüş Ərtoğrol Cavidin şair, bəstəkar, rəssam kimi fəaliyyətindən bəhs etmişəm. Ərtoğrol Cavidin yazıb-yaratdıqları Üzeyir bəy və Bülbül tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan xalq mahnılarını, xalq rəqslərini nota köçürən Ərtoğrolun qayğısına qalmağı və işləməsinə şərait yaratmağı özlərinə borc bilirlər. Moskvadan gələn Üzeyir Hacıbəyov dostu Hüseyn Cavidin evinə gəlir. Burada bildirmək istərdim ki, Üzeyir bəyin siyasi və yaradıcılıq fəaliyyətinə ehtiram əlaməti olaraq 140 illik yubiley günlərində "Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" mənzum faciədə onun Hüseyn Cavid ailəsi ilə olan dostluğunu da bu yazıda əks etdirməyi özümə mənəvi borc bildim:

**Üzeyir bəy gəlir, Ərtoğrol onun qabağına gedir. Üzeyir bəy onunla mehriban görüşür.**

Üzeyir bəy – *(əlini Ərtoğrolun çininə vuraraq)*

Üç ay görməyəli, boyun ucalıb,
Sənmi böyümüsən, əmin qocalıb?

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 31-35**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 31-35**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

***Ərtoğrul utancaq halda kənara çəkilir,***
***Hüseyn Cavid gülə-gülə Üzeyir bəyə yaxınlaşır.***
Hüseyn Cavid –Gün hayannan doğub görəsən belə?
Nə yaman dönmüsən sən aya-ilə.
Üç aydır sorağın, səsin gəlməyir,
Getdiyin yeri də kimsə bilməyir.
Hökumət adamı olub getmisən,
Çinarsan, zirvədə daha bitmisən.
Bizim tək şairlər nəyinə gərək.
***(Üzeyir bəy keçib masanın arxasında oturaraq)***
Üzeyir bəy – Qoy hələ oturum, bir dayan görək.
Yaman darıxmışdım sizlər üçün mən,
***Ərtoğrola baxaraq***
Üzeyir bəy – Ərtoğrol böyüyüb, mətinləşibdi,
Hüseyn Cavid – Ərtoğrolun işi çətinləşibdi.
Bir yandan institut, bir yandan da siz,
Oğlumun ürəyin yaman üzürsüz.
Tamam əldən düşüb, hey yazıb-pozur,
Mahnı bəstələyir, gah şeir yazır.
Üzeyir bəy – Qoy yazsın, yaratsın, halaldır ona,
Ustad şairimiz Cavid oğluna.
Fitri istedaddır başdan, binadan,
Bəstəkar doğulub elə, anadan.
Hüseyn Cavid – *(əli ilə yuxarıya işarə edərək)*
Orda, Moskvada necədi işlər?
Söylə, necə keçdi orda görüşlər?
Üç aydır sorağın, səsin də yoxdu,
Düşündüm, yəqin ki, işlərin çoxdu.
Üzeyir bəy – *(qeyri-ixtiyari ətrafına baxaraq)*
Yenə aləm orda qarışıb yaman,
Sanki Moskvada başlayıb tufan.
“Düşmən” adı ilə tuthatut gedir,
Çoxu bu ölkəni qaçıb tərk edir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Stalin hamıya düşmən tək baxır,
Gözündən ildırım, şimşəklər çaxır.
Kimsə deyə bilmir ürək sözünü,
Hər gün həbs eləyir neçə yüzünü.
Hüseyn Cavid – *(təəccüblə)*
Niyə? Günahı nə, tutulanların?
Üzeyir bəy – Bu gün gördüyünü tapmırsan yarın.
Hamı suçlu olub onun gözündə,
Min məna axtarır hər bir sözündə.
Hüseyn Cavid – "Dur" - deyən tapılmır vəhşi despota?
Bir gün də dövlətə dəyəcək xata.
Üzeyir bəy – Özü bilə-bilə eləyir bunu,
Şər atıb tuturlar inan çoxunu.
Deyir zinovyevçi, trotskiçi,
Gərək güllələnsin, yoxsa da suçu.
Hüseyn Cavid – Tanrı uzaq etsin bizdən bu şəri,
Tamam kor qoyacaq bütün bəşəri.
Üzeyir bəy – Adını qoyubdu "repressiya",
Daha kimsələri saymayır saya.
Qorxuram, bura da əl ata bir gün,
Çoxu güllələnə, edilə sürgün.
Hüseyn Cavid – *(təşvişlə)*
Yəni, seçəmməyir əyrini, düzdən?
İnsanı məhv etmək bir quru sözdən?
İpini yığanlar tapılmır onun?
Yaxşı görməyirəm bu işin sonun
Üzeyir bəy – Üçlük yaradılıb hər bir bölgədə,
Yığılıb oraya hər gədə-güdə.
Bizdə də deyəsən qopacaq tufan,
Ehtiyatlı dolan hər zaman, hər an.
Hüseyn Cavid – Mən şair babayam, bir fəqir müəllim,
Kimsəyə acı söz deməyib dilim.
Mən ki, tanımıram Trotskini,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Nə də Zinovyevin ulu nəslini.
Üzeyir bəy – Sən necə də safsan, şair qardaşım,
Ürəkdən sevdiyim gözəl sirdaşım.
Quzu dayansa da qurddan aşağı,
İstəsə, bəhanə tapacaq yağı.
Hüseyn Cavid – Mir Cəfər nə deyir bu oyunlara ?
Üzeyir bəy – Hələ ki, seyrçi qalıb onlara.
Mən də duyammıram fikrini onun,
Yaxşı görməyirəm bu işin sonun.
Hüseyn Cavid – *(Dönərək nigarançılıqla Turanla*
*Ərtoğrol olan otağın qapısına tərəf baxır)*
Nədir günahları bu cavanların?
Bizsiz necə olar günü onların?

*Cavid, Üzeyir bəyin qolundan tutaraq səhnədən çıxır,*
*Mişkinaz onların arxasınca baxır əllərini göyə açaraq dua edir.*

Mişkinaz xanım– *(həyəcanla)*
İlahi, sən özün qoru bunları,
Xalqa lazım olan bu insanları.- deyərək onların arxasınca çıxır. *("Ərtoğrol Cavid, yaxud bir ailənin dramı" səh. 11-15)*

Üzeyir bəyin 140 illiyi münasibəti ilə bu yazıya pyesdən əlavə etdiyim xatirələr, dahi bəstəkarımıza kiçik ərməğanımdır.

Dahi Üzeyir Hacıbəyli kimi Vətən övladının haqqında bu günədək nələr desəm, nələr yazsam, hamısı deyilib və yazılıb. Bu günədək Azərbaycanda böyüyən şüurlu gəncliyimiz özlərini Üzeyir Hacıbəylinin davamçıları və övladları olmaları ilə fəxr edirlər.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 36-38**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 36-38**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Nazilə Muradova**
Naxçıvan Müəllimlər İnstitutu
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-0682-7095
nazilamuradova@gmail.com

# Üzeyir Hacıbəylinin yaradıcılığında riyaziyyat və musiqinin ahəngi

***Açar sözlər:*** *pedaqoji tələblər, riyaziyyat, musiqi, riyazi nisbətlər, inteqrasiya*
***Keywords:*** *pedagogical requirements, mathematics, music, mathematical ratios, integration*

Üzeyir Hacıbəyli zəngin yaradıcılığı və çoxşaxəli fəaliyyəti ilə Azərbaycan mədəniyyətinin inkişafında əvəzsiz rolu olan şəxsiyyətlərdən biri olmuşdur. O yalnız musiqi sahəsində deyil, həm də təhsil sahəsində də mühüm izlər qoymuşdur.

Üzeyir Hacıbəyli Azərbaycan milli musiqisinin banisi, bəstəkar, ictimai xadim kimi tanınsa da, onun musiqi nəzəriyyəsinə yanaşmasında və əsərlərində xüsusi riyazi düşüncəyə malik olduğu aşkar görünür. Belə ki, o bir maarifçi kimi riyaziyyatın təhsildə mühüm rola malik olduğunu dəfələrlə vurğulamış, hətta qəzet və jurnallarda yazılarla çıxış edərkən də elmin, xüsusilə riyaziyyat kimi dəqiq fənlərin təbliğinə daim çalışmışdır. Üzeyir bəy məqalələrində təhsilin əsaslı olmasını və şagirdlərin məntiqi təfəkkürünün inkişafını vacib sayırdı ki, bu da məhz riyaziyyat fənninin tədrisinin zəruriliyini önə çıxarırdı.

Üzeyir Hacıbəylinin riyaziyyat sahəsindəki ən əsas töhfələrindən biri də 1908-ci ildə nəşr olunan "Hesab məsələləri" dərsliyidir. "Hesab məsələləri" dərsliyi onun təhsil sahəsindəki uzaqgörən yanaşmalarını və millətinə olan

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 36-38**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 36-38**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

xidmətini göstərən bir nümunədir. O, bu dərsliyi ilə müsəlman balalarının digər xalqlardan geri qalmaması və dəqiq fənlərə yiyələnməsi üçün imkan yaratmışdır. Üzeyir Hacıbəyli dərsliyin müqəddiməsində yazırdı: "Mənim qəsdim şagirdlərimizi məsələ həllində müzakirə və mübahisəyə adət etdirməkdir. Çünki çox vaxt müsəlman şagirdləri hesab məsələlərini "nə üçün" və "çünki"siz həll edib, dəlil və sübutlar gətirməyə aciz olurlar".

Üzeyir Hacıbəylinin "Hesab məsələləri" dərsliyi ibtidai məktəb şagirdləri üçün nəzərdə tutulmuşdur. Dərslik üç hissədən ibarət olub, birrəqəmli ədədləri, yuvarlaq onluqları və ikirəqəmli ədədləri əhatə edirdi. Hər bir hissə ardıcıl, pedaqoji tələblərə uyğun şəkildə təşkil edilmişdi. Dərslikdəki məsələlər real həyatla əlaqələndirilmiş və bununla da riyaziyyatın həyatla əlaqəsi, gündəlik həyatda riyaziyyatın rolu üzə çıxarılmışdır.

Ümumiyyətlə, Üzeyir bəy Hacıbəylinin riyaziyyatın cəmiyyətin inkişafında oynadığı rola dair fikirləri, musiqi ilə riyaziyyatın əlaqəsinə dair düşüncələri xüsusilə maraq kəsb edir. O, Şərq və Qərb musiqisinin fərqlərini izah edərkən qeyd edirdi ki, Avropa musiqisi elmi əsaslara söykənir. O, bu zaman məhz harmoniyanın riyazi dəqiqliklə qurulduğunu vurğulamışdır. Bu baxımdan Üzeyir bəy musiqidə riyazi ardıcıllıqlara, ahəng qanunauyğunluqlarına və struktur sisteminə xüsusi önəm vermişdir.

Azərbaycan musiqisinin inkişafında böyük rolu olan Üzeyir Hacıbəyli musiqi ilə riyaziyyat arasındakı inteqrasiyanı öz əsərlərində də əks etdirmişdir. Belə ki, o musiqi nəzəriyyəsini tədqiq edən mühüm elmi əsəri olan "Azərbaycan xalq musiqisinin əsasları" əsərində musiqi nəzəriyyəsi və praktikasında riyazi prinsiplərin tətbiqinin mümkünlüyünü, musiqinin strukturunun və harmoniyasının riyazi əsaslarla qurulması məsələlərinə dair fikirlərini ifadə etmişdir. Digər tərəfdən Üzeyir bəy muğamların və xalq mahnılarının strukturunun analizi zamanı musiqi fazalarının və intervallarının riyazi

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

nisbətlərini də araşdırmışdır. Bu isə riyaziyyatın digər elmlərdəki rolunu bir daha üzə çıxarır və onun dəqiq elm kimi əhəmiyyətini vurğulayır.

Üzeyir bəy Hacıbəyli bəstələdiyi əsərlərində də musiqinin strukturunu və harmoniyasını riyazi prinsiplərə uyğun olaraq qururdu. Belə ki, musiqinin strukturunun və harmoniyasının riyazi nisbətlərə əsaslanması musiqinin mükəmməl və ahəngdar olmasına imkan yaradırdı. Qeyd etmək lazımdır ki, onun "Leyli və Məcnun" və "Koroğlu" operalarında musiqinin fazaları və intervalları riyazi nisbətlərə əsaslanaraq tərtib edilmişdir. Əsərlərində riyaziyyatın tətbiqi Üzeyir Hacıbəylinin musiqi sənətinə verdiyi töhfələri daha da qiymətli etmişdir, musiqi əsərlərini həm estetik, həm də elmi cəhətdən zəngin olmasına imkan vermişdir.

Ümumiyyətlə, Üzeyir Hacıbəylinin musiqi və riyaziyyat arasındakı inteqrasiyanı öz əsərlərində əks etdirməsi musiqi nəzəriyyəsinin elmi əsaslara dayandığını və musiqinin riyazi prinsiplərlə qurulmasının vacibliyini göstərir. Üzeyir Hacıbəylini tədqiq edərkən o qənaətə gəlmək olur ki, riyaziyyat və musiqi arasında maraqlı vəhdət mövcuddur. Bu iki sahənin ilk baxışda fərqli görünməsinə baxmayaraq onlar arasındakı qarşılıqlı əlaqə bir-birini tamamlayır və zənginləşdirir. Riyaziyyat və musiqi arasındakı bu əlaqə insanın yaradıcı və analitik düşünmə qabiliyyəti artırır.

Riyaziyyat və musiqi gözəllik, harmoniya və nizam deməkdir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 39-42**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 39-42**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Nəzakət İsmayılova**
Naxçıvan Müəllimlər İnstitutu
fililogiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-3730-6838
nezaket.ismayilova@yahoo.com
**Sevinc Vəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-0710-6324
veliyeva_1979@bk.ru

# Üzeyir Hacıbəyli elm, maarif və məktəb haqqında

***Açar sözlər:*** *maarifçilik, milli məktəb, ana dili və tədris, pedaqoji fikir, dərslik və təhsil islahatları*

***Keywords:*** *enlightenment, national school, mother tongue and teaching, pedagogical ideas, textbooks and educational reforms*

Üzeyir Hacıbəylinin coxşaxəli yaradıcılığına müxtəlif asbektlərdən yanaşmaq mümkündür. Onun musiqi sahəsində yaratdığı möhtəşəm əsərləri, istər müəllim və pedaqoq kimi maarifçilik fəaliyyəti, istərsə də ədəbiyyat və mətbuat sahəsindəki fədakarlığı danılmazdır. Xalq maarifinin müxtəlif məsələləri barəsində söylədiyi mülahizə və fikirlər tarixi, nəzəri, əməli baxımdan indi də öz dəyərini və əhəmiyyətini saxlamaqdadır. Bu mənada deyə bilərik ki, Üzeyir Hacıbəyli bütün xalqa və hətta insaniyyətə xeyir vermək xalqının, vətəninin tərəqqisinə səbəb olmaq üçün yaranmışdır. Üzeyir Hacıbəylinin bütün yaradıcılığının məğzində elm, maarif və

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

məktəb, tərbiyə məsələlərilə yanaşı millilik, varislik, xəlqilik və müasirlik dayanır.

Üzeyir Hacıbəyli böyük maarifçi-pedaqoq və ziyalı kimi millətin tərəqqisi və oyanışında, milli dirçəliş və özünüdərk hisslərinin yaranmasında, müstəsna rolu var. Çünki milli istiqlala aparan yolun məhz xalqın maariflənməsindən keçdiyini görürdü. O, maarifsizliyi və savadsızlığı çox qorxulu hal hesab edirdi. Haqlı olaraq belə düşünürdü ki, elm və maarif olmayan yerdə zülm və istibdad hökm sürəcəkdir. Onu həmişə düşündürən ən vacib məsələlərdən biri tezliklə məktəblər açıb bütün elmləri öz ana dilimizdə tədris etmək idi. Ü.Hacıbəyli ana dilimizin ən fəal təəssübkeşi olmaqla yanaşı eyni zamanda Dilimizi öyrənməyin və öyrətməyin yolları göstərilir, öz ana dilini bilməyənlər "zavallı" adlandırılır. Onun fikrincə, milli məktəbin vəzifəsi ana dilini uşaqlara mümkün qədər mükəmməl öyrətməklə yanaşı, digər dilləri də onlara təlim etməkdir. Dilimizi öyrənməliyiz, öz rifah və səadətimiz üçün öyrənməliyik öz mədəniyyət və mərifətimiz üçün öyrənməliyik.

Məktəbdə dərsliklərin keyfiyyəti və məzmunu, dərslik catışmazlıqları onu həmişə narahat edirdi. Hələ Qori müəllimlər seminariyasında oxuduğu illərdən belə bu məsələ onu ciddi düşündürmüş, seminariyada oxuduğu illərdə "Mən gələcəkdə nə iş görəcəyəm?" mövzusunda yazdığı inşada belə yazmışdı: "Mən məktəblərimiz üçün ana dilində hesab, coğrafiya və s. dərs kitabları tərtib edəcəyəm". Üzeyir Hacıbəyli sonralar hazırladığı dərsliklərdən biri - "Hesab məsələləri" dərsliyi 1908-ci ildə çap olunmuşdu. Bu dərslik haqqında dahi M.Ə.Rəsulzadə və görkəmli maarifçi İ.Qaspıralı mətbuat səhifələrində dərsliyi yüksək qiymətləndirmişlər. M.Ə.Rəsulzadə bu dərsliyi Komarovun kitabı ilə müqayisə edir, belə bir dərsliyin olmadığını qeyd etmdir. Dərsliyin anlaşıqlı dildə yazıldığını, misal və məsələlərin cavablarının hamısının düzgün olduğunu və bu kitabı bütün Qafqaz ibtidai məktəbləri üçün tövsiyə edirdi.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyli dərslik tərtib edərkən tərbiyə prinsiplərini, elm, bilik və əxlaqın qarşılıqlı əlaqəsini düzgün nəzərə almışdır. 1909-cu ildə "İrşad" qəzetində yazırdı: "Uşaqların həm qəlbini, həm ağlını, həm də zövqünü tərbiyə edəcək dərsliklər yazılmalıdır. Uşaqlar məktəbdə təkcə bilik öyrənmitlər həm də onların həyata baxışı və zövqü formalaşmalıdır. Uzeyir bəy təhsildə əsas sima olan müəllimə yüksək qiymət verir və belə söyləyirdi: "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Onun fikrincə, müəllim hər şeydən əvvəl yüksək şəxsi keyfiyyətlərin daşıyıcısıdır. O, yüksək əqidə sahibi, öz peşəsinin vurğunu olmalı, yüksək mədəniyyətə, pedaqoji etikaya və mənəviyyata, dərin biliyə və erudisiyaya, yüksək nüfuza malik olmalıdır. Hər cəhətdən hamıya nümunə olmalı, öz məsuliyyətini dərindən dərk etməlidir. Məşhur pedadoq K.D.Uşinskinin təbirincə desək: "Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, o, oxumağı dayandırdıqda ondakı müəllimlik ölür" fikri bu gün də aktual və gərəklidir.

Tərbiyə məsələlərinə cox ciddi yanaşan Ü.Hacıbəyli «Xəbərdarlıq» məqaləsində deyirdi: «Doğrudan da uşaq tərbiyəsi çətindir…Tərbiyənin yolunu ancaq elm sahəsində bilmək mümkündür". Onun tərbiyə haqqındakı fikirlərinin əsasını humanizm, vətənpərvərlik, beynəlmiləlçilik, nikbinlik, mübarizlik təşkil edir. Görkəmli ədib insanda yüksək mənəvi sifətlərin yaranmasına məhz uşaqlıq dövründən diqqət yetirilməsinə və ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi. Apardığı müşahidələr nəticəsində belə qənaətə gəlmişdi ki, uşağın inkişafının istiqaməti və intensivliyi bilavasitə ilkin tərbiyədən – ailə tərbiyəsindən asılıdır. Çünki uşağın fiziki və psixi inkişafının ilk rüşeymləri ailədə qoyulur. Ü.Hacıbəyovun fikrincə, ailədə tərbiyə məsələsinin düzgün qoyuluşu şəxsiyyətin gələcək inkişafına güclü təsir edir.

Azərbaycan pedaqoji fikir və təhsil tarixində silinməz iz qoymuş Ü.Hacıbəyli uşağın tərbiyəsində ailə və məktəbin eyni

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

dərəcədə mühüm rolu olduğunu göstərir. Uşaq tərbiyəsinə ümumxalq işi kimi baxır müəllimləri, valideynləri və ictimaiyyət nümayəndələrini bu sahədə qarşıya çıxan hər cür çətinliyə dözməyə çağırırdı.

Ümumiyyətlə fikrimi yekunlaşdıraraq deyə bilərəm ki, Ü.Hacıbəyov istedadlı bəstəkar olmaqla yanaşı həm də gənclərimizin tərbiyəsi ilə məşğul olan ən yaxşı müəllimdir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 43-45**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 43-45**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Şəhla Süleymanova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-2499-7197
shahla.suleymanova@bk.ru

# Üzeyir Hacıbəylı yaradıcılığında estetik görüşlər

***Açar sözlər:*** *estetik tərbiyə, estetik hiss, musiqi, bəstəkar, incəsənət, mədəniyyət*

***Keywords:*** *aesthetic education, aesthetic feeling, music, composer, art, culture*

XX əsrin mədəniyyətində, incəsənətində, ictimai fikir tarixində özünəməxsus yer tutan Üzeyir Hacıbəyov, milli operanın banisi, maarrif işçisi, dramaturq kimi öz xalqının milli mənafeyinə yönəlmiş həyat yolu keçmişdir. Onun hər əsəri, hər publisistik yazısı xalqının yüksəlişi üçün bir stimul olmuşdur. O cəmiyyəti ləyaqətli olmağa, vətənpərvər kimi yetişməyə çağırır, bunun üçün əlindən gələni edərək, əsərləri vasitəsilə istər əxlaqi, istər mənəvi, istər estetik dəyərləri aşılamağa çalışırdı. Xalqının maarrif və mədəniyyət cəhətdən inkişafı üçün jurnal və qəzetlərdə publisistik yazılar dərc edirdi.

İlk fəaliyyəti müəllimliklə başlayan Üzeyir ömrü musiqi ilə şaxələnərək daha geniş kütləyə çatmağı bacarmışdır. Estetik dəyərə malik irsi ilə seçilən dahi Üzeyir bəy, əsərləri vasitəsilə əsrlərə sığmayan şöhrəti ilə bütün dünyaya səs salmışdır. Müasir düşüncə tərzinə malik, analitik təfəkkürlü Üzeyir Hacıbəyov xalq musiqisinin paklığını öz əsərlərində qoruyub saxlamış, estetik sənət prinsiplərini daim yaradıcılığında əks etdirmişdir. O, “türkləşmək”, “müasirləşmək” ideyalarını musiqi sahəsində

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

daha da dərinləşdirmiş, bəstəkarlıq ənənəsinin banisi, milli mədəniyyətin, milli musiqinin təşəbbüskarı sayılmışdır.

Xalq musiqisinin əsaslarını 1925–ci ildə öyrənməyə başlayan Üzeyir Hacıbəyov Azərbaycan musiqisinin bütün janrlarının dərin təhlilini aparmışdır. Bu onda olan bədii - estetik görüşlərin dərin təcəssümü idi. O, xalq musiqisinin elmi əsaslarını işləyərək gələcək nəslə əmanət qoymuşdur. Hər yaradıcılığında gözəlliyi duymaq, gözəlliyə qiymət vermək kimi xüsusiyyətləri göstərməyə çalışmışdır. Bəstəkar hər zaman belə qənaətə gəlirdi ki, xalqın estetik, etik görüşlərini bilmək, onların arzu və düşüncələrini öyrənmək yaradıcılıq işində istifadədə önəmli yer tutur. O, hesab edirdi ki, xalqın əsrlər boyu yaratdığı folklora yeni nəfəs verərək daha da zənginləşdirmək olar. Bununla o, "Koroğlu" operasını yaradaraq, xalqın bizə miras qoyduğu dəyərləri özündə birləşdirən dastan vasitəsilə musiqi duyumunun vəhdətini yaratmaqla gələcək nəsillərə estetik dəyərləri aşılamağı bacarmışdır.

Yüksək estetik keyfiyyətli əsərlərin meydana çıxması üçün gərgin yaradıcılıq axtarışları aparan dahi bəstəkar "O olmasın bu olsun", "Arşın mal alan" operettalarının, "Rüstəm və Söhrab", "Əsli və Kərəm", "Harun və Leyla" əsərlərinin, "Hökumət və millət", "Osmanlıda inqilab qovğası", "Kəndçilərimizə dair", "Mədəni ingilislərin vəhşi yırtıcılığı", "Dövlət işləri", "Başçı lazımdır", "Müəllimlərimiz və mətbuat", "Vəkil seçkisi", "Təmizlik", "Köhnə çuxa", "Vətən dili" və s. məqalələr, felyetonlar vasitəsilə əxlaqi, əqli, estetik tərbiyənin ifadəsini musiqi, ədəbi ifadələr ilə zənginləşdirmişdir.

Xalqın daxili dünyasına çox yaxşı bələd olan bəstəkar onları əsərləri ilə valeh etməyə nail olmuşdur. Bu əsərlər vasitəsilə rolları ifa edən aktyorlar da xalqın sevimlisinə çevrilmişdilər. Belə ki, Məcnun rolunu ifa edən Hüseynqulu Sarabski xatirələrində insanların bir zaman onu istehza ilə qarşıladığını sonradan necə məhəbbətlə, hörmətlə qəbul etməsindən danışırdı. Bu aktyorun roluna qarşı məsuliyyətini də isbat edir. Aktyor

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

bununla öz yaradıcılığını ortaya qoymağı bacarmışdır. Bu onu göstərir ki, musiqi vasitəsilə insanların duyğularına, hisslərinə toxunmaq üçün onların daxili dünyasına bələd olmaq kifayətdir. Üzeyir Hacıbəyov xalqının daxili dünyasına toxunmaqla milli musiqimizin dünyada tanınmasına müvəffəq olmuşdur. Azərbaycan operası janrının təməlini "Leyli və Məcnun" əsəri ilə qoyan bəstəkar xatirələrində belə qeyd edirdi: "O vaxtı mən, operanın müəllifi ancaq solfecionun əsaslarını bilirdim və harmoniya, kontrapunkt musiqi formaları haqqında heç bir fikrim yox idi. Bununla belə "Leyli və Məcnun"un müvəffəqiyyəti böyük idi. Bu, mənim fikrimcə, onunla izah olunurdu ki, Azərbaycan xalqı artıq səhnədə öz Azərbaycan operasını görmək istəyirdi, "Leyli və Məcnun"da isə həqiqi xalq musiqisi populyar klassik mövzu ilə birləşdirilmişdir".

Sadəcə bədii yaradıcılıqla kifayətlənməyən Üzeyir Hacıbəyov həm də 1921–ci ildə Bakıda Azərbaycan Dövlət Türk musiqi məktəbinin əsasını qoymuş, 1927-ci ildə Müslüm Maqomayevlə birgə ilk "Azərbaycan türk el nəğmələri" məcmuəsini nəşr etdirmişdir.

Beləliklə, Üzeyir bəyin yaradıcılığını işıqlandırmaq üçün tədqiqatların aparılması hər zaman aktual məsələlərdəndir. Onun çoxşaxəli yaradıcılığı daim diqqət mərkəzində olaraq gələcək nəsillərin yararlanması üçün mənbə rolunu oynamalıdır. Ümumtəhsil məktəblərində estetik tərbiyənin formalaşdırılması yollarından biri kimi Üzeyir Hacıbəyovun əsərləri mühüm əhəmiyyətə malikdir. Üzeyir Hacıbəyov yaradıcılığının milli musiqi mədəniyyətinin formalaşmasındakı rolu, klassik və xalq musiqisi elementlərinin birləşməsində mövqeyi, onun estetik baxışları musiqi sənətinə yanaşma tərzinə təsiri hər zaman tədqiq edilən məsələlərdəndir. Həmçinin, onun əsərləri ilə yanaşı şəxsi keyfiyyətləri, daxili dünyası nümunə rolunu oynamalıdır. Onun nuru hələ çox yüzillikləri işıqlandırmağa müvəffəq olacaqdır.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 46-50**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 46-50**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Rövşən Vəliyev**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-0499-1205
rovshanveliyev1@gmail.com
**Aysen Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0003-1928-0743
aysenmemmedova261992@mail.ru

# Üzeyir dünyasına bir baxış

***Açar sözlər:*** *Üzeyir dünyası, maarif və mədəniyyət, hesab məsələləri, məntiqi və tənqidi təfəkkürün, musiqi dünyasına*
***Keywords:*** *Uzeyir's world, education and culture, arithmetic, logical and critical thinking, the world of music*

Üzeyir dünyası... Şuşa şəhərində Üzeyir Hacıbəylinin heykəli önündə dayanarkən böyük bəstəkarın yaratdığı sənət inciləri, musiqi əsərləri, opera və romanslar sanki insanı öz dünyasından ayırıb musiqi dünyasına aparır.

Üzeyir Hacıbəylinin heykəlinin yanında, Xurşid Banu Natəvanın həyatində səslənən musiqilər insana mənəvi qida verir.

Musiqiçilərin səsləndirdikləri musiqilərin sədaları altında ətrafa toplanmış turistlər rəqs edir. Üzeyir musiqisinin sədaları Şuşanın əzəmətli qayalarıqlarında, Cıdır düzündə, İsa bulağında, Vaqifin məqbərəsində eşidilir.

Bu gün - XXI əsrdən baxanda Üzeyir Hacıbəylinin həyatı, yaradıcılğı, insani keyfiyyətləri daha qabarıq, daha parlaq, daha aydın təzahür edir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyli Azərbaycan klassik musiqisinin təməlini qoymuşdur.

Ömrü boyu seçdiyi milli musiqi irsinin inkişafı yoluna sona qədər sadiq qalaraq, həyatı boyu insanı, bədii dəyərləri ayaqlamamışdır. 63 illik ömür yolunda başqasının, bəlkə də iki ömür boyu öhdəsindən gələ bilməyəcəyi işləri etmişdir.

Bəstəkarın yaradıcılığı bir sıra kitablarda – "Üzeyir Hacıbəylinin musiqi – estetik baxışları", "Üzeyir Hacıbəylinin yaradıcılığında nəzəri və estetik problemlər" və məqalələrdə təhlil edən Z.Səfərova hacıbəylişünaslığa böyük töhfələr vermişdir.

Üzeyir Hacıbəyli yaradıcılığında Qərb və Şərq musiqi üslubları birləşmiş, onun tərəfindən Azərbaycan xalq musiqisinin elementləri klassik Avropa ənənələrinə uyğunlaşdırılmışdır.

Üzeyir Hacıbəyli 1908 – ci ildə "Leyli və Məcnun", 1909 – cu ildə "Şeyx Sənan", 1910 – cu ildə "Rüstəm və Söhrab", 1911 – ci ildə "Şah Abbas və Xurşud Banu", 1912 – ci ildə "Əsli və Kərəm", 1915 – ci ildə "Harun və Leyla" operalarını yazmışdır.

1936 – cı ildə yazmış olduğu "Koroğıu" operasına görə yüksək mükafata layiq görülmüşdür.

Üzeyir Hacıbəyli 7 opera və 3 operetto yazmışdır.

1909 – cu ildə yazdığı "Ər və arvad", 1910–cu ildə qələmə aldığı "O, olmasın bu olsun", 1913–cü ildə yazdığı "Arşın mal alan" operettaları bütün dünyada məşhurdur.

Üzeyir Hacıbəyli Nizami Gəncəvinin sözlərinə "Sənsiz" və "Sevgili Canan" kimi musiqi əsərləri yaradaraq Azərbaycanda "romans – qəzəl" adlı kamera vokal musiqisinin yeni janrını kəşf etmişdir.

O, yüzlərlə mahnıya musiqi bəstələmişdir. Azərbaycan Dövlət Himninin musiqisi Üzeyir Hacıbəyli tərəfindən yazılmışdır.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyli nəninki tanınmış bəstəkar, Azərbaycanın müasir peşəkar musiqi sənətinin banisi, bütöv İslam dünyasında ilk operanın müəllifi olmaqla bərabər, XX əsrin əvvəllərində nəşr edilmiş hesab məsələ kitablarından birinin müəllifi olmuşdur.

Azərbaycanın böyük bəstəkarı Üzeyir Hacıbəylinin tərtib etdiyi "Hesab məsələləri" kitabı bu sahədə olan boşluğu aradan qaldırmaqda mühüm rol oynamışdır.

Azərbaycanda xalq maarifinin inkişafında əvəzsiz xidmətləri olan Üzeyir Hacıbəyli Azərbaycan xalqının maarif və mədəniyyətini yüksəltmək uğrunda fədakarlıqla çalışmışdır.

1904 – cü ildə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra Hadrut, Bibiheybət məktəbində, sonrakı illərdə şəhər məktəblərində müəllimlik etmişdir.

Üzeyir Hacıbəyli "Hesab məsələləri" kitabını azərbaycanlı uşaqlara öz ana dilində təhsil verməyə çalışan, ağır şəraitdə fəaliyyət göstərən müəllim və məktəblərə kömək məqsədilə tərtib etmişdir.

Müəllif kitabın əvvəlində "Bir neçə söz" başlığı altında öz arzularını bildirir: "Ana dilində, hesab məsələlərinə dair bir kitabçanın lizumini pedaqoqlarımızdan hər biri iqrar edir zənnində olub bu kitabçanı meydana çıxartmağıma səy etdim".

Hesab məsələlərinin titul səhifəsində göstərilir ki, "ibtidai məktəblərin birinci və ikinci şöbələri şagirdlərindən ötrü lizumlu bir dərs kitabıdır".

"Hesab məsələləri" kitabı Orucov qardaşlarının çapxanasında, 1907 – ci ildə 105 səhifə olmaqla nəşr edilmişdir.

Xalqının geriliyinə ürəkdən yanan, ürəyini xalqının savadlanması üçün məşələ çevirən böyük bəstəkar bu kitabı ana dilində məktəbin Azərbaycan xalqı üçün hava qədər lazım olduğu bir dövrdə yazmışdır.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

105 səhifədən ibarət olan olan bu kitab üç əsas hissədən ibarətdir: birrəqəmli ədədlər, yuvarlaq onluqlar və ikirəqəmli ədədlər.

Hər bir hissədə dörd hesab əməlinə aid çoxlu misallar və 352 məsələ çox münasib ardıcıllıqla düzülmüşdür.

Dahi bəstəkar kitabı yazarkən rus mənbələrindən istifadə etdiyini qeyd edir və təvazökarlıqla müqəddimədə yazır: “lakin öz təcrübəm ilə etdiyim xüsusi qaydaların tətbiqini də lazım gördüm”.

Əslində böyük ziyalı, pedaqoq düzgün metodiki prinsipi böyük məharətlə və o zamankı Azərbaycan şəraitinə tamamilə uyğun bir şəkildə həyata keçirməklə orijinal bir kitab yazmışdır.

Yazıldığı dövr üçün əhəmiyyətli olan kitabda hər hissədə bir, iki və üç suallı məsələlər verir. Məsələləri həll qaydasına görə qruplaşdırır və kitabın tərtibində eyni qrupdan olan məsələləri lazım gəldikdə başlıqla və ya haşiyə ilə bir – birindən ayırır.

Kitabın tərtibində diqqəti cəlb edən məsələlərdən biri də “suallar” başlığı altında əlavə tapşırıqların verilməsidir. Belə suallar hansı hesab əməlinin nə üçün tətbiq olunduğunu şagirdlərin təkrar vasitəsi ilə möhkəm mənimsəmələri üçündür. Başqa sözlə, şagirdlərdə məntiqi və tənqidi təfəkkürün formalaşması problemini ortaya qoyur.

Məsələlərin məzmunundakı xüsusiyyətlərə görə Üzeyir Hacıbəylinin “Hesab məsələləri” kitabı Azərbaycan pedaqoji fikir və məktəb tarixində olduqca əhəmiyyətli yer tutur.

Kitabda toplanmış məsələlər onu göstərir ki, o zaman yazılmış başqa kitablar ilə müqayisə olunduqda böyük pedaqoq və bəstəkarın o dövrdə nə qədər mütərəqqi fikirdə olduğu insanı heyrətə gətirir.

Kitabın dili haqqında Üzeyir Hacıbəyli yazır: “Dil cəhətinə gəlincə məsələlərin sırf türk dili ilə yazılıb, dilimizin müğayib cümlə və ibarələrdən, baxüsus rus dilinə mənsub idarəyi – kəlamdan azad olmasına artıq səy etdim”.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Böyük bəstəkar nəinki doğma ana dilində "Hesab məsələləri" kitabının müəllifi, həm də öz doğma ana dilinin inkişafı və təbliği sahəsində böyük işlər görmüşdür.

Bəşəriyyət tarixində elə şəxsiyyətlər olmuşdur ki, onlar özləri üçün yox, bəşəriyyət və öz xalqları üçün dünyaya xeyir gətirmək üçün, tərəqqiyə nail olmaq üçün yaranıblar. Məhz belə şəxsiyyətlərdən biri də böyük bəstəkar, pedaqoq, ictimai xadim, bu gün XXI əsrdən baxanda həyatı və insani keyfiyyətləri ilə daha qabarıq, daha aydın təzahür edən və dünya ölkələrinin musiqi tarixində öz adını qızıl hərflərlə yazan Üzeyir Hacıbəyli idi.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 51-54**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 51-54**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Mehmet Gökhan Özçubukçu**
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0000-0002-2632-9897
mehmetgokhanozcubukcu@gmail.com
**Ruhəngiz Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9466-4822
ruhangiz.aliyeva@list.ru

# Üzeyir Hacıbəyov və "Molla Nəsrəddin" jurnalı

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, azərbaycançılıq, türkçülük, azərbaycançılıq, millilik və ümumbəşərilik, "Molla Nəsrəddin" jurnalı*

***Keywords:*** *Uzeyir Hajibeyov, Azerbaijaniism, Turkism, Azerbaijaniism, nationality and universalism, magazine "Molla Nasreddin"*

Dahi bəstəkar, görkəmli yazıçı-publisist, jurnalist, alim və ictimai xadim, nəcib şəxsiyyət Üzeyir bəy Hacıbəyov mollanəsrəddinçilərin məslək, əqidə dostu idi. Professor Şirməmməd Hüseynovun tutarlı fakt, dəlillərlə "Üzeyir bəy Hacıbəyova qatiyyətlə mollanəsrəddinçi demək olar!" cavabı bunun bariz nümunəsidir (Aydınoğlu, Qarabağlı, 2007).

Bunun daha bir əyani sübutu kimi Ü.Hacıbəyovun mətbuatımızın bu bənzərsiz və əvəzsiz dərgisinin səhifələrində dərc olunmuş felyetonları təsdiqləyir. Mətbuat tarixindən və Üzeyir bəyin bioqrafiyasından məlumdur ki, 1904-cü ildə Qori Müəllimlər Seminariyasını bitirib bir il Hadrut kənd məktəbində müəllim işlədikdən sonra o, erməni-müsəlman davası ilə bağlı

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

fəaliyyətini ermənilər yaşayan bu məntəqədə davam etdirə bilmədiyindən Bakıya köçmüş və ömrünün sonunadək burada yaşayıb-yaratmışdır.

XIX əsrin sonlarından Bakını Azərbaycanın mədəni mərkəzi kimi formalaşdırdığından milli mücadiləyə qoşulan ziyalılar bu şəhərə can atırdılar. Həsən bəy Zərdabinin 1896-cı ildə Zərdabdan Bakıya qayıtması, Hacı Zeynalabdin Tağıyevin aldığı “Kaspi” qəzetində Əlimərdan bəy Topçubaşovla birlikdə jurnalistik fəaliyyətini davam etdirməsi, gənc Nəriman Nərimanovun böyük həvəslə geniş ədəbi, maarifçilik və publisistik fəaliyyətə başlaması, Şuşada Üzeyir bəyin müəllimi olmuş Haşım bəy Vəzirovun Bakıya köçüb naşirlik-mətbuat işinə başlaması kimi mühüm örnək-amillər Qori məzunu gənc Üzeyiri Hadruta getməzdən əvvəl də sevib-hörmət bəslədiyi milli ziyalıların çalışdığı Bakıya daxili bir qüvvə ilə cəlb edirdi.

1905-ci ilin yayında Bakıya köçən Üzeyir bəy yeni yaranan milli mətbuat orqanlarının qaynar mühitinə düşür. Əvvəl “Həyat” qəzetində tərcüməçilik edir, 1906-cı ildən isə “İrşad” qəzetində yetkin publisist kimi işə başlayır. Sonrakı illərdə o “Tərəqqi”, “Həqiqət”, “İqbal”, “Yeni iqbal”, “Açıq söz” kimi bir-birini əvəz edən nəşrlərin aparıcı publisisti və bəzilərinin redaktoru olur. Nəhayət, Üzeyir bəy Azərbaycan Xalq Cümhuriyyətinin orqanı olan “Azərbaycan” qəzetinə qardaşı Ceyhun Hacıbəyli Paris konfransına gedəndən sonra rəhbərlik edir.

Üzeyir Hacıbəyovu da Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev kimi mollanəsrəddinçi publisist saymaq olarmı? Bunun üçün-yəni Üzeyir Hacıbəyovun “sübut-dəlilli” mollanəsrəddinçi hesab olunması üçün mollanəsrəddinşünaslar onun “Molla Nəsrəddin” jurnalında ən azı bir yazısının çap olmasını əsas götürmüşlər.

Mirzə İbrahimov Üzeyir Hacıbəyovun bədii-publisistik yaradıcılığına həsr olunmuş “Tufanlara kömək edən bir qələm” kitabında Üzeyir bəy “Molla Nəsrəddin” jurnalında çıxış edibmi?" sualını belə cavablandırıb": “Üzeyir Hacıbəyov

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

mollanəsrəddinçilər yolunu tutaraq çox dərdlərimizdən yazmış, köhnə həyatın bir çox çürük cəhətlərini, mənəvi-əxlaqi səfalətlərini atəşə tutmuşdur”. Üzeyir bəydən mollanəsrəddinçi kimi bəhs edən Mirzə İbrahimov onun “Molla Nəsrəddin” jurnalında çıxış etdiyini də göstərir: “Üzeyir Hacıbəyov ”Molla Nəsrəddin", “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “İqbal” və sair qəzet-jurnallarda çap etdirdiyi saysız-hesabsız publisist yazılarında Azərbaycan xalqının həyatının, mübarizəsinin, təfəkkürünün müxtəlif sahələrini və problemlərini işıqlandırır, zəmanəsinin və xüsusən Rusiya ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif canlı məsələlərini əks etdirir".

Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru Şirməmməd Hüseynovun “Günay” qəzetinin 25 fevral 2005-ci il tarixli nömrəsində çap olunmuş “İki böyük şəxsiyyətin dostluğu və ”Molla Nəsrəddin"də iki felyeton" başlıqlı yazısı, başqalarını demirəm, mənim üçün riyaziyyat aləmində hansısa düsturun açılışı, tarixdə adı qalmış hansısa şəhərin qalıqlarını arxeoloqların torpaq qatı altından çıxarması xəbəri qədər əhəmiyyətli və sevindirici oldu. Bəli, Üzeyir bəy təkcə “Molla Nəsrəddin” in məslək dostu deyil, həm də bu jurnalda hələlik aşkar edilən 2 felyetonla çıxış etmiş mollanəsrəddinçi satirik-publisist olub. Şirməmməd müəllim inadlı axtarışları ilə “sübut-dəlil”i, nəhayət, ortaya qoydu: “Molla Nəsrəddin”in 1911-ci il 27 iyul tarixli 27-ci nömrəsində “Lal uşaq” gizli imzasıyla dərc olunmuş “Uşaq” və 4 avqust tarixli 28-ci nömrəsində “Hamamçı” imzası ilə işıq üzü görmüş “Hamam” felyetonları Üzeyir Hacıbəyovun qələmininməhsuludur.

Ü.Hacıbəyovun gizli imza seçməkdə özünəməxsus üsulu olub. O, gizli imzaları üçün eyni məna verən müxtəlif sözlər - sinonimlər seçirdi. "Filankəs", "Bəhmənkəs", "Bikəs", "Birşəxs", "Ordanburdan", “Oyandanbuyandan", "AnaşQurbağa", "Tısbağa", "Qatilov", "Behmankəs", "Cin", "XocaLələ", "Bızbıza", "Çoban", "Əqrəb", "Qaf”, "Bala uşaq", "Gendən baxan", "Gendən qulaq asan", "Yalançı" və s.onun imzaları olduğu tədqiq edilmişdir

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

(Üzeyir Hacıbəyli: biblioqrafiya: 1905–2015 / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası).

"Molla Nəsrəddin" jurnalının 1911-ci il 11 avqust tarixli 29-cu nömrəsində Üzeyir bəyin "Lal uşaq" gizli imzası ilə "Səs gəlir" sərlövhəli daha bir felyetonunun çap olunub. Qeyd edək ki, üzeyirşünas Səadət Qarabağlı da yazılarının birində bu fakta istinad etmişdir.Üzeyir Hacıbəyovun Bakıda çıxan anadilli nəşrlərdə "ordan-burdan" guşəsində 300-dən çox satirik yazısı çıxıb. Həmin guşə, əslində, məzmunca "Molla Nəsrəddin"in bir parçası, kiçik bir "Molla Nəsrəddin" idi. Üzeyir Hacıbəyov satirik-publisist kimi məhz "Molla Nəsrəddin" mövqeyində, "Molla Nəsrəddin"lə bir cəbhədə idi (Xalq qəzeti, 2007).

Nəhayət, biz Üzeyir Hacıbəyovdan "Molla Nəsrəddin"in məslək dostu olan böyük satirik-publisist kimi deyil, həm də "Molla Nəsrəddin" səhifələrində çıxış etmiş qələm sahibi kimi danışa bilərik. Hələlik 3 felyeton əsasında. Üzeyir Hacıbəyovu ruhən mollanəsrəddinçi sayanlar, sən demə, yanılırmışlar. Mirzə İbrahimov da haqlı imiş. Üzeyir Hacıbəyovun "Molla Nəsrəddin" məsləkinə sədaqəti bu jurnalın səhifələrindəki yazılarında da əks olunub.

## Ədəbiyyat

1. Aydınoğlu, T., & Qarabağlı, S. (2007). *Üzeyir bəy Hacıbəyov və "Molla Nəsrəddin"*. Adiloğlu.
2. Üzeyir Hacıbəyli: biblioqrafiya: 1905–2015 / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H. Haşımova; elmi red. və ön söz müəl. Z. Səfərova; ixt. red. və burax. məs. K. Tahirov; red. G. Səfərəliyeva. (2015). Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası. https://anl.az/down/hu_biblioqrafiya(1905-2015). pdf
3. Xalq qəzeti. (2007, aprel 13), 7.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 55-58**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 55-58**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Günay Şirəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0007-7723-4082
shiraligunay@gmail.com
**Ülviyyə Fətəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
doktorant
https://orcid.org/0009-0002-2764-1070
ulviyyefeteliyeva@nmi.edu.az

# Üzeyir Hacıbəylinin yaradıcılığında təlim-tərbiyə məsələləri

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, təlim-tərbiyə, maarifçilik, musiqi pedaqogikası, milli dəyərlər, əxlaqi tərbiyə, publisistika*
***Keywords:*** *Uzeyir Hajibeyov, education and upbringing, enlightenment, music pedagogy, national values, moral education, publicis*

Tezisdə XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-mədəni yeniləşmə prosesi fonunda Üzeyir Hacıbəylinin yaradıcılığında təlim-tərbiyə məsələlərinin əksi elmi şəkildə təhlil olunur. Müəllif Üzeyir bəyin təkcə musiqiçi deyil, həm də maarifçi, pedaqoq və ictimai fikir adamı kimi fəaliyyətini araşdıraraq, onun yaradıcılığında mənəvi dəyərlərin, insanpərvərliyin, qadın azadlığının və milli oyanışın təbliğini önə çəkir. Operalar və musiqili komediyalarda, publisistik yazılarda və pedaqoji fəaliyyətində Hacıbəylinin maarifçilik ideyaları və əxlaqi dəyərlərin təbliği sistemli və məqsədyönlü şəkildə əks olunur. Tezisdə, həmçinin onun musiqi təhsili sahəsindəki yenilikləri, müəllim obrazının formalaşdırılması və milli musiqi

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

məktəbinin təşəkkülü kimi məsələlər də pedaqoji kontekstdə şərh edilir. Nəticə etibarilə, Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan pedaqoji fikir tarixində müstəsna rol oynayan, çağdaş dövr üçün də aktual olan zəngin bir örnək kimi təqdim olunur (Hacıbəyli, 1961).

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-mədəni həyatında yeni mərhələnin başlanması ilə maarifçilik ideyaları geniş yayılmağa başladı. Bu dövrün görkəmli nümayəndələrindən biri olan Üzeyir Hacıbəyli həm musiqiçi, həm pedaqoq, həm də ictimai fikir adamı kimi milli oyanış prosesinə mühüm töhfələr vermişdir. Onun yaradıcılığı təkcə musiqi sənətimizin zirvəsi deyil, eyni zamanda təlim-tərbiyə ideallarının aydın şəkildə ifadə olunduğu nümunəvi bir təcrübədir.

Üzeyir Hacıbəyli milli musiqi mədəniyyətinin təməlini qoymaqla yanaşı, maarifçilik hərəkatının fəal iştirakçısı olmuş, xalqın tərəqqisini yalnız elmin və təhsilin inkişafında görmüşdür. Onun əsərləri, məqalələri və pedaqoji fəaliyyəti bütövlükdə təlim və tərbiyə məsələlərinin bədii və nəzəri baxımdan təcəssümünə xidmət etmişdir. Bu tezisdə Hacıbəylinin çoxşaxəli yaradıcılığında təlim-tərbiyə məsələlərinin hansı məzmun və formalarda əks olunduğu elmi şəkildə araşdırılır (Hacıbəyli, 1985).

Üzeyir Hacıbəylinin bədii yaradıcılığında təlim-tərbiyə məsələləri əsasən insanpərvərlik, mənəvi saflıq, zəhmətsevərlik və maarifçilik ideyalarının təbliği ilə ifadə olunur. Onun yazdığı operalar və musiqili komediyalar, xüsusilə "Leyli və Məcnun", "Əsli və Kərəm", "Arşın mal alan", "O olmasın, bu olsun" kimi əsərlərində yalnız musiqi dili ilə deyil, obrazlar sistemi və süjet xətti vasitəsilə də tərbiyəvi ideyalar önə çəkilir (Abbasova, 2005).

"O olmasın, bu olsun" əsərindəki obrazlar vasitəsilə müəllif cəhalət, fanatizm və geriliklə mübarizə aparır, cəmiyyətin maariflənməsi və yeniləşməsi zərurətini qabardır. Əsərin

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

qəhrəmanı Gülnazın azad seçim hüququ uğrunda apardığı mübarizə, müəllifin qadın azadlığı, ailə tərbiyəsi və fərdi inkişaf məsələlərinə yanaşmasının aydın göstəricisidir. "Arşın mal alan" komediyası isə həm ictimai münasibətləri, həm də fərdi davranışları maarifçi baxışla yenidən qiymətləndirən bir sənət nümunəsidir. Burada təhsilli və mədəni gənc obrazı – Əsgər timsalında yeni dövrün insan modeli təqdim olunur (Mehdiyev, 2007).

Üzeyir Hacıbəyli dövrünün qabaqcıl mətbuat orqanlarında – "Molla Nəsrəddin", "İrşad", "Həyat" və digər qəzet-jurnallarda dərc olunan publisistik yazılarında da təlim və tərbiyə məsələlərinə xüsusi yer ayırmışdır. O, maarifin, xüsusilə qızların təhsilinin vacibliyini dönə-dönə vurğulamış, müəllim şəxsiyyətinin cəmiyyətdəki rolunu yüksək qiymətləndirmişdir.

Məqalələrində müəllif xalqı elmə, savada, milli oyanışa çağırır, məktəbin təkcə bilik mənbəyi deyil, həm də insanın mənəvi tərbiyəsinin aparıcı institutu olduğunu bildirirdi. Üzeyir bəyin fikrincə, xalqın tərəqqisi məktəblərdə tədris olunan biliklərlə yanaşı, orada formalaşan əxlaqi və milli dəyərlərin cəmiyyətdə tətbiqi ilə mümkündür.

Hacıbəylinin pedaqoji fəaliyyəti də onun təlim-tərbiyəyə verdiyi önəmin praktik ifadəsi kimi diqqət çəkir. O, musiqi sahəsində ilk tədris proqramlarını, dərslikləri və metodik vəsaitləri hazırlamış, milli musiqi məktəbinin əsasını qoymuşdur. "Azərbaycan xalq musiqisinin əsasları" əsəri bu istiqamətdə mühüm elmi-metodik baza rolunu oynamışdır.

O, musiqinin öyrədilməsini təkcə texniki bacarıqların inkişafı kimi deyil, həm də insanın mənəvi aləminin zənginləşməsi prosesi kimi dəyərləndirmişdir. Hacıbəylinin müəllim obrazı – milli dəyərlərə bağlı, yüksək mənəviyyata malik, yaradıcı şəxsiyyət kimi təqdim olunur. Bu model sonradan Azərbaycan pedaqoji fikrində ideal müəllim tipinə çevrilmişdir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəylinin yaradıcılığı Azərbaycan maarifçiliyinin və pedaqoji fikrinin inkişafında mühüm mərhələ təşkil edir. O, həm sənətkar, həm də mütəfəkkir olaraq xalqın mənəvi dünyasının formalaşmasında, yeni nəsillərin tərbiyəsində, təhsilin və mədəniyyətin inkişafında müstəsna rol oynamışdır. Hacıbəylinin yaradıcılığında təlim və tərbiyə məsələləri yalnız ideya baxımından deyil, həm də forma və məzmun baxımından sistemli şəkildə təqdim olunmuşdur.

Onun bədii əsərləri, publisistik yazıları və pedaqoji fəaliyyəti vahid bir məqsədə – milli kimliyi və mənəvi bütövlüyü qoruyan, düşünən, yaradıcı və mədəni insan yetişdirmək amalına xidmət edir. Müasir dövrdə də bu irs aktual olaraq qalır və Azərbaycan təhsil sistemində pedaqoji nümunə kimi öz yerini qoruyur (Qasımzadə, 1981).

## Ədəbiyyat


1. Hacıbəyli, Ü. (1961). *Əsərləri* (6 cilddə). Azərnəşr.
2. Hacıbəyli, Ü. (1985). *Azərbaycan xalq musiqisinin əsasları*. Yazıçı.
3. Mehdiyev, M. (2007). *Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq yolu*. Elm və Təhsil.
4. Abbasova, M. (2005). *Üzeyir Hacıbəyli və maarifçilik*. Nurlar.
5. Qasımzadə, F. (1981). *Üzeyir Hacıbəyli və Azərbaycan musiqi mədəniyyəti*. Maarif.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 59-62**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 59-62**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Fəxriyyə Cəfərova**
Naxçıvan Müəllimlər İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-2345-67-89
ceferova.fexriyye@ mail.ru

# Üzeyir Hacıbəyli və dilimiz

***Açar sözlər:*** *Üzeyir Hacıbəyli, Ana dili, ədəbi dilin tərəqqisi, dili qorumaq, Ana dili məsələləri*

***Keywords:*** *Uzeyir Hajibeyli, Mother tongue, progress of literary language, language preservation, mother tongue issues*

XX əsr Azərbaycan xalqının tarixində yeni bir mərhələnin başlanğıcı deməkdir. Bu başlanğıc milli özünüdərk, milli şüurun formalaşması ilə xarakterizə olunur. Milli şüurun formalaşmasında, milli özünüdərkin əsasında dil məsələsi dayanır. Ulu öndərimiz Heydər Əliyev çox haqlı olaraq qeyd edirdi: "Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, Ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər Ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmət göstərmişlər" (Əliyev, 1997, s. 345).

Azərbaycanın dahi şəxsiyyətləri, böyük söz, sənət xadimləri həmişə müqəddəs Ana dilimizin qorunması yolunda böyük işlər görmüşlər. Belə şəxsiyyətlərdən biri də dünya şöhrətli bəstəkar, pedaqoq Üzeyir Hacıbəylidir. Üzeyir Hacıbəyli də digər mübariz insanlar kimi, bütün həyatı boyu Ana dili məsələlərinə xüsusi diqqət yetirmiş, yorulmaq bilmədən mübarizə aparmış,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Ana dili ilə bağlı silsilə məqalələr yazaraq bu yoldan çəkinmədiyini bəyan etmişdir. Üzeyir Hacıbəyli də millətin varlığının onun Ana dili ilə bağlı olduğunu qeyd edirdi. Ona görə də bütün xalq öz doğma Ana dilini qorumalı, inkişaf etdirməli, yad ünsürlərdən qorumağı bacarmalıdır. Bu, hər bir insanın müqəddəs borcu olmalıdır.

Üzeyir Hacıbəyli Ana dili ilə bağlı fikrini belə ifadə edirdi: "Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı, o millətin özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat vücud onun dilidir" (Verdiyev, 2025).

Üzeyir Hacıbəyli öz məqalələrində dəfələrlə ana dilimizin saflığı məsələsinə toxunmuş, bu dilin yad sözlərdən təmizlən-məsi məsələsi ilə çıxış etmişdir. Bu xüsusda onun "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" məqaləsi maraqlıdır.

Bu səbəbdəndir ki, Üzeyir Hacıbəyli 1906-cı ildə "İrşad" qəzetində yazırdı: "...Halbuki bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisanın sahibi olub da ondan istifadə etməməyin özü böyük bir bədbəxtlikdir" (Qarabağlı, 2014).

Üzeyir bəy Hacıbəyli fəaliyyəti boyu dilimizin təmizliyi, səlistliyi, sadəliyi, yad sözlərdən qorunması yolunda mübarizə aparmış, müxtəlif üsullardan istifadə edərək, onu xalqa çatdı-rmışdır. Belə ki, 1920-ci ildə Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetində "Çi" imzası ilə "Zurna" adlı felyetonunu çap etdirir. Bu felyetonda Üzeyir Hacıbəyli dil məsələsinətoxunuaraq qeyd edirdi ki: ".Gördüm ki, anam çox bilicidir, dedim, ay ana, kaş ki, sən mənimlə bütün idarələrimizin hamısını gəzib, hər kəsə özünə görə ad qoyaydın və bizə Ana dili öyrədə idin..." ("Azərbaycan", 1920).

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyli burda dilimizin nə qədər sadə olduğunu göstərir və bu dilin sadəliyini anasının nitqində görür.

Üzeyir Hacıbəylinin dilimizin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər sırasında Ana dilinin tədrisi məsələsi birinci yerdə dayanırdı. Bu məsələ ilə bağlı üç məqalə yazaraq  dilimizi öyrənməyin vacibliyini qeyd edirdi.

Bu məqalələrdə Üzeyir Hacıbəylinin Ana dili haqqında çox qiymətli fikirləri də yer alırdı. Ədib öz Ana dilini bilməyənlərə "zavallı" deyə müraciət edirdi. Bu səbəbdəndir ki, Üzeyir bəy öz dilini bilməyib, bu dildə danışa bilməyib, lakin ərəb, fars, rus, fransız, ingilis dilində danışanlara istehza ilə gülmüş, buna qarşı mübarizə aparmışdır.

Üzeyir bəy çox dil bilməyin əleyhinə olmamış, amma Ana dilini bilməyin vacibliyini qeyd etmişdir. Sonralar Ulu Öndərimiz Heydər Əliyev də bu məsləyə münasibət bildirmişdir. Ulu öndərimiz gözəl qeyd edirdi: "Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz Ana dilini-dövlət dilini yaxşı bilsin.

Xarici dil bilmək, əlbəttə ki, lazımdır, vacibdir: Mən bir daha arzu edirəm ki, vətəndaşlarımız İngilis dilini də, Rus dilini də, Fransız dilini də, Alman dilini də, Türk dilini də, Ərəb dilini də, Fars dilinidə, hətta Çin dilini də bilsinlər. Gənclərimiz nə qədər çox dil bilsələr bir o qədər zəngin dünyagörüşünə malik olacaqlar" ("Azərbaycan", 31 avqust 1997-ci il).

Bir sözlə, Üzeyir bəy də bütün həyatı boyu Ana dili məsələlərinə xüsusi diqqət yetirmiş, bu sahədə yorulmaq bilmədən mübarizə aparmışdır. Onun əqidəsinə görə millətin varlığının əsas amili onun dilidir və bu dili qorumaq hamının vəzifəsidir.

Əlbəttə,  dilimizin saflığı, qorunması məsələsi hər zaman mütəfəkkirlərin, ziyalıların diqqətində olmuş, bu istiqamətdə çox böyük addımlar atılmışdır.

https://doi.org/10.36719/2663-4619/0807/2025

Ana dilimizin saflığı, milliliyi, birinci növbədə, bu dildə yazıb-yaradan sənətkarlarımızın əsərlərində qorunaraq mühafizə edilmiş, gələcək nəsillərə ərməğan edilmişdir. Bu əsərlərin dili dilimizin qüdrətini, dilimizin ahəngdarlığını, dilimizin gözəlliyini nümayiş etdirir, bir millət kimi varlığımızı sübut edir.

**Ədəbiyyat**


1. "Azərbaycan" qəzeti. (1920, aprel 25).
2. "Azərbaycan" qəzeti. (1997, avqust 31).
3. Əliyev, H. (1997). *Müstəqilliyimiz əbədidir*. I c. Azərnəşr, 606.
4. Qarabağlı, S. (2014, fevral 8). Üzeyirşünas. *Xalq*, 7.
5. Verdiyev, İ. (2025, mart 6). Üzeyir Hacıbəyli və Bəxtiyar Vahabzadə: Dilimizin təəssübünü çəkən iki məsləkdaş. *Xalq*.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 63-66**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 63-66**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Vahid Rzayev**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4170-1880
vahidrzayev23@gmail.com

# Üzeyir Hacıbəylinin pedaqoji yaradıcılığında bir təlim üsulu haqqında

***Açar sözlər:*** *ideya, təlim, təbii üsul, lal oyunu, metod*
***Keywords:*** *idea, training, natural method, dumb game, method*

Dahi Üzeyirbəy Hacıbəyovun yaradıcılıq fəaliyyəti çox-şaxəli, zəngin mədəni bir irsdir. Onun yaradıcılıq fəaliyyətini təkcə musiqi sənəti ilə, bəstəkarlıq fəaliyyəti ilə məhdudlaşmır. O məşhur bəstəkar olmaqla yanaşı, musiqi nəzəriyyəçisi,yazıçı-dramaturq, musiqi təhsili təşkilatçısı, dövrünün eybəcərliklərini ifşa və tənqid edən məşhur felyotonlar müəllifidir. Üzeyirbəy pedaqoji fikir tariximizdə müasirlərindən heç də geri qalmayan fikir və düşüncələri, nəzəri-təcrübi, metodiki görüşləri ilə də məşhurdur. Böyük mütəfəkkir dövrünün pedaqoji ideyaları ilə yaxından tanış olmuş, zamanının pedaqogikasını, təlim-tərbiyə nəzəriyyəsini mükəmməl mənimsəmiş və bu ideyaların istedad və zəhmətsevərliklə yoğrulan təbliğatçısı kimi çıxış etmişdir.

Pedaqoji fəaliyyətə rus dili müəllimi kimi başlayan Ü. Hacıbəyov bu dilin tədris üsulları haqqında fikir və düşüncələri ilə diqqəti cəlb edən pedaqoqlardan biri olmuşdur. Hələ XIX əsrin 60-70-ci illərində N.İ. İlminskinin azlıqda qalan xalqlara ancaq rus dili vasitəsilə təhsil vermə və inkişaf etdirmə metodu Zaqafqaziya pedaqoqları tərəfindən kəskin tənqidə məruz qalmışdır. Buna görə də İlminski öz ideyasını yalnız Volqaboyu

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

xalqlarına tətbiq edə bildi. Lakin 90-cı illərin sonlarına doğru F. Levitskinin rus dilinin təbii metodla öyrədilməsi ideyası Zaqafqaziyada zorla tətbiq edildi. Zaqafqaziya pedaqoqlaarı bu metodun əleyhinə çıxsalar da, rəhbər göstəriş əsasında rus dili ibtidai məktəblərdə Leitskinin "Kursu" ilə keçirildi.

F.Levitskinin təbii metodu rus dilində sözləri öyrədərkən hərəkətlərlə izah etməyi üstün tuturdu. Sözün yerli xalqın ana dilində qarşılığı öyrədilirdi, uşaqlar rus sözlərinin mənasını hərəkətə görə elə rus dilində "öyrənirdilər". Professor A.Abdullayevin yazdığı kimi müəllimliyinin ilk günündən rus dilinin tədrisi ilə məşğul olmuş "Ü.Hacıbəyov bu zamanlar (XX əsrin əvvəlləri nəzərdə tutulur-V, R.) təcrübəli bir rus dili metodisti kimi mətbuat səhifələrində çıxışlar edir və Azərbaycan məktəblərində rus dilinin tədrisi metodikasına dair çox qiymətli məqalələr yazırdı... Bu məqalələrdə müəllif, azərbaycanlılara rus dili tədrisi məsələlərindən danışır və dərs zamanı təbii üsuldan daha çox istifadə tməyi müəllimlərə məslərət görürdü"[1]. Görkəmli pedaqoqun təbii üsul haqqında fikirləri kəskin mübahisələrə səbəb olmuşdur.

Bunu da qeyd edək ki, Ü.Hacıbəyovda daxil olmaqla azərbaycanlı pedaqoqlar təbii metodu, əsasən metodik baxımdan təhlil etmişlər, onun ruslaşdırma siyasəti daşıyan mahiyyətinə o qədər də diqqət yetirməmişlər. Məhz elə buna görə də o zaman gənc müəllim olan Üzeyir Hacıbəyov Levitskinin təbii üsulunu tətbiq etməyə çalışmışdır. Ona elə gəlirdi ki, qeyri -rus olan millətlərin oxuduqlqrı məktəblərdə "üsuli-tərcümə" əvəzinə "üsuli-təbii"dən istifadə edilməsi daha məqsədə müvafiqdir.

Bu cəhəti əsaslandırmaq istəyən pedaqoq yazırdı: "... fərza kitabda rusca yazılıbdır ki, "лошадь бежит", üsuli tərcümə ilə dərs verən müəllim uşaqlara deyir ki, лошадь- yəni at, бежит- yəni qaçır. Uşaq əzbərləyir: лошадь- yəni at, бежит-yəni yüyürür. Əminəm ki,bir azdan sonra uşaqdan soruşsan ki, "бежит" nədir? Cavab verir ki, at. Amma üsuli təbii ilə həmin

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 63-66**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 63-66**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

dərs belə verilir: əvvala müəllim kitabı qoyur kənara-qabaqca hazırlamış olduğu bir neçə at şəklini divardan asıb atın birini göstərir və deyir: лошадь. Sonra o biri atı göstərib deyir: тоже лошадь. Sonra uşaqlara məlum olan bir şeyi də, məsələn, adamı da göstərib deyir: это человек, это лошадь. Sonra uşaqlara bir it və ya bir inək şəkli götərib sorur: это лошадь? Əminəm ki, heç bir uşaq "da", yəni bəli deməz. Müəllim bir at göstərir ki, durubdur, sorur ki, bu at nə qayırır. Uşaq rusca cavab verir ki, durubdur. Bu "durubdur" sözünü keçən dərsdən öyrənibdir."[2]

Göründüyü kimi, Ü.Hacıbəyov "təbii metodu" əyanilik kimi qəbul edir, dərsdə bir kəlmədə ana dilində söz işlədilməsinə fikir vermir. Lakin məşhur pedaqoq Rəşid bəy Əfəndiyev dərhal gənc müəllim Ü.Hacıbəyova öz etirazını bildirir və yazır ki, bu üsul uşaqlar içərisində şaşqınlıq  salır və gülüş doğurur. O göstərirdi ki, "müəllim ibtidai təlimində şagirdlər ilə "lal oyunu" oynamayıb tərcümə üsuluna yol verməlidir.[3]

Bəzi müəllimlər yerinə görə iki üsulun ikisindən də istifadə etməyi lazım bilirdilər.Lakin pedaqoqların əksəriyyəti R.Əfəndiyevin haqlı sayır və "üsuli–təbii"nin əleyhinə çıxır. Ü. Hacıbəyov onunla razılaşmayanlara yenidən öz fikirlərini inandırmağa çalışır[4]. Lakin həyat və uzunmüddətli məktəb təcrübəsi R.Əfəndiyevin haqlı olduğunu sübut etdi. Çünki görkəmli pedaqoq yeni təlim-tərbiyə ideyalarına  yaxından bələd idi.

Üzeyir Hacıbəyov pedaqoji fikir tariximizdə ana dilinin təlimi, ana dilinin saflaşdırılması və ədəbi dil səviyyəsinə qaldırılması xüsusi mərhələ təşkil edir. Əlbəttə, rus dili müəllimi kimi Üzeyir Hacıbəyovun təlim üsulları haqqında axtarışlarını faydasız, əhəmiyyətsiz bir iş kimi qiymətləndirmək olmaz. Hər şeydən əvvəl o dövrdə əksər ziyalılar və rusca təhsil görmüşlər arasında ümumi fəaliyyət sahəsi sayılırdı. Nəzərə alsaq ki, Azərbaycan dili Güney Qafqazda yaşayan təhsil görmüş və görməmiş bütün əhalinin ünsiyyət dili idi. Hətta dövlət

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

məmurlarının böyük bir hissəsi Azərbaycan dilini öyrənirdilər. Azərbaycan dilinin mükəmməl qramatika dərsliyi, normal ədəbi danışıq qaydaları işlənib hazırlanmamışdı. Üzeyir Hacıbəyovun və digər pedaqoqların bu sahədə görmək istədiyi işlər belə bir aspektdən əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. Abdullayev, A. (1966). *Azərbaycan dilinin tədrisi tarixindən*. Bakı: Maarif.
2. Əfəndiyev, R. (1909, 16 fevral). Təbii-üsuli-təlim (I hissə). *Tərəqqi* qəzeti, № 26–27.
3. Əfəndiyev, R. (1909, 18 fevral). Təbii-üsuli-təlim (II hissə). *Tərəqqi* qəzeti, № 37 və № 39.
4. Haçıbəyov, Ü. (1909, 19 mart). Üsuli–təbii. *Tərəqqi* qəzeti, № 58.
5. Haçıbəyov, Ü. (1909, 1 aprel). Üsuli–təbii – müxtəsər cavab. *Tərəqqi* qəzeti, № 67.
6. *Tərəqqi* qəzeti. (1909). № 26, 27.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 67-70**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 67-70**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Qızıltac Şahbazova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2381-0928
qshahbazova@gmail.com

# Üzeyir Hacıbəyli yaradıcılığında dünyəvi elmlərin tədrisi məsələləri

***Açar sözlər:*** *dünyəvi elmlər, anti-pedaqoji fəaliyyət, ana dili, müsəlman təfəkkürü, milli məktəblər*

***Keywords:*** *secular sciences, anti-pedagogical activity, native language, Muslim thought, national schools*

XIX yüzilin II yarısı və XX əsrin əvvəllərini əhatə edən Azərbaycan maarifçi xalqçılıq hərəkatı nümayəndələrini ciddi şəkildə düşündürən məsələlərdən biri də cəmiyyətin inkişafına təkan verəcək dünyəvi elmlərin tədris prosesinə gətirilməsi olmuşdur. Eyni proseslərin nəzər nöqtəsinə çəkilməsi maarifpərvər ziyalı Üzeyir Hacıbəylinin pedaqoji-publisistik yaradıcılığında da izlənilməkdədir. Məsələ ondadır ki, hələ XIX əsrin əvvəllərindən Azərbaycanda müstəmləkəçilik siyasətini bütün istiqamətlər üzrə həyata keçirən Rusiya imperiyası məscidyanı məktəblərdə dünyəvi elmləri tədris edən qabaqcıl düeşüncəli ziyalıları pedaqoji fəaliyyətdən uzaqlaşdırmış, onları dini, yaxud dünyəvi elmlərdən xəbərsiz molla qiyafəli yalançı müəllimlərlə əvəzləmişdir. Bu isə cəmiyyətdə cəhalətə rəvac verən qatı savadsızlıqla nəticələnmişdir. Doğrudur, XIX əsrin 60-70-ci illərindən başlayaraq artıq ölkədə yeni üsullu məktəblər şəbəkəsi genişlənirdisə də, bu proses mühafizəkar qüvvələrin amansız qarşıdurması şəraitində özünü təsdiqləməyə çalışırdı. Bununla belə, yaşadıqları dünyada elmdən uzaq cəmiyyətlərin

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

məhvə sürükləndiyini görən rus və Avropa təhsilli ziyalılar insanların tərəqqisi naminə dünyəvi elmlərin öyrənilməsi və öyrədilməsini vacib sayırdılar.

Azərbaycan maarifçilik hərəkatının fədakar nümayəndələrindən olan Üzeyir Hacıbəylinin həyat və yaradıcılığında da dünyəvi elmlərin mühüm yer tutması müşahidə edilməkdədir. Böyük ziyalının həyat salnaməsindən öyrənilir ki, Ü.Hacıbəyli hələ 1897-1899-cu illərdə Şuşa şəhərində fəaliyyət göstərən "Rus-müsəlman" məktəbində təhsil alarkən mühafizəkar qüvvələrin tamamilə qarşı çıxdığı təlim proseslərinə qoşulmuş, Füzulinin "Leyli və Məcnun" poeması əsasında hazırlanmış əsasında hazırlanmış səhnələşdirilmiş xorda iştirak etmişdir. Eləcə də gələcək müəllim, publisis və bəstəkar 1899-1904-cü illərdə Zaqafqaziya Müəllimlər Seminariyasında oxuyarkən ana dilində danışması səbəbindən, yaxud musiqi müəllimi ilə mübahisə etdiyi üçün töhmət almışdır. Həmçinin Azərbaycanda bolşeviklərin hakimiyyətindən əvvəl və sonra da Ü.Hacıbəylinin bir müəllim kimi yeni nəsillərin təlim-tərbiyəsi ilə məşğul olması bəlli faktdır. Ümumiyyətlə, müəllimlik sənətinə yaradıcı yanaşan Ü.Hacıbəyli hesab etmişdir ki, dünyəvi elmlərin tədqisi həyata keçirilmədən cəmiyyətin inkişafına nail olmaq qeyri-mümkündür. Bu səbəbdən görkəmli ziyalı müxtəlif mətbu orqanlarda çap etdirdiyi yazılarında dünyəvi elmlərin tədrisinin vacibliyindən dönə-dönə söz açmışdır. Məsələn, 13 iyun 1908-ci il tarixdə "İrşad" qəzetinin 87-ci sayında getmiş "Təzə müəllimlərə xəbərdarlıq" məqaləsi ölkə təhsilinin mövcud vəziyyətinə həsr olunmuşdur və müəllifi düşündürən əsas məsələ məktəbdə dünyəvi elmlərin tədrisidir. Ü.Hacıbəyli tamamilə doğru olaraq belə bir mövqedən çıxış edir ki, təhsil müəssisələrində ayrı-ayrı fənlərə dair bilikləri mənimsədərkən uğur qazanmaqdan ötrü müəllim ilk öncə şagirdlərə ana dilini öyrətməlidir. Əks halda müəllim öz fəaliyyətində mühafizəkar

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

qüvvələrin qarşıdurmasına rast gələcək, bu isə yeni üsullu məktəbin uğursuzluğu ilə nəticələnəcək.

"Tərəqqi" qəzetinin 14 avqust 1909-ci il tarixli 182-ci sayında çap olunmuş "Başa düşmədi" felyetonu dünyəvi elmlərdən uzaq düşmüş cəmiyyətlərin nə qədər geri qalmasına həsr olunmuşdur. Yaşadığı dünyanın meyarlarını nəzərə alan Ü.Hacıbəyli çox yığcam şəkildə diqqətə çəkir ki, vaxtilə ərəblər məhz elmin gücü ilə Avropaya hökmranlıq etmişlər. Bu gün isə vəziyyət tamamilə dəyişmişdir. Biliksiz mollaların anti-pedaqoji fəaliyyətləri nəticəsində dini və dünyəvi elmlərdən uzaq düşmüş müsəlmanlar cəhalət içərisində ömür sürməkdədirlər. Vəziyyət o dərəcədə gülüncdür ki, insanlar ayaqqabı geyir, faytona minir, bir-birlərinin yanlarından qansız keçirlərsə, artıq bütün bunlar tərəqqi səviyyəsində dəyərləndirilir. Beləliklə, felyeton müəllifi elmsizliyin faciəsini qələmə almışdır.

Ü.Hacıbəylini düşündürən məsələlərdən biri də yeni üsullu məktəblərin fəaliyyəti ilə bağlı ictimai düşüncənin qeyri-sabitliyidir. Maarifpərvər pedaqoqun fikrincə, milli zəkanın təntənəsindən ötrü dünyəvi elmlərin tədris edildiyi təhsil müəssisələrinin mövcudluğu üçün ziyalıların birliyindən əsaslı dərəcədə asılıdır.

"Başıqırxıqlar" felyetonunda Ü.Hacıbəyli belə bir mövqedən çıxış edir ki, din qardaşlarının dünyəvi elmlər tədris edən məktəblərdə biliklərə yiyələnmələri üçün ictimai düşüncə modeli dəyişməli, insanlara dünyəvi elmləri öyrənməyin əhəmiyyəti izah olunmalıdır. Çünki felyetonda əsas tənqid hədəfi mühafizəkar müsəlman təfəkkürüdür həmin təfəkkürə görə, başda saçın uzadılması dindən uzaqlaşmağın göstəricisidir. Halbuki yeni üsullu məktəblərdə dərs deyən müəllimlər tamamilə başqa düşüncəyə sahibdirlər. Bəli, Ü.Hacıbəylinin fikrincə, vətən övladlarının yeni üsullu məktəblərə cəlbi üçün mühafizəkar insanların hisslərinə həssaslıqla yanaşmaq lazım-

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

dır. Başqa sözlə, görkəmli maarifçi inkişaf və tərəqqidə inqilab yolunu deyil, təkamül yolunu daha məqsədəuyğun saymışdır.

Əlbəttə ki, Ü.Hacıbəyli dünyəvi elmlərin tədrisi məsələsində cəmiyyətin reallıqlarını da nəzərə almışdır. Bu baxımdan "Xəbərdarlıq" məqaləsinin məxsusi təhlilinə ehtiyac vardır. "Tərəqqi" qəzetinin 14 avqust 1909-cu il tarixli sayında getmiş "Xəbərdarlıq" yazısının əvvəlində müəllif ilk öncə vurğulayır ki, xalqın istiqlaliyyətini istəyən hər bir ziyalı millətin elm və maarif yolunda irəliləməsinə çalışmalıdır. Digər tərəfdən, Ü.Hacıbəyliyə görə, Azərbaycan aqrar ölkə olduğundan dünyəvi elmlərin tədrisi zamanı bu cəhət mütləq nəzərə alınmalıdır. Böyük ziyalı problemə kompleks yanaşaraq yazırdı: "...Milli məktəblərimiz kənd uşaqlarına kəndçiyə lazım olan sənət və peşələrimümkün qədər gözəlcə öyrətməlidir.

Çox heyflər olsun ki, o cürə milli məktəblərimizin heç birində ziraət və fəlahətə dair heç bir şey öyrədilmir. Rus dili ana dilimizi basar deyənlər, əgər doğrudan da, ana dilinin tərəqqi və tərvici tərəfdarlarıdırlarsa işin burasına diqqət yetirməlidirlər ki, bizim ana dilimiz o vaxt tərvic tapar ki, haman dildə müxtəlif ülum və fünun oxunsun. Bir kəndli üçün lazım olan ülum və fünun isə onun çöl işinə xidmət edən elm və fənlərdir. Əgər milli məktəblərimizdə həmin elm və fəndən öz ana dilimizdə şagirdlərə kafi qədər məlumat verilsə, heç bir rus və ya qeyri bil dil ana dilimizi basa bilməz.

Kəndli üçün oxumaq və yazmaq, yəni savaddan və bir də dövlət dilini bilib, bəzi lazımlı qıvaninə aşina olduqdan sonra öz peşəsini dürüst bilmək lazımdır. O səbəbə görə kəndli məktəblərində bağçavanlıq, bostançılıq, arı saxlamaq, barama becərmək, dülgərlik, əkin əkmək sənətlərini tədris etməlidir".

Göründüyü kimi, Ü.Hacıbəyli hələ 1909-cu ildə məsələni belə qoyurdu ki, dünyəvi elmlərin tədrisi problemi də həssaslıqla həll edilməli, insanlara lüzumsuz biliklər deyil, gündəlik həyatlarında faydalı olacaq fənlər öyrədilməlidir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 71-75**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 71-75**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Nəzakət Yusifova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-480-033X
yusifovanezaket233@ndu.edu.az
**Qızıltac Şahbazova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0000-2381-0928
qshsahbazova@gmail.com

# Üzeyir Hacıbəyovun jurnalist və ictimai fəaliyyəti

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, bəstəkar, konservatoriya, Azərbaycan musiqisi, Azərbaycan operası, Azərbaycan mədəniyyəti*

***Keywords:*** *Uzeyir Hajibeyov, composer, conservatory, Azerbaijani music, Azerbaijani opera, Azerbaijani culture*

Azərbaycan mədəniyyətinin incisi olan Üzeyir Hacıbəyov görkəmli bəstəkar, görkəmli pedaqoq, publisist, felyetonçu, dramaturq və ictimai xadim olmuşdur. O, Azərbaycan xalqının tarixinə və mədəniyyətinə Şərqdə ilk Musiqili Teatrın və ilk Konservatoriyanın yaradıcısı kimi əbədi daxil olub. Azərbaycan mədəniyyəti və musiqi sənətinin korifeyi Üzeyir Əbdül Hüseyn oğlu Hacıbəyov ilk növbədə dövrünün mütərəqqi mütəfəkkiri olub.

Üzeyir Hacıbəyov müasir peşəkar Azərbaycan musiqi sənətinin banisi, beynəlxalq səviyyədə tanınan Azərbaycan bəstəkarlıq məktəbinin əsasını qoyan, onun estetik və yaradıcılıq əsaslarını yaradandır. Həm genetik, həm də inkişaf etmiş

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

qabiliyyətlərinə görə Azərbaycanın təbii konservatoriyası adlanan Qarabağda doğulmuş Üzeyir Hacıbəyov danılmaz musiqi istedadına malik idi. Bu istedad zəhməti ilə birləşərək ona sənətdə və musiqidə misilsiz zirvələrə çatmağa imkan verdi. Bəstəkarın yaradıcılığı təkcə öz ölkəmizdə mədəniyyətin inkişafına deyil, onun hüdudlarından kənarda da bir çox sənətkarlara böyük təsir göstərmişdir.

Üzeyir Hacıbəyov çoxşaxəli və yaradıcı insan kimi qeyri-adi miqyaslı şəxsiyyət idi. Sovet dövründə bəstəkar və pedaqoq kimi daha çox tanınan o, 20-ci əsrin əvvəllərində ictimai-siyasi həyatın kifayət qədər görkəmli şəxsiyyəti, mütərəqqi pedaqoq və mütəfəkkir idi. Artıq gənclik illərində jurnalist və publisistik fəaliyyətə başlayan Üzeyir Hacıbəyov öz əsərlərində milli özünüdərk və milli kimliyin inkişafını əks etdirən cəmiyyətdəki rəzillikləri tənqid etmişdir. Sonralar onun ideyaları Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920-ci illər) ictimai-siyasi həyatında mühüm rol oynamışdır.

XIX əsrdən başlayaraq Azərbaycanın musiqi yaradıcılığında təhsil cərəyanları bəstəkarlıq yaradıcılığının yeni formalarına ehtiyac yaratdı. Üzeyir Hacıbəyovun fitri istedadı və qüdrətli yaradıcılığı Azərbaycanda və musiqi sahəsində mədəni təhsilin yeniləşməsinə təkan verdi. Yenilikçi enerjilərini musiqi aləminə yönəldən Ü.Hacıbəyov tarixə ilk bəstəkar və ilk klassik kimi düşüb (Aslanov, 1985). Lakin Üzeyir Hacıbəyovun yaradıcılığı təkcə musiqi və incəsənətlə bağlı deyildi. Bununla yanaşı, o, həm də görkəmli şəxs, publisist və mütəfəkkir kimi o dövrdə baş verən ictimai-siyasi hadisələri diqqətlə izləyir və təhlil edirdi.

Jurnalistlik fəaliyyəti dövründə Ü.Hacıbəyli həm məqalələr, felyetonlar, həm də satirik hekayələr yazırdı. O, fəhlə və kəndlilərin istismarını, Dövlət Dumasının siyasətini tənqid etmiş, milli zülmü və sosial bərabərsizliyi ifşa etmiş, Ermənistan-Azərbaycan münaqişəsinin mənşəyi və inkişafını araşdırmışdır. Üzeyir bəy cəmiyyətin tərəqqisi və kamilliyi

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

ideyalarını, öz hüquq və azadlıqları uğrunda mübarizə aparmağın zəruriliyini daim təbliğ etmişdı.

Onun çoxsaylı məqalə və felyetonları "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal", "Açıq sez", "Doğru sez", "Sovqət" qəzetlərinin səhifələrində dərc olunub. Hacıbəyli Azərbaycanın o dövrdəki ictimai-siyasi həyatının müxtəlif mövzularında. Onun felyeton və məqalələri "Ordan Burdan" ("Ordan-burdan") rubrikasında "Filankəs" ("Belə-belə") təxəllüsü ilə çap olunmuş, bəzən sadəcə "Üzeyir", "Ü" imzaları ilə çap olunurdu. Təəssüf ki, Üzeyir bəyin işlətdiyi bütün adlar hələ də məlum deyil.

M.Aslanovun fikrincə: "Üzeyir bəy məqalə və felyetonlarını rahatlıqla yazırdı, onlar üçün nə mövzu, nə də söz axtarmaq lazım gəlirdi" (Aslanov, 1977). Onun felyeton və məqalələrinin mövzuları çox müxtəlif olmaqla xalqın məişət problemlərinə, aktual siyasi ideyalara, xalqının təhsili uğrunda mübarizəyə həsr olunurdu. Onun sevimli texnikalarından biri dialoq idi. O, tez-tez sual-cavab texnikasına, üçüncü şəxs rəvayətinə müraciət edir, xalq nitqindən, məşhur atalar sözlərindən və məsəllərdən geniş istifadə edirdi (Əliyeva, n.d.).

"İrşad" qəzetinin səhifəsində Ü.Hacıbəyov fəhlələrin vəziyyəti və aktual problemlərindən, İrandakı inqilabdan, kəndlilərin vəziyyəti, savadsızlıq və təhsil problemlərindən yazırdı (İrşad qəzeti, 1906). O, beynəlxalq məsələlərə toxunaraq, bir tərəfdən mütərəqqiliyi yüksək qiymətləndirirdi.

O, öz məqalələrində Avropa ideyalarını, insan hüquq və azadlıqlarını, digər tərəfdən isə müstəmləkəçilik və hegemonluq siyasətini tənqid etmişdı. Təbii ki, mütərəqqi Avropa ideyaları ilə Avropanın atdığı real siyasi addımların paradoksal birləşməsi ilə bağlı bu tənqid bu gün də aktuallığını saxlayır.

"Avropa və İslam Dünyası" məqaləsində Ü.Hacıbəyov yazırdı: "Avropa öz mahiyyətinə görə mütərəqqi, azadlıqsevər və insanpərvər cəmiyyətdir. Amma Avropa başqa xalqların

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

azadlıq əldə etməsinə kömək etmək əvəzinə, əksinə, onlara hökmranlıq edir. Avropa təbii və başqa sərvətlər naminə Asiyada hər şeyi və hamını məhv etməyə hazırdır" (Hacıbəyli, 2005). Böyük dövlətləri müstəmləkəçilik siyasətlərinə, şərq ölkələrinə xammal mənbəyi kimi yanaşmalarını tənqid edən Ü.Hacıbəyov qeyd edib ki, Avropa ölkələri Şərq ölkələrinə yardım etmək, guya onların iqtisadi və mədəni potensialını yüksəltmək bəhanəsi ilə əslində onların müstəmləkə sərvətlərini, o cümlədən nefti ələ keçirmək məqsədini güdürdülər.

Xüsusilə Rusiya və İngiltərənin siyasətini səciyyələndirərək yazırdı ki, onlar İran üçün çətin bir zamanda “dəstək verməyə” çalışıblar, Almaniya isə “İran iranlılar üçün” şüarı ilə Rusiya və İngiltərəni bu ölkədən sıxışdırıb çıxarmağa çalışıblar. Onun felyetonlarından birində Ü.Hacıbəyov bərbərin küt bıçaqla zorla kəsdiyi kəndlini təsvir edib. Xalqa işgəncə verən belə həyasız bərbərləri təsvir edərək, onları Avropa ölkələri ilə müqayisə etmişdi: “Bu mövzuya toxunaraq hər kəsə xatırlatmaq istəyirəm ki, bu Avropa ölkələri buraya dəvətsiz, icazəsiz gəliblər”.

Üzeyir Hacıbəyov ana dilində təhsilə böyük əhəmiyyət verirdi. 1906-cı ildə “Dil öyrənməklə biz hansı yollarla maariflənirik “məqaləsi dərc olunub. Üzeyir bəy Hacıbəyli imzalı məqalələrində yeni sözlərin (terminlərin) daxil edilməsinin zəruriliyini vurğulayırdı. O, Avropa dillərindən terminlər qəbul etməyi və ya ərəb və fars sözlərindən istifadə etməyi təbii hesab edirdi. Bununla belə, o da hesab edirdi ki, öz dilində fikirləri ifadə etmək mümkün olan yerdə ərəb və ya fars sözlərindən istifadə etməyin mənasızlığını vurğulayırdı. O, ərəb və fars sözlərindən asılılığın türk dilinin az istifadə olunması təhlükəsinə səbəb olduğuna diqqət çəkib. Pedaqoq insanların öz mədəniyyətinin və təhsilinin inkişafı üçün öz ana dilini öyrənmə zərurəti probleminə diqqəti cəlb etmişdir (Aslanov, 1977, s. 179-184). “Tərəqqi” qəzetində dərc olunan başqa bir məqaləsində türkdilli müəllimləri öz dilinə biganə olduqlarına görə qınayıb:

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

"Biz müəllimlər, türk dilimizi bilmirik, bilmədiyimiz üçün yazıq dilimizi daha da korlayırıq, nə yaxşı ki, siz də, mən də hələ də türk dilini öyrənmişik, amma yüzlərlə türkcə savadsız müəllimlər var. bədbəxtlik ondadır ki, biz müəllimlərin türk dilimizi öyrənmək həvəsi yoxdur" (Aslanov, 1977).

Ü.Hacıbəyov dindən istifadə edərək Qafqaz xalqlarını hər cür şəkildə bir-birinə qarşı qoymağa çalışan Rusiya imperiyasının siyasətinə böyük diqqət yetirirdi. "İrşad" qəzetində Üzeyir bəy yazırdı: "Rusiya imperiyası bizim, müsəlmanların içimizdə məharətlə uçurumlar qazdı. Rusiya hökuməti buna xüsusi səy göstərmədi, çünki pis əllər içimizdəki uçuruma qabaqcadan qazıb hazırlamışdılar (Hacıbəyli, 2005).

Üzeyir Hacıbəyovun jurnalist və ictimai fəaliyyəti dərin elmi-tarixi əhəmiyyətə malikdir, bu dəyərli istiqamət tədqiq etdirilməli və öyrənilməlidir.

## Ədəbiyyat

1. Aslanov, M. (1977). *Üzeyir Hacıbəyov (gənclik illəri).* Gənclik, 69.
2. Aslanov, M. (1985). *Üzeyir Hacıbəyov – journalist.* Azərnəşr, 116.
3. Aslanov, M. (1977). "İrşad" qəzetinin ideya istiqaməti. *Azərbaycan SSR EA Xəbərləri*, (İctimai elmlər seriyası). Elm, 9.
4. Əliyeva, F. (n.d.). Azərbaycan peşəkar musiqisinin banisi. *Azərbaycan Milli Məclisinin Elektron jurnalı*. https://jurnal.meclis.gov.az/news.php?id=207
5. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri* (Tərtib edəni və ön sözün müəllifi: A. Abbasov, 2 cilddə). Şərq-Qərb.
6. *İrşad* qəzeti. (1906).

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 76-79**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 76-79**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Gülmira Əsədova**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1914-8163
gulmirahaciyeva90@gmail.com

# "Molla Nəsrəddin" jurnalında Üzeyir Hacıbəylinin şəxsiyyət tərbiyəsi haqqında görüşlərinə nəzəri baxış

***Açarsözlər:*** *"Molla Nəsrəddin" jurnalı, ədəbi məktəb, jurnalist, "İrşad" qəzeti, mədəni intibah*

***Keywords:*** *"Molla Nasreddin" magazine, literary school, journalist, "Irshad" newspaper, cultural renaissance*

XX əsr Azərbaycan yazıçılarının "Molla Nəsrəddin" jurnalı ilə qarşılıqlı əlaqəsi hələlik kifayət qədər öyrənilməmişdir. Deməyək ki, tamamilə öyrənilməmişdir–öyrənilmişdir. Öyrənilmişdirsə də səthi şəkildə öyrənilmiş və ya araşdırılmışdır desək yanılmarıq. Belə səthi şəkildə araşdırılaraq öyrənilənlərdən biri də Üzeyir Hacıbəylidir. Dahi bəstəkar, istedadlı dramaturq və jurnalist Üzeyir Hacıbəyli ilə "Molla Nəsrəddin" jurnalı arasında böyük ideya-yaradıcılıq dostluğu olmuşdur.

"Molla Nəsrəddin" həyata qədəm qoyduğu gündən "... Bütün camaatın məhbubül qəlbi olmuş", elə qüvvətli mədəni intibah əmələ gəlmişdir ki, "qələm təsvir etməkdən acizdir". Jurnalın hər nömrəsini alıb oxuduqca "qəlbi iftixar hissi ilə döyünən" dostları onun barəsində sevinclə, qürurla danışırdılar. "Molla Nəsrəddin" haqqında iftixarla danışan, doğru rəy söyləyən, sözündə və mövqeyində sabit qədəm müasirlərindən biri də Üzeyir Hacıbəyli idi.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Ü.Hacıbəyli xalqın sevimlisi "Molla Nəsrəddin"i ilk günlərdə "qırmızı rəngdə" görmüş, baməzə və əfsanəvi Molla Nəsrəddinlə onun adını daşıyan məcmuə arasında oxşarlıq, yaxınlıq kəşf etmiş, şöhrətli mollanəsrəddinçilik ədəbi məktəbinin ölməzliyinə inanmış və axırda bu fikrə gəlmişdir ki, "Molla Nəsrəddin" jurnalı "baltanı dibindən vurur".

"Molla Nəsrəddin" jurnalı nəşr olunmağa başlayanadək hələ Qori Seminariyasında "müsəlman şairi" kimi tanınan, gülməli şeirləri ilə dostlarını əyləndirən Üzeyir Hacıbəyli 1905-ci ildə Bakıya gələndən sonra "Həyat" da müəyyən təcrübə qazanmışdı. O, "İrşad" qəzetində "Filankəs" imzası, "Ordan-burdan" ümumim başlığı altında yazdığı felyetonları ilə oxucuları güldürür və düşündürürdü. Gənc jurnalist "Pristav ağa" hekayəsinin, "Biz hamımız qafqazlı balalarıyıq", Cavanşir uyezdinin pristavı Şəfi bəyi və başqalarını rüsvay edən satirik miniatürlərin müəllifi; öz sözü, öz səsi, aydın dəst-xətti olan, necə deyərlər, dost düşmən qazanmış şəxsiyyət idi.

1905-ci il inqilabının yetişdirdiyi Ü.Hacıbəyli, ümumiyyətlə zamanın cəsarətli satirik yazıçılarından, incəsənət xadimlərindən biri sayılırdı. Azərbaycan demokratik mətbuatında Mirzə Cəlil, inqilabi-satirik şeir sahəsində Ə.Sabir nə mövqe tuturdusa, Ü.Hacıbəyli də musiqi və teatr aləmində o mərtəbədə dururdu. "Ü.Hacıbəyovun məqalələri kimi, musiqi əsərləri də tərbiyə məsələləri ilə doludur" (Əhmədov, 2014, s. 322). O, nəğmələr qoşarkən dağıdır; gülərkən "cəmiyyətin əsaslarını qazıyırdı". Bəs, "nəğmələr qoşarkən dağıdan", gülə-gülə cəmiyyətin "əsaslarını qazıyan" Ü.Hacıbəyli – "Leyli və Məcnun" kimi məhəbbət operasının [2, səh.356] müəllifi, bu incə qəlbli insan görəsən belə zərif-zərif gülməyi kimdən öyrənmişdi?

Uşaq və yeniyetmə olanda Şuşada Bəylik eşiyində, Qapandibi qələbəliyində, Bazarbaşından Meydanadək düzülmüş baqqal, əllaf, sərraf, papaqçı dükanlarının qabağına toplaşan zəriflərdən; Qori Müəllimlər Seminariyasında oxuyanda

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

İ.A.Krılovdan, N.V.Qoqoldan, M.Y.Saltıkov-Şedrindən, rus satirik mətbuatından; sevimli müəllimi F.Köçərlinin təşviqi və tapşırığı ilə topladığı şifahi xalq ədəbiyyatımızdan; şəxsi mütaliə vasitəsi ilə M.F.Axundovdan, Q.B.Zakirdən, S.Ə.Şirvanidən; Bakıya köçüb gələndən sonra dövrün, həyatın özündən; Ə.Haqverdiyev, N.Nərimanov, Ə.Sabir kimi o cümlədən ağsaqqalları sayılan C.Məmmədquluzadədən.

Buna görə də tədqiqatçılar doğru olaraq göstərirlər ki, Ü.Hacıbəylinin publisistikası "ideya-siyasi mövzu və üslub cəhətdən" məşhur "Molla Nəsrəddin" jurnalına çox yaxın olmuşdur. Ü.Hacıbəyli siyasi-istiqamətin bəyəndiyi "Molla Nəsrəddin"dən faydalanır, jurnalın "ideyalarını tənqid və təsdiq edirdi..." (Köçərli, 1965, s. 12). Bunlar elmi cəhətdən və tarixilik baxımından əlbəttə doğrudur, ancaq "Molla Nəsrəddin" ilə Ü.Hacıbəyli arasında ideya-yaradıcılıq əlaqələrinin bir tərəfidir. Professor C.Xəndanın fikrinə görə qarşılıqlı olmuşdur".

Tədqiqat göstərir ki, Ü.Hacıbəyli 1905-1911-ci illərdə tipik siyasi hadisələri qəzet səhifələrinə çıxarmaqda, müəyyən məsələ ətrafında ictimai rəy yaratmaqla bəzən "Molla Nəsrəddin" jurnalını qabaqlamışdır. Belə hallarda bu gənc jurnalistin duzlu felyetonlarında, ciddi məqalələrdə, satirik miniatürlərdə şərh və ifşa etdiyi məsələlərdə "Molla Nəsrəddin" yer ayırmış, məslək dostunun səsinə səs vermişdir.

"Molla Nəsrəddin" jurnalının 1906-cı il 15-ci nömrəsində kiçik bir xəbər dərc olunmuşdu. Coğrafi ünvanı zənn azdıran xəbərin ideya məzmunu mollanəsrəddinçilərin dövlət dumasına münasibəti baxımından səciyyəvidir.

"... Belə danışırlar ki, Mahmud babanın müridlərindən biri möhtərəm şəxs yuxusunda görüb ki, nə cür olsa, dövlət duması dağılacaqdır. Bu möhtərəm zat Tiflisə gedəndə bu eyhamı üsulluca Topçubaşovun qulağına pıçıldayıb... Odur ki, Topçubaşov dumanın dağılacağını əvvəlcə bildirdiyindən dumada bir söz danışmadı və müsəlmanları hörmətə salmadı.

https://doi.org/10.36719/2663-4619/0807/2025

Heyf ki, "İrşad" və "Molla Nəsrəddin" qəzetləri qeyb elmindən bixəbər olduqlarından, bu sirri indiyə qədər kəşf edə bilməyiblər, nahaq yerə özgə, yanlış fikirlərə düşüblər".

"Qeyb elmindən" bixəbər "İrşad" qəzetinin adının burada "Molla Nəsrəddin"dən qabaq çəkildiyinə diqqət yetirək. Bu, adi təvazökarlıq əlamətidir, yoxsa başqa bir səbəbi var? "İrşad" deyəndə, "Molla Nəsrəddin" kimi və hansı yazıları nəzərdə tuturdu? Dumanın azərbaycanlı vəkillərindən burjua ideoloqu Ə.Topçubaşovun tənqid olunması kimi çox vacib bir ictimai məsələ "İrşad" qəzeti ilə nə dərəcədə bağlıdır? "Üzeyir bəy yazır ki, "Molla Nəsrəddin" jurnalı tərəqqi və təalimizə mane olan bütün qəbahətləri ən gözəl ədibanə və ləzzətli, dadlı, duzlu sözləri ilə yazmaqla bütün xalqın, hətta, ondan incik olanların dəxi məhbubəlqəlbi olubdur; çünki bu jurnal bir dənə olsun tərbiyəsiz və ədəbsiz sözü özünə rəva görmədi" (Talıbov, Sadıqov, Quliyev, 1999, s. 123).

Nəhayət, onu da deyək ki, Ü.Hacıbəyli ilə "Molla Nəsrəddin" arasında qələm və ideya ittifaqı bundan sonra daha geniş miqyasda öyrənilməyə, təbliğ olunmağa layiqdir.

## Ədəbiyyat


1. Əhmədov, H. (2014). *Azərbaycan məktəb və pedaqoji fikir tarixi*. Elm və təhsil, 432.
2. Camalov, K. (2015). *Mollanəsrəddinçilərin maarifçilik ideyaları*. Elm və təhsil, 365
3. Köçərli, F. (1965). *Ü. Hacıbəyovun ictimai-siyasi görüşləri,* 456.
4. Talıbov, Y., Sadıqov, F., & Quliyev, S. (1999). *Azərbaycan məktəb və pedaqoji fikir tarixi*. Ünsiyyət, 516.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 80-81**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 80-81**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Zeynab Mehdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0564-8805
zeynabmehdiyeva@nmi.edu.az

# Üzeyir Hacıbəyov və pedaqoji düşüncələr

**Açar sözlər:** *musiqi, təhsil, bacarıq, pedaqoji düşüncə, ideya*
**Keywords:** *music, education, skill, pedagogical thinking, idea*

Üzeyir Hacıbəyov təkcə musiqi sahəsindəki nailiyyətləri ilə deyil, eyni zamanda maarifçilik fəaliyyəti və pedaqoji düşüncələri ilə də Azərbaycan mədəniyyətinə böyük töhfələr vermiş şəxsiyyətlərdən biridir. O, musiqi təhsilinin inkişafına xüsusi önəm verərək, milli dəyərləri və müasir metodologiyanı birləşdirən yeni yanaşmalar irəli sürmüşdür.

Üzeyir Hacıbəyovun pedaqoji fəaliyyəti sırf musiqi təhsili ilə bağlı olsa da, onun ümumi maarifçilik ideyaları da diqqətəlayiqdir. O, 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yaradılmasında əsas simalardan biri olmuş və burada milli musiqinin elmi əsaslarla tədris olunmasının vacibliyini vurğulamışdır (Aslanov, 1977). Onun təşəbbüsü ilə Azərbaycan musiqisi Avropa klassik musiqisi ilə vəhdətdə öyrədilməyə başlanmışdır.

Üzeyir Hacıbəyovun pedaqoji düşüncələri bir çox prinsiplərə dayanırdı. Hansı ki, təhsil və musiqi vasitəsilə milli dəyərlərin qorunub saxlanılması, onun yeni nəsillərə ötürülməsi vacib amil hesab edilirdi. O, yeni tədris metodikaları formalaşdıraraq Avropa musiqi tədrisini milli musiqi ənənələrindən uzaqaşdırmağı qarşısına bir məqsəd qoymuşdu. Çünki, belə

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

olduqda milli musiqimiz daha da inkişaf edəcək və dünya səviyyəsində tanınacaqdı.

Musiqi təhsilində yalnız nəzəri biliklərin deyil, praktik bacarıqların da əhəmiyyətini vurğulamışdı. O, tələbələrin yalnız nəzəri biliklərlə deyil, eyni zamanda ifaçılıq və bəstəkarıq bacarıqlarının da formalaşmasına köməklik göstərirdi. O, təhsildə inteqrativ yanaşmanın tərəfdarı idi. Çünki, musiqi təhsili digər humanitar və elmi fənlərlə vəhdətdə öyrəniləlidir.

Hacıbəyovun pedaqoji fikirlərində müəllim-şagird münasibətləri də əsas yer tuturdu. O, müəllimləri bilik verən deyil, eyni zamanda onlara ilham verən, onları musiqiyə motivasiya edən, ruhlandıran şəxslər olduğunu qeyd etmişdir. O, musiqinin insan tərbiyəsində rolunu yüksək qiymətləndirirdi. Musiqidə təhsilin sosial ruhunu ön plana çəkərək, hər bir şəxsin cəmiyyət üçün faydalı bir fərd olacağını vurğulayırdı. Eyni zamanda, onun pedaqoji düşüncələrinin əsasını tələbələrin sərbəst düşünmə qabiliyyəti, təfəkkürünün formalaşması tuturdu. Çünki, bu qabiliyyətlər onlarda yenilikçi, qurucu, yaradıcı bacarıqların formalaşmasına gətirib çıxardırdı.

Üzeyir Hacıbəyovun pedaqoji ideyaları yaradıcı düşüncənin inkişafına əsaslı təkan vermişdir. Onun pedaqoji düçüncəsi yalnız tədris proqramlarında deyil, həm də gənc nəslin fərdi qabiliyyətlərinin formalaşmasında əvəzsiz rola malikdir.

## Ədəbiyyat

1. Aslanov, M. (1977). *"Üzeyir Hacıbəyov" (gənclik illəri).* Gənclik.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 82-84**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 82-84**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Ülviyyə Fətəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
doktorant
https://orcid.org/0009-0002-2764-1070
ulviyyefeteliyeva@nmi.edu.az

# Üzeyir Hacıbəyov yaradıcılığında müəllim və müəllim hazırlığı problemi

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, pedaqoji baxışlar, milli təhsil, müəllim hazırlığı, musiqi təhsili, Azərbaycan maarifçiliyi, pedaqoji fikir, təhsil islahatları*

***Keywords:*** *Uzeyir Hajibeyov, pedagogical views, national education, teacher training, music education, Azerbaijani enlightenment, pedagogical thought, educational reforms*

Azərbaycan musiqi mədəniyyətinin banilərindən biri, eyni zamanda maarifçilik və pedaqogika sahəsində də mühüm rol oynamış ziyalılardan biri də Üzeyir Hacıbəyovdur. Ü.Hacıbəyov XX əsrin əvvəllərində Azərbaycanda baş verən sosial-siyasi və mədəni dəyişikliklərin aparıcı nümayəndələrindən biri kimi, maarifin inkişafına, müəllim hazırlığının təkmilləşdirilməsinə və təhsilin cəmiyyət üçün əhəmiyyətinin artırılmasına çalışmışdır. Onun yaradıcılığı təkcə musiqi sahəsini əhatə etmir, Ü.Hacıbəyov həm də təhsil və pedaqoji düşüncənin formalaşmasında mühüm iz qoymuşdur.

Müəllim hazırlığı və təhsilin keyfiyyətinin artırılması bu gün də öz əhəmiyyətini saxladığı üçün mövzu aktualdır. Son dövrlərdə təhsilin müasirləşdirilməsi və pedaqoji sahədə innovasiyaların tətbiqi fonunda Üzeyir Hacıbəyovun ideyalarının öyrənilməsi, təhsil sistemində tətbiq edilməsi mühüm əhəmiyyət daşıyır. Ü.Hacıbəyov musiqi təhsilinin əsasını milli

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

musiqi mədəniyyətini formalaşdırmaqla qoymuş, müəllimlərin hazırlanması və maariflәndirilməsi prosesinin gücləndirilməsi üçün mühüm işlər görmüşdür.

Bu məqalədə Üzeyir Hacıbəyov yaradıcılığında müəllim və müəllim hazırlığına aid məsələlərə yanaşması araşdırılacaq, həmçinin onun bütün bu fəaliyyətlərinin Azərbaycan təhsil sisteminə necə təsir etdiyi dəyərləndiriləcəkdir. Burada əsas məqsəd dahi bəstəkarın pedaqoji görüşlərini təhlil edərək, onların bu günkü təhsil sisteminə uyğunluğunu araşdırmaqdır.

Üzeyir Hacıbəyov təkcə musiqiçi və bəstəkar deyil, eyni zamanda öz dövrünün tanınmış maarifçilərindəndir. O, öz xalqının savadlı olmasını, müasir biliklərə yiyələnməsini və mədəni inkişafını əsas məsələlərdən biri hesab etmişdir. Üzeyir Hacıbəyov öz xalqının gənclərini hər cəhətdən inkişaf etmiş, intellektual, savadlı görmək istəyirdi. O, gənclərin hamısını seçdiyi peşədən asılı olmayaraq yüksək səviyyəli peşəkar mütəxəssis kimi görməyi arzulayırdı. O, müəllim adını həmişə şərəflə daşıyırdı. Ü.Hacıbəyli öz bilik və bacarıqlarını bir ustad müəllim kimi böyük həvəslə, qayğı ilə tələbələrinə çatdırıdı. O, müəllimlərə tövsiyyə edirdi ki, tədris prosesində uşağa tanış olan şeylərdən başlayıb, onlara tanış olmayan şeylərə tədricən keçsinlər. Bundan sonra uşağın gözü ilə görüb başa düşdüyü şeylərdən başlayıb, sonra xəyallarında canlandırıb başa düşdükləri şeylərə keçsinlər. Nəhayət, müəllimlər uşaqları öyrədən zaman sadə şeylərdən başlayıb mürəkkəb şeylərə keçsinlər.

Onun maarifçilik missiyası bir-neçə istiqamətdə özünü göstərirdi.

Bunlardan biri təhsilin inkişafı və müəllim hazırlığı idi. O, həmişə müəllimi yüksək qiymətləndirirdi. Dahi bəstəkar müəllimi yalnız bilik verən şəxs deyil, həm də cəmiyyətin formalaşmasında əsas aparıcı qüvvələrdən biri olduğunu qeyd edirdi. Ü.Hacıbəyli təhsilin keyfiyyətinin artırılması üçün

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

müəllim hazırlığının çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayırdı. Bakı Musiqi Məktəbinin və Konservatoriyanın əsasını qoymaqla, Ü.Hacıbəyov Azərbaycanda ilk musiqi müəllimlərini yetişdirən mərkəzlər formalaşdırmışdır.

Üzeyir Hacıbəyov xalqın tərəqqisini müəllimlərin savadlı olmasında, onların maarifçi ruhda hazırlanmasında görürdü və hesab edirdi ki, millətin xoş gələcəyi birbaşa bundan asılıdır. Ona görə də O, müəllimləri cəmiyyətin aparıcı qüvvəsi kimi görür və müəllim peşəsinin şərəfini yüksəltməyə çalışırdı. Öz əsərlərində müəllimlərin nüfuzunun artırılması məsələlərinə geniş yer verirdi.

Ü.Hacıbəyov bu yolla savadsızlığı, mövhumatı, qadın hüquqlarının tapdalanmasını, köhnə təlim-tərbiyə üsullarını tənqid edirdi. Xalqda yeni düşüncə tərzinin oyadılmasını, elm əsaslı təhsil sistemini təşviq edirdi.

Onun məqalələri xalqı elmi biliklərə yiyələnməyə, köhnəlmiş düşüncə tərzindən qurtulmağa çağırırdı. O, təhsilin ana dilində aparılmasını və Azərbaycan dilinin inkişaf etdirilməsini müdafiə edirdi.

## Ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası. (2007). *Üzeyir Hacıbəyov*. AMEA Nəşriyyatı.
2. Hacıbəyov, Ü. (2012). *Azərbaycan xalq musiqisinin əsasları*. Şərq-Qərb Nəşriyyatı.
3. Karagicheva, L. (1980). *Uzeir Gadzhibekov i razvitiye muzykal'nogo obrazovaniya v Azerbaydzhane*. Muzyka.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 85-87**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 85-87**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Leyla Əliyeva**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0001-7087-2790
aliyeva1987l@gmail.com

# Üzeyir Hacıbəyli yaradıcılığında milli–mənəvi dəyərlərin təbliği məsələləri

***Açar sözlər:*** *bəstəkar, dəyərlər, vətən, musiqi, dil*
***Keywords****: composer, values, homeland, music, language*

Hər bir xalq öz mili dəyərləri ilə seçilir. Azərbaycan xalqının da özünəməxsus milli–mənəvi dəyərləri vardır. Bu dəyərlərin gələcək nəsillər çatdırılması, qorunub saxlanılması üçün əlindən gələni əsirgəməyən tarixdə iz qoyan dahi şəxsiyyətlər vardır. Onlardan biri elmə, təhsilə, mədəniyyətə, incəsənətə dahiər yetirən, heyrətamiz təbiəti ilə seçilən qədim Şuşa şəhərində yaşayıb yaratmış Üzeyir Hacıbəylidir. 1885-ci ildə maarifpərvər ziyalı Əbdülhüseyn Hacıbəylinin ailəsində - Ağcabədidə doğulan Üzeyir Hacıbəyli uşaqlıq və gənclik illərini Şuşada keçirmiş və ilk təhsilini burada almışdır. Daha sonra Qori Müəllimlər Seminariyasında təhsilini davam etdirən dahi şəxsiyyətin ictimai–fəlsəfi, elmi düşüncələrində müsbət məqamların rolu görülməkdə idi. O, bir sıra musiqi alətlərində ifa etməyi öyrənmiş, qələmini müxtəlif sahələrdə sınaqdan keçirmişdir. Həmçinin bir çox qəzetlərdə çalışmış, redaktorluq etmişdir. Tənqidçi kimi həm Azərbaycan ədəbiyyatında, həm də musiqi mədəniyyətində dərin iz qoymuşdur. Üzeyir Hacıbəyli təhsil aldığı illərdə müəlliminin ona verdiyi inşa yazıda qeyd edirdi ki, özünün ən ümdə məqsədi tədrisdə ana dilli kitablarından istifadə edilməsi idi.

Vətəninin hər zaman milli, ümumbəşəri dəyərləri ilə seçilməsini arzulayan Üzeyir Hacıbəyli öz millətinə, vətəninə və

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

ən əsası da ana dilinə bağlı görkəmli ilk opera banisi, bəstəkar, musiqişünas, pedaqoq, publisist, tənqidçi olmuşdur.

Üzeyir Hacıbəyli məqalə, hekayə və felyetonlarında təkcə problemləri yox, onların həllini də diqqət mərkəzində saxlamışdı. O, millətin gənclərinin savadlı, elmli, hərtərəfli olmasını arzulamışdı. Bəlkə də, elə buna görə də yaradıcılığında əsas xətti maarifçilik, Vətənə, dilə, elmə sevgi kimi dəyərlərə yer vermişdi.

O, Azərbaycan musiqisində ilklər yaradan, operalar, musiqili komediyalar, satirik hekayələr, felyetonlar, məqalələr, lüğət və dərslik müəllifidir. Dahi bəstəkar, məhz bu əsərləri vasitəsilə xalqının mənəvi dəyərlərini daha da zənginləşdirmək, milli düşüncəni dərinləşdirmək üçün əlindən gələni edirdi.

Məqsədi yolunda inadkar olan dahi sənətkar dərsliklər nəşr etdirir, hətta "Rusi-Türki və Türki–Rusi" adlı lüğət hazırlayır. Bununla yanaşı "İkinci il", "Müəllim, ictimaiyyət haqqında", "Məktəb məsələsi" adlı məqalələrində tədrisdə elmi - pedaqoji ideyalara, milli-mənəvi düşüncənin, təhsil, vətəndaşlıq hüquqlarının müdafiəsinin əhəmiyyətinin, hətta təlimdə də bir sıra - xəlqilik, sistemlilik - ardıcıllıq, şüurluluq prinsiplərə əsaslandığını vurğulamışdı.

Üzeyir Hacıbəyli müəllimlik fəaliyyəti ilə də məşğul olmuş, müsəlman müəllimlər qurultayında katib və nümayəndə seçilmişdi. Müəllimlik peşəsinin əhəmiyyətini dərindən dərk edən bəstəkar hər kəsin bu adı daşımağa layiq olmadığını vurğulayır. O, məqalə, satirik hekayələri və felyetonlarında qabaqcıl pedaqoji təcrübələri təbliğ edir, tədrisin ana dilində keçirilməsinin zəruriliyini qeyd edir. Belə ki, onun "Ordan–Burdan" başlıqlı felyetonlar toplusunda "Dil" adlı felyetonunda daim, insanların dinindən asılı olmayaraq öz ana dillərində danışmalı və təhsil almalı olduğunu israrla qeyd edirdi. Üzeyir Hacıbəyli rus, tatar və digər dilləri yaxşı bilirdi. Ancaq buna baxmayaraq öz ana dilində danışmağı əsas sayırdı. Buna ggörə də daim bu məsələdə mübarizə aparmışdı. Cəmiyyətdə öz dilinə, adət-ənənəsinə biganəliyin olması onu dərindən sarsmışdı.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Bununla yanaşı o, məqalələrində müəllim peşəsinin önəmindən, uşaqların vətəninə, dilinə, dəyərlərinə sadiq bir vətəndaş kimi yetişməsində, tərbiyə olunmasında əsl pedaqoji səriştəyə malik olan müəllimin xarakter xüsusiyyətlərinin rolunu əsas tuturdu. "Təhsil" , "Keçmişdə və indi " , "Müəllim" adlı hekayələrində də milli - mənəvi dəyərlərə yadlaşan cəmiyyəti tənqid atəşinə tutmuş, keçmiş həyatla yaşadığı dövrü müqayisə edərək milli şüurun, özünüdərkin necə formalaşdığını göstərmişdir.

Üzeyir Hacıbəylinin "Öz qədrimizi bilmirik" felyetonunda Bakının keçmiş zamanlardan bəri necə qiymətli yer olduğunu bildirərək öz həmvətənlərimizin yerinə "Yevropadan" gələn adamların bizim millətimizə maddi və mənəvi mənfəət verməsini ağılsızlıq adlandırmış, millətimizdə fərasətli, elmli, istedadlı şəxsiyyətlərin olmamasından şikayətlənir, varlıq içində yoxluq çəkmələrini mənasız hesab etmişdir.

“Gələcəyimizi unutmayalım" əsərində insanları gələcəklə bağlı möhkəm təməllərin yaradılmasını zəruri görmüş, gələcək nəsillərə tərəqqi və inkişafetmiş cəmiyyət miras qoymağı lazım bilmişdi. Belə ki, əsərdə digər millətlərin tərəqqisindən yazarkən öz millətinin geridə qaldığını vurğulamışdı.

Azərbaycan xalqı sənətkarlarına, elm xadimlərinə, görkəmli şəxsiyyətlərinə həmişə yüksək qiymət vermişdir. Ümummilli Lider Heydər Əliyev də Üzeyir Hacıbəyinin fəaliyyətinə, Azərbaycan musiqisinə gətirdiyi ilklərə, Azərbaycanı dünyada tanıdan operalarına, musiqili komediyalarına, maarifçilik ideyalarına ən ali dəyəri vermişdi. Buna sübut olaraq Ümummilli Lider 1975-ci ildə Üzeyir Hacıbəylinin ev muzeyini xalqa bəxş etdi.

Üzeyir Hacıbəyli ömrünün sonlarında yaşadığı siyasi təqiblərə və ciddi maddi sıxıntılarına baxmayaraq həmişə xalqının, millətinin, doğma Azərbaycanın yanında olmuş, xalqının qayğısına qalmışdı. Dahi şəxsiyyət daim Azərbaycan xalqının qəlbində əvəzsiz olaraq yaşayacaq.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 88-90**
***Uzeyir Hajibeyli 140*** **International Scientific Conference 4 iyun 2025 / 88-90**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Tamara Baxşəliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0001-3505-5787
tamarabakhshaliyeva@nmi.edu.az

# Üzeyir Hacıbəyov və milli özünüdərk

***Açar sözlər:*** *rus-tatar, istedad, mədəniyyət, musiqi sənəti, milli özünüdərk*

***Keywords:*** *russian-Tatar, talent, culture, musical art, national self-awareness*

Azərbaycan milli operasının banisi Üzeyir Hacıbəyov usaqlıq illərindən başlayaraq, ömrünün son günlərinədək yaşayıb yaratdığı təxminən altmış illik geniş bir dövrü mürəkkəb siyasi, ictimai, mədəni hadisələr və çoxşaxəli yaradıcılıq nümunələri ilə zəngin tarixi bir dövrü əhatə edir. Üzəyir Hacıbəyovun müəllim, jurnalist, yazıçı, bəstəkar, ictimai xadim kimi fəaliyyəti ilə bağlı bir sıra müqayisələr, yazılar çap olunmuş və indi də öyrənilib çap edilməkdədir. Üzeyir Hacıbəyov 1986-cı ildə Ağcabədidə anası Şirin xanım öz qohumlarının evində qonaq olarkən doğulmuşdur. O, ilk təhsilini Şuşada Rus-tatar məktəbində almışdır. Sonra o, Zaqafqaziya seminarı direktoru cənablarına ərizə ilə müraciət etmiş və həmin vaxtdan etibarən qori müəllimlər seminariyasına qəbul edilmişdir. Bu il qəbul olunanlar arasında əynində açıq qəhvəyi rəngdə kurtqası, belində nazik qayış kəmər, buxara dərisindən papağı olan qarabəniz bir arıq gənc vardı. Bu Üzeyir Hacıbəyov idi. Şagirdlərə mahnı öyrətmək, ibtidai sinif müəllimlərinin vəzifəsinə aid idi. Bir çox şagirdlərə bu dərs çətin, bəzilərinə isə anlaşılmaz idi. Mahnı və skripkada çalmaq dərsləri Üzeyir Hacıbəyov və başqa yoldaşlarına xoş gəlirdi.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 88-90**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 88-90**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Üzeyir Hacıbəyov hələ gimnaziyada oxuduğu zaman musiqi sahəsində böyük istedada malik idi. Yoldaşları təkcə bir musiqi alətində çalanda çox çətinlik çəkdikləri halda, o, üç alətdə təmiz çalırdı. Kaman, violençel və bazitonda çalmağı tezliklə öyrənmişdir. Sinif rəhbərinnin Üzeyir Hacıbəyova verdiyi xasiyətnamədə yazılırdı: istedadlıdır, yoldaşlarına nisbətən daha açıqdır (doğruçudur), şəkil çəkməyi və kitab oxumağı sevir, öz xoşuna tatar dilindən ruscaya və rus dilindən tatarcaya məqalələr tərcümə edir, əhval-ruhiyyəcə şəndir və diribaşdır, illik əxlaq qiyməti beşdir.

Üzeyir Hacıbəyovla eyni vaxtda oxumuş Ə.Q-EREQULOV yazırdı: bizim musiqi sahəsində təhsilimizin inkişafında Qoqoliçitzenin verdiyi nəğmə dərsləri az rol oynamadı. O, bizi ilk dəfə Not sistemi ilə tanış etdi. Bizim yoldaşlardan bir çoxuna xüsusilə Azərbaycanın uzaq kəndlərindən gələnlərə, qərb nəğmə və musiqisini eşitməyənlərə bu dərslər ağır gəlirdi. Buna görə də Qarabağdan gəlmiş bu vaxtadək Avropa musiqi və nəğməsini eşitməmiş Üzəyir Hacıbəyovun bir iki dərsdən sonra bunları mənimsəməsi, “ikinci və üçüncü” səslə oxumağı bizi təəccübləndirirdi. Şərq musiqi və nəğmə məsələlərində bizim yoldaşlar arasında misilsiz avtoritet tənqitçi və aparıcı ustad Üzeyir Hacıbəyov idi. Bayram günlərində şəhər ətrafına gəzməyə çıxanda dostlar və azərbaycanlı həmyerlilərimiz Üzeyirin və Balabəy Məmmədbəyovun oxumağından ləzzət alardılar. 1904-cü il iyun ayının əvvəllərində Üzeyir bəy Zaqafqaziya Müəllimlər Seminariyasını bitirdi və hər kəs öz evinə  sonra da təyin olunduğu məktəbə getdi.

Üzeyir Hacıbəyov öz xatirələrində yazırdı: “Mən seminar-yanın ikinci klasında idim ki, il yarımdan sonra müəllim olacaqdım. Yazı imtahanın almaq üzrə “Mən gələcəkdə nə iş görəcəyəm” səd löhvəsi altında bir məqalə yazmağı bizə əmr etdilər. Mən yazdım ki, məktəblərimiz üçün ana dilində tədris olmaqdan ötəri dərs kitabları tərtib edəcəyəm. Bunun üçün

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

osmanlı və rus kitablarından istifadə edib, hesab, coğrafiya və sair elmləri öz dilimizdə tərcümə edəcəyəm. Mənim fikrim direktorun xoşuna gəlməmişdi. Mənə çağırıb dedi: Müəllimlər sənin yazdığına ”üç” nömrəsi qoyubdurlar ama mən “iki yarım” qoyuram çünki, qammıram ki, sən nə deyirsən. Təhsildən sonra yoldaşlarımızdan əzcümlə məndən soruşdular ki, nərədə müəllimlik etmək istəyirsən? Dedim Bakıda. Və o qədər safdil idim ki, direktorumuzun bu barədə təvəccütini rica etdim. Birazdan sonra məni bir erməni kəndinə müəllim təyin etdilər”. Üzeyir Hacıbəyov Hadrut məktəbinə müəllim təyin olunduqdan sonra ”Kaspi” qəzetində “U” imzası ilə müəllifin yazıları çap edilməyə başlayır. Müasir Azərbaycan Musiqi Sənətinin banisi olan Üzeyir Hacıbəyov bir sıra gözəl əsərlər yaratmış olduğu kimi, Azərbaycanın əsirlərdən bəri toplanmış musiqi mədəniyyəti təcrübəsini nəzəri cəhətdən ümumiləşdirən əsaslı əsərlər də yazmışdır. Müharibə illərində Üzeyir Hacıbəyov bir sıra olduqca bədii və dolğun əsərlər yaratmışdır. Konsertlərdən birində onun səhnə üçün yazılmış “Vətən və cəbhə”, böyük musiqili əsərlərindən “Yaralı əsgərinn nağılı” parçası ifa edilmişdir. Üzeyir Hacıbəyovun əsərlərinin mövzuları olduqca maraqlı və müxtəlifdir. Düşmənlə mübarizəyə çağıran, “Coşqun çağırış”, vətənpərvər ananın surətini təsvir edən “Ananın oğluna nəsihəti” mahnısı, Azərbaycan ədəbiyyatının dahisi Nizami Gəncəvinin əsərlərinə yazılmış lirik “Sənsiz” və “Sevgili canan” romansları da bu qəbildəndir.

Müasir Azərbaycan musiqi sənətinin banisi olan Üzeyir Hacıbəyov bir çox gözəl əsərlər yaratmış oldğu kimi, Azərbaycanın əsirlərdən bəri toplanmış musiqi mədəniyyəti təcrübəsini nəzəri cəhətdən ümumiləşdirmişdir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 91-94**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 91-94**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Əhruz Mahmudova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0002-8817-8087
e.mahmudova.64@mail.ru
**Nurlanə Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0006-4381-767X
nurlanem50@gmail.com

# Üzeyir Hacıbəyovun yaradıcılığında dil məsələləri

***Açar sözlər:*** *maarifçilik, milli şüur, publisistik, ana dili, dilin saflığı*
***Keywords:*** *education, national consciousness, journalistic, mother tongu, purity of tongue*

Üzeyir Hacıbəyovun yaşayıb-yaratdığı dövr XIX əsrin sonu XX əsrin I yarısına təsadüf edir. Həmin dövr Azərbaycanda milli mədəniyyətin, maarifçilik ideyalarının inkişafı, milli mətbuatın genişlənməsi, şair və yazıçıların yaradıçılığında yeni ideyaların və milli düşüncə tərzinin təşəkkül tapdığı bir dövr idi.

Bu dövrdə xarici ölkələrdə təhsil alıb vətəninə qayıdan milli şüurun, milli kimliyin təmsilçisi olan ziyalılar da çox idi. Lakin elə kadrlar da var idi ki, onlaryad mədəniyyəti təbliğ edir, təhsil aldığı dildə ya tam, ya da qismən danışmağa maraqlı idilər. Bu isə ana dilimizə və mədəniyyətimizə ziyan verirdi. Ona görə o dövrdə yaşamış bütün Azərbaycan yazarlarının yaradıcılığında ana dilinin təmizliyinin qorunması, ədəbi dilə yad ifadələrin gətirilməsinə qarşı mübarizə ön plana keçmişdi. “XX əsrdə dil məsələləri ilə məşğul olanların, demək olar ki, hamısı yazıçılardır. Bu ona görə idi ki, yeni dövrün – XX əsrin

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

sənətkarları yalnız bədii əsər yazmaqla öz vəzifəsini bitmiş hesab etmirdi" (Hacıyev, 1960, s. 105).

Bu məsələdə dövrün maarifpərvər insanlarının, xüsusilə Mollanəsrəddinçilərin fədakarlığını qeyd etmək lazımdır. Xalqın maarifpərvər övladları doğma dilin inkişafı, qorunması və təkmilləşdirilməsi uğrunda daim mübarizə aparırdılar. "XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq bu dil bədii, publisistik, elmi və rəsmi üslublar istiqamətində inkişaf etməyə başlayır. Buna da səbəb azərbaycanlı ziyalılar təbəqəsinin formalaşması, milli burjua zümrəsinin, habelə milli maarifçi qüvvələrin meydana gəlməsi idi" (Seyidov, 2007).

Eyni mübarizədə Üzeyir Hacıbəyov da öz sözünü demiş, əsərlərində dilimizin inkişafına, təmizliyinə xələl gətirənlərə qarşı öz etirazını bildirmişdir. Musiqi əsərləri yazmaqla kifayətlənməyən bəstəkar yaratdığı bədii-musiqili, publisistik əsərlərində dilin sadələşdirilməsi, milli oyanış və maarifçilik ideyalarını təbliğ etmişdir. 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operası şərqdə ilk opera olmaqla qalmır, həm də ana dilində yazılmış opera kimi tarixə düşmüşdür. Əsərin Azərbaycan dilində yazılması ədəbi musiqili yaradıcılığın gücünü bir daha nümayiş etdirirdi. Dünya şöhrətli bəstəkar istər bədii əsərlərində, istər məqalə, istərsə də satirik yazılarında müntəzəm şəkildə bu mövzuya müraciət etmiş və münasibət bildirmişdir. "Molla Nəsrəddin" jurnalında və digər mətbuat orqanlarında nəşr etdirdiyi satirik əsərlərin dili sadə, axıcı, hər kəsin anlayacağı bir dildə yazılmışdır. O, əsərlərində cəhalətə qarşı mübarizə aparır, ana dilində məktəblərin və tədris vəsaitlərinin geniş şəkildə yayılması fikri ilə çıxış edirdi.

"Həyat" qəzetinin 1905-ci il 62-ci nömrəsində çap etdirdiyi "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" adlı məqaləsi dilimizin saflığının qorunması, ədəbi dilin inkişaf etdirilmə-sininin təbliği baxımından maraq doğurur. 1906-cı ildə "İrşad" qəzetində Üzeyir bəy Hacıbəyov imzası ilə dərc etdirdiyi "Hansı

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik" başlığı altında yazdığı silsilə məqalələrində ana dilinin tədrisi məsələlərinə toxunaraq öz dilini yaxşı bilməyənlərə dərs vermişdi.

Üzeyir Hacıbəyov dilə ola sevgisini belə ifadə edirdi: "Ana dilimizə əhəmiyyət verməsək, ola bilər ki, bir gün dilimiz itər-batar, yox olar və bir millətin də ki, dili batdı ,o millətin özü də batar, çünki bir millətin varlığına, yaşamasına isbat vücud onun dilidir". ("Həqiqət" qəzeti, 24-25 yanvar 1910-cu il).

O, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi operettalarında və digər əsərlərində ana dilimizin zənginliklərindən, qrammatik qayda-qanunlarından, ədəbi normalarından yerli-yerində istifadə edərək, xalq dilinin gözəlliklərinin ifadəsi olan söz və ifadələri ilə "Heç hənanın yeridir ", "Tarixi Nadiri yarıya qədər oxumuşam", "O olmasın, bu olsun", "Bir nəfər molla, üç manat pul, bir kəllə qənd, "Pulun var, gələrəm", "Bəs mənim bir abbasım?", "Əşi, siz gəlini gətirəndə bir baxmadınız görək, bu kişidir, yoxsa arvaddır?", "Mən dul, sən dul" və sair bu kimi zərb-məsələ dönmüş ifadələrlə yaddaşlara əbədi həkk olunmuşdur.

1913-cü ildə yazdığı həm milli, həm də beynəlxalq səviyyədə məşhur olan "Arşın mal alan " musiqili komediyası yalnız musiqi və süjet baxımından deyil, həm də dilinin sadəliyi, üslubunun canlılığı ilə seçilir. Əsərdəki dialoq səhnələrində personajların dilində işlənən atalar sözləri, müxtəlif deyimlər, zarafatlar xalqın gündəlik danışıq dilini əks etdirən ən gözəl nümunələrdir. Üzeyir Hacıbəyov dil vasitəsilə cəmiyyətin geridə qalmış adət-ənənələrini tənqid edir.

Əsərdə oxunan mahnılar da xalq dilindən götürülüb. Belə mahnılar vasitəsilə Üzeyir Hacıbəyov Azərbaycan xalqının mədəniyyətini, danışıq tərzini, yumor hissini təqdim edir. Məsələn: Gülçöhrə oxuyur:

Gözlərimin nuru sən, ürəyimin şövqü sən,
Sənsiz bir an yaşamaq, mənə olmaz mümkün.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Bu mahnı şeir dili ilə yazılsa da, xalq lirikası üslubundadır. Mahnıda sadəlik, qəlbə yaxınlıq, obrazlılıq ön plandadır. "Gözlərimin nuru"- klassik xalq ifadəsidir, "sənsiz bir an yaşamaq "-ümumi insan duyğusunun ifadəsidir. Bu cür bədii ifadələr həm duyğusal gücə malikdir, həm də dinləyicidə dilə qarşı sevgi yaradır.

Üzeyir Hacıbəyovun dil sevgisi onun bütün yaradıcılığına və maarifçilik fəaliyyətinə dərin şəkildə nüfuz etmişdir. O, dili sadəcə ünsiyyət vasitəsi kimi deyil, millətin varlığı və gələcəyi üçün əsas dayaqlardan biri hesab edirdi. Xalqdan uzaq ədəbi dildən imtina edərək, xalqın başa düşəcəyi sadə və səlis dili təşviq edirdi. Görkəmli bəstəkar dili bir mədəniyyət daşıyıcısı, milli ruhun ifadəsi, xalqın tərəqqi vasitəsi kimi görürdü. Onun bu sevgisi sayəsində Azərbaycan dili XX əsrin əvvəllərində ədəbi, musiqi və ictimai sferada mühüm yüksəliş dövrü yaşadı.

## Ədəbiyyat

1. Hacıyev, T. İ. (1960). *Şeirimiz, nəsrimiz, ədəbi dilimiz.* Yazıçı, 83.
2. Seyidov, Y. (2007). *Əsərləri* (15 cilddə, IV cild). Bakı Universiteti nəşriyyatı, 573

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 95-97**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 95-97**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Aynur Hüseynli**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-3415-838X
aynurm1991@mail.ru

# Üzeyir Hacıbəyovun pedaqoji irsi: təhsilin keyfiyyətinin inkişafına maarifçi yanaşma

***Açar sözlər:*** *pedaqoji görüşlər, təhsilin keyfiyyəti, maarifçilik prinsipləri,milli kimlik, yaradıcı yanaşma*
***Keywords:*** *pedagogical views, quality of education, principles of enlightenment, national identity, creative approach*

Üzeyir Hacıbəyov yalnız Azərbaycanın musiqi mədəniyyətinin banisi kimi deyil, eyni zamanda təhsil sahəsində irəli sürdüyü fikirlərlə də pedaqoji fikir tarixində özünəməxsus yer tutan şəxsiyyətlərdən biridir. Onun pedaqoji görüşləri Azərbaycan maarifçiliyinin inkişafında əhəmiyyətli rol oynamış, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş strateji baxışları ilə seçilmişdir. Ü.Hacıbəyovun fikirlərində təhsil təkcə bilik vermə vasitəsi deyil, həm də insanın mənəvi kamilliyə çatmasında, milli kimliyinin formalaşmasında, cəmiyyətin tərəqqisində əsas amil kimi dəyərləndirilir.

Onun pedaqoji baxışlarının formalaşmasında bir sıra amillər təsirli olmuşdur. İlk növbədə, o dövrün Avropa maarifçilik ideyaları, Rusiya imperiyası çərçivəsində fəaliyyət göstərən qabaqcıl ziyalıların fikirləri və Azərbaycanın özünəməxsus milli-mədəni mühiti Ü.Hacıbəyovun düşüncə sisteminə güclü təsir göstərmişdir. O, təhsilin yalnız zənginlər üçün deyil, bütün xalq üçün əlçatan olmalı olduğunu vurğulayır, ümumxalq maariflənməsini sosial tərəqqinin təməli hesab edirdi. Bu

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

kontekstdə o, təhsilin demokratikləşməsi ideyasını müdafiə edirdi.

Üzeyir Hacıbəylinin pedaqoji ideyaları Azərbaycanın ictimai və pedaqoji fikir tarixində mühüm mövqe tutur. Onun xalq maarifinə dair müxtəlif dövrlərdə irəli sürdüyü düşüncə və mülahizələr bu gün də həm tarixi, həm nəzəri, həm də praktiki baxımdan aktuallığını və dəyərini qoruyur. Bu kontekstdə Üzeyir bəyin 1910-cu ildə "Həqiqət" qəzetində tanınmış şəxsiyyətlər haqqında yazdığı "...onlar yalnız özləri üçün deyil, bütün xalqa və bəşəriyyətə fayda vermək və tərəqqiyə xidmət etmək üçün yaranıblar. Belə insanlar təkcə sağlığında deyil, ölümündən sonra da cəmiyyətə xeyir verirlər" fikirləri hər şeydən əvvəl onun öz şəxsiyyətinə aiddir (Verdiyev, 2025).

Ü.Hacıbəyovun pedaqoji görüşlərində təhsilin məzmun və metodlarına dair müasir yanaşmalar da əks olunur. O, uşaqların yaradıcı və tənqidi düşüncəsinin inkişaf etdirilməsinə üstünlük verirdi. Ənənəvi mexaniki əzbərləmə metoduna qarşı çıxaraq, dərslərdə musiqi, teatr və digər incəsənət növlərinin tətbiqini təşviq edir, bununla da tədrisin həm maraqlı, həm də daha məhsuldar olacağına inanırdı. Onun "Leyli və Məcnun" operası və digər musiqili əsərləri təkcə incəsənət nümunəsi deyil, həm də pedaqoji və maarifləndirici vasitə rolunu oynayırdı. Əsərlərində milli ruhu, etik və estetik dəyərləri aşılayaraq, təhsilin mədəni kimliyin qorunmasında oynadığı rolu nümayiş etdirirdi (Şiriyeva, 2023).

Ü.Hacıbəyov müəllim obrazına xüsusi önəm verirdi. Onun fikrincə, müəllim yalnız bilik ötürən deyil, həm də tərbiyəçi, vətənpərvərlik və mənəvi dəyərlər daşıyıcısıdır. O, müəllimlərin yüksək mənəvi keyfiyyətlərə sahib olmasını, pedaqoji hazırlığının mükəmməl olmasını zəruri hesab edirdi. Bu baxımdan Ü.Hacıbəyov müasir pedaqoji kadr hazırlığı konsepsiyasına uyğun fikir irəli sürür və pedaqoji təhsilin keyfiyyətinin

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

artırılmasının cəmiyyətin gələcəyi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edirdi.

Təhsilin dil məsələsinə yanaşması da diqqətəlayiqdir. O, ana dilində təhsilin vacibliyini ön plana çəkərək, milli kimliyin qorunması və inkişafında dilin rolunu əsaslandırırdı. Hacıbəyovun qənaətinə görə, ana dilində aparılan təhsil təkcə informasiyanın ötürülməsi deyil, həm də mənəvi formalaşmanın, düşüncə azadlığının və milli dəyərlərin daşıyıcısıdır.

Həmçinin, Üzeyir Hacıbəyovun qadın təhsilinə olan münasibəti də maarifçilik tariximizdə önəmli səhifələrdən biridir. O, qadınların təhsilsizliyinin bütövlükdə cəmiyyətin inkişafına mane olduğunu düşünərək, qadınların maariflənməsini təhsilin demokratikləşməsi baxımından vacib sayırdı.

Beləliklə, Üzeyir Hacıbəyovun pedaqoji görüşləri Azərbaycanın təhsil sisteminin müasir əsaslarının formalaşmasında mühüm rol oynamış, onun irəli sürdüyü ideyalar bu gün də aktuallığını qorumaqdadır. O, təhsilin yalnız formal deyil, həm də mənəvi və estetik ölçülərə sahib olduğunu sübut edərək, maarifçiliyin ən ali missiyasını – insanın bütöv formalaşması ideyasını pedaqoji baxışlarının mərkəzinə yerləşdirmişdir. Bu baxımdan, Ü.Hacıbəyovun pedaqoji irsi təhsil tariximizin parlaq səhifələrindən biri kimi dəyərləndirilməli və tədqiqatlarda daha geniş şəkildə araşdırılmalıdır..

## Ədəbiyyat

1. Verdiyev, İ. (2025). Üzeyir Hacıbəylinin pedaqoji görüşləri. *dak.az*. https://www.dak.az
2. Şiriyeva, Z. (2023). Üzeyir Hacıbəyovun yaradıcılığı və maarifçilik fəaliyyəti. *Azərbaycan müəllimi*. https://www.old.muallim.edu.az/news.php?id=26370

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 98-102**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 98-102**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Günay Babayeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0005-7621-7577
kerimovagunay@nmi.edu.az

# Üzeyir Hacıbəyovun "hesab məsələləri" dərsliyindəki pedoqoji fikirlər

***Açar söz:*** *riyazi düşüncə, düstur tətbiqi, bədii-estetik dəyər, interaktiv, intellektual*
***Keywords:*** *mathematical thinking, formula application, artistic-aesthetic value, interactive, intellectua*

Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyov 18 sentyabr 1885-ci ildə Qarabağın qədim və zəngin mədəniyyət beşiyi olan Şuşa qəzasının Ağcabədi kəndində dünyaya gəlmişdir. O, yalnız Azərbaycan musiqi tarixində deyil, bütövlükdə Şərq mədəniyyətində silinməz iz qoymuş nadir şəxsiyyətlərdən biridir. Üzeyir bəy Azərbaycan xalq musiqisini Avropa musiqi ənənələri ilə ustalıqla birləşdirərək, müasir peşəkar musiqi məktəbinin təməlini qoymuşdur. Onun çoxşaxəli yaradıcılığı bəstəkar, dirijor, musiqişünas, dramaturq, publisist, pedaqoq və ictimai xadim kimi fəaliyyətləri ilə zəngindir.

1908-ci ildə yazdığı "Leyli və Məcnun" operası ilə o, Şərqdə ilk dəfə opera janrını yaratmış və Azərbaycan musiqisinin tarixində yeni bir səhifə açmışdır. Bu opera yalnız musiqi baxımından deyil, həm də ideya və məzmun baxımından dövrünün irəli səviyyəli sənət nümunəsi kimi qəbul edilmişdir. Ardınca bəstəkar "Əsli və Kərəm", "Şah Abbas və Xurşid Banu", "Harun və Leyla", "Koroğlu" kimi dəyərli operalar yazaraq bu janrı daha da zənginləşdirmişdir. Xüsusilə "Koroğlu" operası onun yaradıcılığının zirvəsi sayılır və yüksək bədii-

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

estetik dəyəri ilə bu gün də klassik musiqi irsimizin incilərindən biri kimi qiymətləndirilir.

Üzeyir Hacıbəyov həmçinin Azərbaycan Respublikasının Dövlət Himninin musiqisini bəstələyən sənətkardır. Bu fakt onun vətənə olan sevgisini və musiqi ilə milli kimliyi ifadə etmək bacarığını bir daha təsdiqləyir. O, musiqi nəzəriyyəsinə də böyük töhfələr vermiş, "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental əsəri ilə milli musiqimizin elmi əsaslarını sistemləşdirmişdir.

Bəstəkarın fəaliyyəti yalnız musiqi ilə məhdudlaşmamışdır. O, ömrü boyu maarifçilik ideyalarına sadiq qalmış, müəllimlik etmiş, dərsliklər yazmış və publisistik fəaliyyəti ilə xalqın maariflənməsinə çalışmışdır. "Molla Nəsrəddin" jurnalında dərc olunan satirik yazılarında dövrünün sosial problemlərinə toxunmuş, cəmiyyətdəki qüsurlara qarşı mübarizə aparmışdır.

Bu gün Üzeyir Hacıbəyovun irsi Azərbaycan xalqının qürur mənbəyidir. Onun adına musiqi məktəbləri fəaliyyət göstərir, ev-muzeyi ziyarət olunur, hər il keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı isə sənətkarın adını və sənətini yaşadır. 23 noyabr 1948-ci ildə dünyasını dəyişən Üzeyir bəy Bakıda, Fəxri Xiyabanda dəfn olunmuşdur. Onun həyatı və yaradıcılığı Azərbaycan mədəniyyət tarixində parlaq bir səhifə olaraq daim xatırlanacaq, gələcək nəsillərə örnək olacaqdır.

Üzeyir Hacıbəyovun "Hesab məsələləri" dərsliyi, 1908-ci ildə nəşr olunmuş və Azərbaycan təhsilində mühüm yer tutmuş bir əsərdir. Dərsliyin əsas məqsədi, ibtidai məktəblərdə şagirdlərə riyazi düşüncə və problem həll etmə bacarıqlarını aşılamaqdır. Hacıbəyov bu dərsliyi yazarkən, yalnız hesablama və düstur tətbiqinə deyil, həm də şagirdlərin məişət həyatında qarşılaşa biləcəyi vəziyyətlərə uyğun məsələlər üzərində cəmləşməyə üstünlük vermişdir. Bu yanaşma şagirdlərin riyazi düşüncə qabiliyyətlərini inkişaf etdirmək və onları gündəlik

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

həyatda tətbiq edə biləcəkləri biliklərlə təchiz etmək məqsədini güdür.

Dərsliyin məsələləri sadə hesablamalardan başlayaraq şagirdlərin analitik düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirəcək şəkildə tərtib edilmişdir. Hacıbəyov, məsələlərin müxtəlif aspektlərini şagirdlərə izah edərək, onların riyazi düşüncələrini sistemləşdirir və təfəkkürlərini daha geniş çərçivəyə salır. Bu dərslik, yalnız riyazi bilikləri deyil, həm də şagirdlərin analitik və yaradıcı düşünmə bacarıqlarını artırmağa yönəldilmişdir.

Dərslikdə müzakirələrə və fəal iştirakın təşviqinə yer verilmişdir. Şagirdlərin hər bir məsələni yalnız hesablamalarla deyil, həm də məntiqi izahlarla və mübahisələrlə həll etmələri məqsəd qoyulmuşdur. Bu yanaşma, şagirdlərin özlərini ifadə etmələrinə və düşüncələrini sərbəst şəkildə inkişaf etdirmələrinə imkan yaratmışdır. Hacıbəyovun tədris metodları həmçinin onların tədrisə olan maraqlarını artırmış və onların dərsə olan yanaşmalarını dəyişdirmişdir.

Üzeyir Hacıbəyovun "Hesab məsələləri" dərsliyi, təhsil metodlarının və yanaşmalarının inkişafı baxımından mühüm bir əhəmiyyətə malikdir. Bu dərslik, riyaziyyat təhsili ilə yanaşı, ümumilikdə tədrisin keyfiyyətini artırmaq və şagirdlərin fərdi inkişaflarını təmin etmək məqsədini güdmüşdür. Hacıbəyovun bu yanaşması, yalnız riyazi biliklərə deyil, həm də tələbələrin düşüncə tərzini formalaşdırmağa yönəlmişdir.

Üzeyir Hacıbəyovun "Hesab məsələləri" dərsliyindəki pedaqoji fikirlər, onun tədris fəlsəfəsinin və metodlarının bir əksidir. Hacıbəyov, xüsusilə musiqi təhsili sahəsindəki təcrübəsindən istifadə edərək, tədris metodlarına yeni bir yanaşma gətirmiş və təlimin daha effektiv və əhatəli olmasını təmin etmişdir. Onun pedaqoji prinsipləri, tədris prosesini həm intellektual, həm də emosional səviyyədə zənginləşdirərək tələbənin inkişafını hərtərəfli şəkildə dəstəkləyir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 98-102**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 98-102**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

İlk növbədə, Hacıbəyov tələbələrin inkişafına diqqət yetirir. O, hər bir tələbənin fərdi xüsusiyyətlərini və qabiliyyətlərini nəzərə alaraq, onların inkişafını dəstəkləyir. Bu yanaşma, hər bir tələbənin tədris prosesinə aktiv şəkildə cəlb olunmasını təmin edir və onların fərdi ehtiyaclarına uyğun dərslər təşkil etməyə imkan verir. "Hesab məsələləri" dərsliyindəki məzmun da buna uyğun olaraq, tələbələrin riyazi düşünmə bacarıqlarını inkişaf etdirmək məqsədini güdür. Hacıbəyov, tədrisin yalnız bilik verməkdən ibarət olmadığını, eyni zamanda tələbənin intellektual və analitik düşünmə qabiliyyətlərini gücləndirmək olduğunu vurğulayır.

Hacıbəyov, musiqi təhsilində olduğu kimi, ümumilikdə təhsilin emosional və estetik tərəflərinə də xüsusi diqqət yetirir. O, dərsləri tələbələrin duyğusal inkişafını da nəzərə alaraq təşkil edir. Tədrisin yalnız biliklərə əsaslanmadığını, eyni zamanda tələbələrin emosional vəziyyətlərinə və estetik zövqlərinə uyğun olmasının vacib olduğunu vurğulayır. Bu yanaşma, tələbələrin dərslərə daha həvəsli və maraqlı şəkildə yanaşmalarını təmin edir. Təhsil prosesinin bu cür emosional tərəfi, tələbələrin dərsə olan münasibətini müsbət istiqamətdə dəyişdirir və onları dərsləri daha dərindən öyrənməyə təşviq edir.

Yaradıcılıq və sərbəst düşüncə də Hacıbəyovun pedaqoji fəlsəfəsinin mühüm bir hissəsidir. O, tələbələrin yalnız verilən məlumatları öyrənmələrini deyil, həm də bu məlumatları öz müstəqil şəkildə analiz edib yeni ideyalar yaratmalarını istəyir. Bu yanaşma, tədris prosesini daha interaktiv və tələbə yönümlü edir. "Hesab məsələləri" dərsliyində təqdim olunan məsələlər və tapşırıqlar, tələbələrin yaradıcı düşüncə qabiliyyətlərini inkişaf etdirmək üçün hazırlanmışdır. Hacıbəyov, tələbələrin sərbəst düşünmə və problem həll etmə bacarıqlarını təşviq edir, eyni zamanda onlara öz fikirlərini ifadə etməyə imkan verir. Bu, onların intellektual və yaradıcı inkişaflarını təmin edir.

Nəticə olaraq, Üzeyir Hacıbəyovun pedaqoji fikirləri, tədris prosesinin hər tərəfli inkişafını təmin etməyə yönəlmişdir. O,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

dərsləri interaktiv və tələbə yönümlü etmək, yaradıcı və analitik düşünmə bacarıqlarını inkişaf etdirmək, həmçinin tələbələrin emosional və estetik inkişafını da nəzərə almaqla tədrisin keyfiyyətini artırır. Hacıbəyovun bu pedaqoji yanaşması, təhsilin yalnız bilik verməkdən daha çox bir proses olduğunu, hər bir tələbənin öz potensialını kəşf etməsinə və inkişaf etdirməsinə imkan yaratdığını göstərir.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 103-106**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 103-106**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Leyla Qurbanova**
Gözdən Əlil Uşaqlar üçün
Xüsusi İbtidai Məktəb
https://orcid.org/0009-0002-9820-6842
leyla.quliyeva075@icloud.com

# Üzeyir Hacıbəyovun pedaqoji fəaliyyəti və onun Azərbaycan mədəniyyətinə töhfəsi

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, pedaqoji fəaliyyət, musiqi təhsili, opera, Azərbaycan mədəniyyəti, xalq musiqisi, musiqi irsi, bəstəkarlıq*

***Keywords:*** *Uzeyir Hajibeyov, pedagogical activity, music education, opera, Azerbaijani culture, folk music, musical heritage, composing*

Üzeyir Hacıbəyov (1885-1948) yalnız Azərbaycan musiqi mədəniyyətinin inkişafına töhfə verməklə kifayətlənməmiş, həm də pedaqoji fəaliyyəti ilə musiqi təhsilinin əsaslarını qoymuş, Azərbaycan musiqisinin dünya səhnəsində tanınmasına böyük zəmin yaratmışdır. Hacıbəyovun musiqi sahəsindəki xidmətləri ona "Azərbaycanın ilk bəstəkarı" statusunu qazandırmışdır. Lakin onun mədəniyyətimizə verdiyi töhfələr yalnız bəstəkarlıqla məhdudlaşmır, o həm də musiqi təhsilinin təşkilində, pedaqoji işində, milli musiqi mədəniyyətinin inkişafında müstəsna rol oynamışdır. Hacıbəyovun yaradıcılığının xarakterində iki amal əsas rol oynayırdı: vətəndaşlıq borcu və bu borcu icra etmək. Üzeyir Hacıbəyov son kursda təhsil alan zaman "mən gələcəkdə nə iş görəcəyəm" inşa müsabiqəsində, Hacıbəyov "Mən məkəblərimiz üçün ana dilində tədris olunmaqdan ötrü dərs kitabları tərtib edəcəm" qeyd etmişdir. Bununda bariz nümunəsidir ki, o, azərbaycan

https://doi.org/10.36719/2663-4619/0807/2025

dilində ilk musiqi nəzəriyyəsi dərsliyi olan "Azərbaycan xalq musiqisinin əsasları" və "Hesab məsələləri" çap etdirmişdir. Dərslik tərtib edərkən o qeyd edirdi ki, dərsliklər şagirdə yalnız bilik ötürməkdən ibarət olmamalı,bununla yanaşı şagirdlərdə milli-bəşəri dəyərləri aşılamalı, şagirdləri vətənpərvər ruhda tərbiyə etməlidir. O həmçinin müəllimlikdən bəhs edərkən müəllimi yüksək dəyərləndirmiş qeyd etmişdir ki, müəllimlər yalnız şagirdlərə mövzunun məzmununu öyrətməməli, həmdə özü müəllimin etik davranış qaydalarına əməl etməli, özü vicdanlılıq nümunəsi göstərməli pedaqoji prossesin təşkili prinsiplərinə əməl etməlidir.

Hacıbəyov, həyatını yalnız musiqi ilə deyil, həm də musiqi təhsilinin təşkili ilə bağlamışdır. Onun pedaqoji fəaliyyətinin əsas xüsusiyyəti, milli musiqi təhsilinin yeni əsaslarla qurulması və mövcud musiqi təhsilinin sistemli şəkildə inkişaf etdirilməsidir. Hacıbəyovun ən böyük pedaqoji uğurlarından biri, 1920-ci ildə Azərbaycan Musiqi Cəmiyyətinin təşkilində və Bakı Konservatoriyasının yaradılmasında rol oynamasıdır. Bu konservatoriya, Azərbaycan musiqisinin inkişafı və təhsilinin müasir dövrə uyğun şəkildə formalaşmasına böyük təsir göstərmişdir. Hacıbəyovun özünün müasir tədris metodlarına və musiqi təhsilinin yaxşılaşdırılması üçün göstərdiyi səy nəticəsində, Bakı Konservatoriyası qısa müddət ərzində mütəxəssis musiqiçilər yetişdirən prestijli bir təhsil ocağına çevrilmişdir (Üzeyir Hacıbəyli seçilmiş əsərləri, 2025).

Üzeyir Hacıbəyov öz pedaqoji fəaliyyətində yalnız musiqi alətləri ilə bağlı nəzəri biliklər verməklə kifayətlənməmiş, həm də tələbələrinə praktiki ifa bacarıqları aşılamışdır. O, tələbələrinin musiqi dünyasına yanaşmalarını dəyişdirərək, onlara həm klassik musiqinin əsaslarını, həm də milli musiqimizin özünəməxsus xüsusiyyətlərini öyrətmişdir. Hacıbəyovun tədrisində həmişə əsas məsələlərdən biri musiqinin emosional dərinliyi və insan ruhuna təsiridir. Hacıbəyovun pedaqoji

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

fəaliyyətində tətbiq etdiyi prinsiplər arasında musiqi əsərlərinin dərin anlaşılıb mənimsənilməsi, sərbəst ifadə və yaradıcı yanaşma, vətəndaşlıq və milli kimliklə bağlı təlimlər xüsusi yer tutur. O, yalnız musiqiçilər deyil, həm də musiqi sənətini sevənlər yetişdirməyi qarşıya məqsəd qoymuşdu.

Üzeyir Hacıbəyov, Azərbaycan mədəniyyətinin inkişafına yalnız musiqi təhsili sahəsində deyil, həm də bəstəkarlıq fəaliyyəti ilə böyük töhfələr vermişdir. Onun sənətinə və mədəniyyətə verdiyi töhfələr müasir Azərbaycan musiqisinin əsasını qoymuş və onu dünya musiqi mədəniyyətinə tanıtmışdır. Üzeyir Hacıbəyov, 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operası ilə Azərbaycan musiqisinin operatik janrını yaratmışdır. Bu opera, Azərbaycan xalq musiqisinin motivləri əsasında yazılan ilk milli opera olub, həmçinin Azərbaycan musiqi sənətinin dünyada tanınmasına səbəb olmuşdur. "Leyli və Məcnun" operasının yazılması Azərbaycan mədəniyyətinin böyük bir dönüşümünü simvollaşdırır. Bu, yalnız bəstəkarın fərdi uğuru deyil, həm də milli musiqi mədəniyyətinin mühüm bir mərhələsi idi. Hacıbəyovun musiqi irsi yalnız simfonik əsərlərlə deyil, həm də xalq musiqisinin təbliği ilə zəngindir. O, Azərbaycan xalq musiqisinin bəstəkarlar tərəfindən geniş şəkildə istifadə edilməsini təmin etmiş və bu musiqiləri klassikləşdirərək müasir musiqi janrlarına uyğunlaşdırmışdır. Üzeyir Hacıbəyovun simfonik əsərləri, orkestrlər və mahnılar Azərbaycan musiqisinin dünya səhnəsində tanınmasına yol açmışdır.

Hacıbəyov, Azərbaycan musiqisinin xalq əsərlərini toplayaraq onları qorumuş və gələcək nəsillərə çatdırmışdır. O, həmçinin yerli musiqiçilərin yaradıcı potensialını açmaqla yanaşı, bu musiqinin dünya səhnələrində daha çox yer almasına töhfə vermişdir. Hacıbəyovun milli musiqi və mədəniyyətə verdiyi töhfələr, Azərbaycanın zəngin musiqi irsinin qorunub saxlanmasına və dünyaya tanıdılmasına gətirib çıxarmışdır.

https://doi.org/10.36719/2663-4619/0807/2025

Hacıbəyov yalnız opera bəstəkarı deyil, həm də simfonik və kamera musiqisinin inkişafına böyük diqqət yetirmişdir. Onun simfonik əsərləri və kameralar üçün yazdığı musiqilər Azərbaycan musiqi ənənələrinin yüksək səviyyədə təmsilçisidir. Hacıbəyovun orkestrləri, əsərləri və simfonik əsərləri Azərbaycan musiqisinin dünya səhnəsində özünə yer tapmasını təmin etmişdir.

Üzeyir Hacıbəyov, Azərbaycan musiqi mədəniyyətinə və təhsilinə verdiyi töhfələrlə təkcə öz dövründə deyil, bu gün də böyük təsir göstərən bir şəxsiyyətdir. Onun pedaqoji fəaliyyəti, musiqi təhsilində tətbiq etdiyi yeni yanaşmalar, milli musiqi təhsilinin əsaslarını qoymuşdur. Hacıbəyovun bəstəkarlıq fəaliyyəti isə Azərbaycan musiqisinin zənginləşməsinə və dünya səhnəsində tanınmasına gətirib çıxarmışdır. O, Azərbaycan mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri ilə tarixə düşmüşdür. Onun əsərləri və pedaqoji prinsipləri Azərbaycan musiqisinin gələcək nəsillərə ötürülməsində əvəzsiz rol oynamağa davam edir.

## Ədəbiyyat

1. Üzeyir Hacıbəyli seçilmiş əsərləri. (2025). “Şərq- Qərb”.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 107-109**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 107-109**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Ruhəngiz Əliyeva**
Naxçıvan Müəllimlər İnstitutu
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9466-4822
ruhangiz.aliyeva@list.ru

# Üzeyir Hacıbəyovun azərbaycançılıq ideyaları

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, azərbaycançılıq, türkçülük, azərbaycançılıq, millilik və ümumbəşərilik*

***Keywords:*** *Uzeyir Hajibeyov, Azerbaijaniism, Turkism, Azerbaijaniism, nationality and universalism*

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun Azərbaycançılıq ideyalarının təbliğində və tərənnümündə xüsusi xidməti olmuşdur. Dünya şöhrətli bəstəkar öz musiqi və publisistik əsərlərində türkçülük və azərbaycançılıq, eləcə də, millilik və ümumbəşərilik vəhdət təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, Üzeyir Hacıbəyov bədii yaradıcılığı ilə nəzəri fikirləri arasında ziddiyyət olan sənətkarlardan deyil. "Onun musiqisi sözünü, sözü də musiqisini tamamlayır" (Fərəcova, 2019).

Üzeyir sənətində diqqəti ən çox cəlb edən cəhət xalq musiqisinə münasibət məsələsidir. Bəstəkarın demək olar ki, elə bir yazısı, çıxışı yoxdur ki, həmin nöqtəyə toxunmamış olsun. Onun bu məsələyə yetirdiyi çox böyük diqqət təsadüfi deyildi.

Mehriban Əliyeva, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, "Üzeyir irsi, həqiqətən böyük bir dünyadır. Bu dünyanın əzəməti ondadır ki, Üzeyir bəy bu gün də əsl pedaqoq kimi bizi tərbiyə edir, bizə kədərlənməyi və

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

gülməyi öyrədir. Muğam dramaturgiyasının sirlərini açır. Aşıq sənətinin qüdrətini dərk etməyə kömək edir" (Əhmədova, 2020).

Üzeyir Hacıbəyovun dahiliyi ondadır ki, xalqın qəhrəmanlığını, vətənpərvərliyini, milli qürurunu, azərbaycançılığını musiqi dili ilə ifadə etmişdir. Üzeyir Hacıbəyovun yaradıcılığına yüksək qiymət verən Ulu Öndər Heydər Əliyevin göstərişilə hələ 1975-ci il noyabrın 20-də Üzeyir Hacıbəyovun ev muzeyi açıldı. Ev muzeyin açılışında Heydər Əliyev iştirak edərək, parlaq nitq söylədi. Onun nitqi Azərbaycan musiqi mədəniyyətinə sevgi və qayğının təzahürü idi. Heydər Əliyev hesab edirdi ki, belə ev muzeyləri incəsənət xadimlərinin yaradıcılığını təbliğ edir, böyük tərbiyə və mədəniyyət ocağıdırlar. Ev muzeylər, həm də daha geniş məna daşıyaraq gələnlərdə, xüsusən, məktəblilərdə özünə inam, milli kökə bağlılıq, milli hisslər və müstəqillik düşüncələrini oyadırdı.

Ulu Öndər Heydər Əliyev Üzeyir Hacıbəyovun Azərbaycan musiqi mədəniyyətinin inkişafında oynadığı müstəsna roldan bəhs edərək demişdir: "Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun M.Maqomayevlə və bir neçə silahdaşı ilə birlikdə uzun müddət çox böyük çətinlikləri aradan qaldırmağa və güclü müqaviməti qırmağa məcbur olduğunu xatırlayanda musiqi mədəniyyətimizin bir neçə onillik ərzində keçdiyi diqqətəlayiq yol gözümüz qabağında xüsusilə qabarıq şəkildə canlanır (Səfərova, 2015).

Bu gün Azərbaycan professional musiqisi banilərinin, ilk növbədə, Üzeyir Hacıbəyovun fəaliyyətini böyük minnətdarlıq və iftixarla xatırlayırıq. Onlar xalqa nəinki gözəl musiqi əsərləri bəxş etmiş, həm də Azərbaycanda bəstəkarlıq məktəbinin təməlini qoymuş və bu məktəbi yaratmışlar".

Prezidenti cənab İlham Əliyev dahi Üzeyirin "Koroğlu" operasındakı azərbaycançılıq ruhunu yüksək dəyərləndirir. Koroğlunun abidəsinin açılışı münasibətilə nitqində cənab İlham Əliyev demişdir: "Bu abidələr bir daha onu göstərir ki,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Azərbaycan xalqı nə qədər böyük, nə qədər istedadlı xalqdır, bizim nə qədər böyük tarixi şəxsiyyətlərimiz olmuşdur. Onların fəaliyyəti, həyatı, xalqa bağlılığı bizim üçün də bir nümunədir, örnəkdir. Onlar bu yolu bizə göstərdilər. Bu yol ədalət yoludur. Koroğlu da haqq-ədalətin tərəfində idi. Koroğlu kasıbların tərəfində idi. Koroğlu ədalətsizliyə dözməyən və ədalətsizliyə qarşı vuruşan görkəmli şəxsiyyət, sərkərdə, gözəl vətəndaş idi. Biz, bir daha demək istəyirəm ki, gənc nəsli bu müsbət nümunələr əsasında tərbiyə etməliyik. Mən çox şadam ki, Azərbaycan gəncləri vətənpərvərdirlər, Vətənə bağlıdırlar, Vətəni sevirlər. Bizim vətəndaşlar haqlı olaraq qürur hissi keçirirlər ki, biz hamımız Azərbaycan vətəndaşıyıq".

## Ədəbiyyat


1. Fərəcova, Z. (2019, sentyabr 19). Vətən sevgisini musiqi dilinə çevirən bəstəkar. Azərbaycan, 7.
2. Məmmədova, A. (tərt. ed.). (2020). Üzeyir Hacıbəyli – 135: metodik vəsait (K. Tahirov, ixtisas red.; L. Əhmədova, red.).
3. Səfərova, Z. (elmi red. və ön söz müəllifi), Haşımova, H. [və b.]. (tərt.). (2015). Üzeyir Hacıbəyli: Biblioqrafiya: 1905-2015 (K. Tahirov, ixtisas red.; G. Səfərəliyeva, red.). Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası. https://anl.az/down/hu_biblioqrafiya(1905-2015).pdf

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 110-113**
***Uzeyir Hajibeyli 140* International Scientific Conference 4 iyun 2025 / 110-113**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Sarıngül Hacıyeva**
Naxşıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0008-9917-1358
haciyevasaringul@gmail.com

# Üzeyir Hacıbəylinin ana dili və onun tədrisi uğrunda mübarizəsi

***Açar söz:*** *ana dili, tədris, əxlaq tərbiyəsi, məktəb və maarif sahəsi, savad təlimi*

***Keywords:*** *mother tongue, education, moral education, school and education sector, literacy training*

Dövrünün və dövrümüzün pedaqoji fikir nümayəndələrindən biri də Üzeyir Hacıbəylidir. Onun istər əsərlərində, istər məqalələrində, istər resenziyalarında, istər açıq məktublarında, istərsə də felyetonlarında sxolastik məktəblər tənqid edilmiş, ana dili, çar Rusiyasının və ya Rusiyanın ruslaşdırma siyasəti, təhsil üsulları və ya əxlaq tərbiyəsi ilə bağlı bu gün də öz aktuallığını saxlayan fikirlər söyləmişdir.

Üzeyir Hacıbəyli Azərbaycan dilinin tədrisi və bu dilin səlahiyyətini yüksəltmək məsələləri ilə də yaxından tanış olmuş və bu sahədə böyük xidmətlər göstərmişdir. O, istər pedaqoji fəaliyyəti zamanı, istərsə mətbuat aləminə atıldığı gündən həmişə ana dili və onun tədrisi məsələsinə ciddi əhəmiyyət vermişdir.

Ona görədir ki, Ü.Hacıbəyli doğma Azərbaycan dilimizi ərəb-fars, rus və avropa ibarələri ilə ağırlaşdıranları, ana dilimizi xalq üçün anlaşılmaz bir vəziyyətə salanlara qarşı "İrşad", "Yeni Həyat", "Həyat", "İqbal", "Yeni iqbal", "Tərəqqi", "Molla Nəsrəddin" və sair digər qəzet və jurnallarda yazırdı: əgər biz öz ana dilimizə indiyə qədər baxdığımız nəzərlə baxmaqda davam edərsək, yəni heç bir əhəmiyyət verməsək, ola bilər ki, günlərin bir günü dilimiz itər, batar, yox olar və bir millətin də ki dili

https://doi.org/10.36719/2663-4619/0807/2025

batdı, onda o millət özü də batar, çünki bir millətin varlığına, isbati vücud etməsinə səbəb onun dilidir. Biz öz dilimizə əhəmiyyət verməmişik. Dilimizin qədrini və qiymətini bilməmişik. Buna şahid, əvvəla, üsuli-qədim məktəblərimizdir, hankı ata öz övladını üsuli-qədim məktəbinə qoyduqda o məktəbdə oğlunun nə dildə dərs oxuduğuna əhəmiyyət veribdir?.. Heç biri... Atalarımız ancaq bununla təsəlliyab olubdurlar ki, o məktəblərdə "müsəlmanca" oxunur. Və müsəlmancadan ibarət guya ərəb və fars dilləri imiş, çünki həmin məktəblərdə bu dillərdən başqa özgə bir dil oxunmur. O, – eyib olmasın məktəblərin yenə eyib olmasın “proqramı” məlumdur: əvvəlcə çərəkə, sonra cüzi - Quran, sonra Quranın məddi, ondan sonra “Gülüstan”, “Bustan”, “Tarixi-Nadir”, “Hafiz” və sairin fars kitabları.

Odur ki, o cür məktəblərdən çıxmış, daha doğrusu, qaçmış uşaqlar, təbiidir ki, türkcə heç bilməzlər, farsca danışmaq bacarmazlar, ərəbcə ancaq qiraət oxumaq bilərlər. O da şərtnən ki, ərəbcə kitabda zirzəbər qoyulmuş ola (Camalov, 2015, s. 142).

Ü.Hacıbəylini Azərbaycan dilinin təmizliyi, saflığı və sadəliyi məsələləri həmişə düşündürmüşdür. O, istər böyük həcmli əsərlərində və istərsə də kiçik felyetonlarında ardıcıl surətdə bu ideyanı müdafiə etmiş, yuxarıda qeyd etdiyimiz kimi dilimizi osmanlı, ərəb-fars və rus sözləri ilə dolduranlara qarşı mübarizə aparmışdır. Dil adlı məqaləsində oxuyuruq: “Əhalimizi təşkil edən əfradın bir parası molla və “şibhi molla”lardır, bir parası mollaların müridləridir, bir parası da intiligentlər və "sibhi intiligent”lərdir. Bir parası da bunların müridləridir.

Mollalarımızdan türkcə biləni, yəni türk sərf və nəhvinə mütabiq yazıb danışmaq bacaranı yox dərəcəsində azdır. Mollalarımızın müridlərindən “savadlı” olanları varsa, onlar da yazı-pozularını, məktub filanlarını farsca yazarlar, o da min cür qələt ilə. Məsələn: hesablarında – roqəni səmərqənd – pinc

https://doi.org/10.36719/2663-4619/0807/2025

batman, mali-zəri-rusi – həft – arşın, – əz hacı... filan vüsul şüd divist pencah mənat nəqd. Hələ qəbz bunlardan bəzilərin türkcə bilməməyi özləri üçün bir "fəxr" də hesab edirlər. Təsadüfən əllərinə düşmüş türkcə bir kitabı açıb farsca oxuyurlar.

Bundan başqa, üsuli-cədid məktəblərində guya "müsəlmanca" oxunmuyur - deyə şikayət edən bu cənablar, indi də "taza modaya" görə hesab kitablarını, məktublarını rusca yazdırmağa qeyrət edirlər. Kart vizitləri üzərlərində adları rusca, dükan qabağındakı elanları əksərən rusca, dəftər-kitabları, buqalterləri yəhudi, ya rus olmaq şərti ilə rusca, təqvimləri rusca, blankları rusca, konvert (zərf)ləri üzərində adları rusca, rusca olmayanları da farsca. İmza və qolları ənvait müsibətlə oxuna biləcək: surətdə rusca. Özləri də xoş müqəddəsdirlər, "müsəlmanca" dərs istəmirlər. Yəni bir məktəb açasan ki, içində yalnız ərəb və ya fars dili təlim edilə – zərər yoxdur – "müsəlmanca"dır deyə iktifa edirlər.

İntiligentlərimizin də türkcə bilməmələri və onların müridlərinin də türkcə bilmək istəməmələri aşkar bir əmrdir.

Deməli, nə o tərəfdə qeyrəti-milliyə var, nə bu tərəfdə. Millət və milliyyət nə olduğunu o tərəf anlamır, bu tərəf də anlamaq istəmir" (Camalov, 2015, s. 143).

Ü.Hacıbəyli məktəblərdə Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq, tədris planında ana dili fənninin saatlarını artırmaq məqsədi ilə ciddi məşğul olmuş, həmçinin "çar Rusiyasının maarif sahəsində milli ucqarlarda yeritdiyi siyasəti kəskin tənqid etmişdir" (Əhmədov, 2011, s. 273). Bu xüsusda o, istər "Molla Nəsrəddin" jurnalındakı məqalə və felyetonlarında, istərsə də qəzet səhifələrində ardıcıl surətdə iş aparmışdır.

Ü.Hacıbəyli Azərbaycanda məktəb və maarif işlərinin inkişaf etdirilməsi üçün var qüvvəsi ilə çalışaraq mətbuat səhifələrində "Anaş qurbağa", "Tısbağa", "Fəhlə", "Ordan-burdan" və s. kimi "65-dən çox gizli imzalarla" (Hacıbəyli, 2005, s. 161) iştirak etmişdir.

Sonda belə **nəticəyə** gəlirik:

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 110-113**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 110-113**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

1. Üzeyir Hacıbəyli Azərbaycanda məktəb və maarif sahəsinin tərəqqisi işində, fənlərin və xüsusən də ana dilinin tədrisini yaxşılaşdırmaq məsələsində səmərəli xidmətlər göstərmişdir;
2. Üzeyir Hacıbəyli sələfi Mirzə Fətəli Axundovun ideyasını müdafiə edərək ərəb əlifbasının yaramazlığını, savad təlimi və yazıda doğurduğu əngəlləri göstərərək izahatlar vermişdir;
3. Üzeyir Hacıbəyli insanlara ən ali fikirlərini, ən incə hisslərini, arzu və ehtiyaclarını ifadə etməkdə dilin qüvvətli vasitə olduğunu fikrini irəli sürmüş və onun təfəkkürlə ayrılmaz surətdə vəhdətdə olduğunu göstərmişdir;
4. Üzeyir Hacıbəyli məktəb, maarif və dil tədrisinə dair yalnız məqalələr yazmaqla kifayətlənməmiş, iri həcmli əsərlər də yazıb (Türk-rusi və rus-türki lüğəti) nəşr etdirmişdir;
5. Üzeyir Hacıbəylinin məktəb, maarif və dil tədrisinə dair fikirləri bu gün də çağdaş dövrümüzlə səsləşir.

## Ədəbiyyat

1. Camalov, K. (2015). *Mollanəsrəddinçilərin maarifçilik ideyaları.* Elm və təhsil, 365.
2. Əhmədov, H. (2011). *Azərbaycan pedaqoji antologiyası (XIX əsr – XX əsrin əvvəlləri)* (III cild). Maarif, 544.
3. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri* (A. Abbasov, tərtibçi; 2 cilddə, II cild). Şərq-Qərb, 456.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 114-117**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 114-117**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Xatın Ağayeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0003-4406-456X
khatinagayeva@nmi.edu.az

# Üzeyir Hacıbəyli yaradıcılığında milli musiqi elementləri

***Açar sözlər:*** *milli musiqi, yaradıcılıq, opera, klassik janr, müasir musiqi, aşıq musiqisi*
***Keywords:*** *national music, creativity, opera, classical genre, modern music, ashug music*

Azərbaycanın dahi bəstəkarlarından biri, öz yaradıcılığı ilə Azərbaycan musiqisinə əvəssiz töhfələr vermiş insan və ən əsası əsərlərində Azərbaycan milli musiqisinin ruhunu daşıyan dahi.

Üzeyir Hacıbəyli Azərbaycanın, o cümlədən Şərqin ilk operasının müəllifidir. Öz dövründə qarşılaşdığı amansız tənqidlərə baxmayaraq Şərqlə Qərbi öz musiqində birləşdirməyə nail olmuşdur. Muğam, xalq mahnıları, milli ritmlər Hacıbəyli yaradıcılığının bel sütununu təşkil etmişdir. Əlbəttə, bu yaradıcılığı əhatə etmək üçün iri həcmli kitablar lazımdır. Lakin bu tezisdə çalışacağıq ki, Üzeyir Hacıbəyli yaradıcılığının milli musiqi bölməsinə yığcam bir baxış edək (Əliyeva, 2020).

Bu tezisdə bəstəkarın əsas əsərləri üzərində təhlil aparılaraq, həmin əsərlərdə milli musiqi elementlərinin tətbiqi və funksional rolu araşdırılır. Tədqiqatda musiqi təhlili və müqayisəli analiz üsullarından istifadə olunmuşdur. Üzeyir bəyin əsas musiqi əsərləri “Leyli və Məcnun”, “Koroğlu”, “Arşın mal alan” və “O olmasın, bu olsun” üzərində mənbə təhlili aparılmış, muğam və xalq musiqisi ilə bağlı bölmələr struktur və məzmun baxımından öyrənilmişdir.

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Üzeyir Hacıbəyli və muğam.**

Üzeyir Hacıbəyli Şuşalıdır. Hələ çox kiçik yaşlarından şeriyat və muğam aləminin içində olmuşdur. Xan qızı Natəvanın məclislərində muğam dinləmişdir. Əlbəttə, bu onun yaradıcılığına təsirsiz ötüşə bilməzdi. Bəstəkar öz əsərlərində muğamı əbədiləşdirmək, ucaltmaq və bütün dünyaya tanıtmaq istəmişdir. O, muğamın melodik və lad xüsusiyyətlərini klassik Avropa musiqisi ilə sintez edərək, yeni bir yol yaratmışdır. Xüsusi ilə ilk operası "Leyli və Məcnun"da muğam partituralı (Partitura- Çoxsəsli musiqi əsərlərinin bütün partiyalarının məcmusu, opera əsərlərinin yazıldığı not dəftəri) formada təqdim olunmuşdur ki, bu da Azərbaycan musiqi tarixində ilk dəfə idi. Bu operada əsasən "Rast", "Şur", "Segah" kimi muğamlardan faydalanmışdır. Daha sonra bəstəkar "Şeyx Sənan" operasında da muğam elementlərindən istifadə etmişdir. Lakin onun 1910-1915-ci illərdə yazdığı daha dörd opera məhz muğam janrı üzərində qurulmuşdur. Bunlar "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşud Banu", "Əsli və Kərəm", "Harun və Leyla" operalarıdır. Bəstəkar eyni zamanda "Ər və Arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettalarında da muğam elementlərindən istifadə etmişdir. Hacıbəyli yarımçıq qalmış "Firuzə" operasında da muğama müraciət etdiyi görülür (bu opera sonradan İsmayıl Hacıbəyov tərəfindən tamamlandı). Üzeyir bəy "Sənsiz" və "Sevgili canan" əsərlərini yazmış, bununla da romans-qəzəl janrı kimi yeni bir janrın əsasını qoymuşdur. "Pambıq tarlalarında" süitasında isə çahargah və şur ladlarından istifadə etmişdir. Eyni zamanda Füzulinin xatirəsinə həsr etdiyi uvertura və xor əsərlərində də muğam nümunələri gözə çarpır. Operada improvizasiya və dəqiq bəstələnmiş partiyalar arasında bədii balans qorunmuşdur (Hacıbəyov, 1945).

**Xalq musiqisi və rəqsləri**

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

"Arşın mal alan" operettasında xalq musiqisinin melodiyasına əsaslanan mahnılar və rəqslərdən istifadə olunub. "Tərəkəmə", "Mirzəyi" kimi rəqs melodiyaları orkestr tərtibatında təqdim edilərək milli ənənənin qorunmasına nail olunmuşdur. Musiqi dilindəki sadəlik və milli janra yaxınlıq xalqla ünsiyyəti asanlaşdırır, əsərləri dərk ediləbilən və yadda qalan edir.

**Aşıq sənətinin təsiri**

Aşıq sənətinin Üzeyir Hacıbəyli əsərlərindəki yerindən bəhs edərkən "Koroğlu" operasından mütləq danışmaq lazımdır. "Koroğlu" operası dastan ənənələri üzərində qurulmuşdur. Bu əsərdə aşıq musiqisinin intonasiyası, qəhrəmanlıq motivləri və lirika klassik opera strukturu daxilində təqdim olunur. Aşıq sənətinə xas improvizasiya ünsürləri bəstəkar tərəfindən mahnı formalarında qorunub saxlanılmışdır. Əsərdə xalqın əzilməsinin təsviri çahargah ladının üzərində qurulmuşdur. Artıq üsyan etmiş xalq isə şur ladının intonasiyaları üstündədir. Operada eyni zamanda Aşıq Cünün obrazı vardır ki, bu obraz el aşıqlarını tərənnüm edir və sazı ilə xalq mahnıları ifa edir. Döyüş səhnəsində isə aşığın ölümü ilə Koroğlu sazı götürür və onun ifası igidləri qələbəyə aparır. Bu da Hacıbəyli yaradıcılığında aşıq musiqisinə, saza, sözə verilən dəyərin böyüklüyünü göstərir (Məmmədova, 2013).

**Milli xalq çalğı alətləri**

Üzeyir bəy milli alətləri – tar, kamança, balaban və zurnanı klassik orkestr tərkibinə daxil etmişdir. Milli alətlər klassik opera musiqi alətləri ilə birgə səslənmiş və fantastik musiqi çələngi yaratmışdırlar. Bu yanaşma milli musiqinin səslənməsini zənginləşdirmiş və fərqli musiqi kimliyi meydama gətimişdir. Musiqinin dili isə sadə, anlaşıqlı və emosional olması ilə fərqlənir.

Üzeyir Hacıbəyovun yaradıcılığı milli musiqi elementlərinin klassik musiqiyə uğurla birləşdiyi bənzərsiz nümunədir. O,

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Azərbaycan musiqisində yeni bir məktəb formalaşdırmış, xalq musiqisini qoruyaraq onu peşəkar səviyyədə inkişaf etdirmişdir. Bəstəkarın əsərləri bu gün də musiqi təhsili və ifaçılığında əsas mənbələrdən biri hesab olunur (Quliyev, 2015).

## Ədəbiyyat

1. Əliyeva, L. (2020). "Koroğlu" operasında aşıq musiqisinin rolu. *Musiqi Dünyası*, (2), 45–52.
2. Hacıbəyov, Ü. (1945). *Azərbaycan xalq musiqisinin əsasları*. Azərnəşr.
3. Məmmədova, S. (2013). *Üzeyir Hacıbəyovun yaradıcılığında muğam və xalq musiqisi*. Elm və Təhsil.
4. Quliyev, F. (2015). *Azərbaycan musiqi tarixi*. Şərq-Qərb nəşriyyatı.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 118-121**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 118-121**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Zeynab Abbaslı**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0002-2257-0373
zeynebabbasli1997@gmail.com

# Üzeyir Hacıbəyovun təhsilin demokratikləşməsi prosesində rolu: publisistik və bədii irsinin təhlili

***Açar sözlər:*** *Üzeyir Hacıbəyov, təhsil, demokratikləşmə, bədii irs*
***Keywords:*** *Uzeyir Hajibeyov, education, democratization, artistic heritage*

Üzeyir Hacıbəyov XX əsr Azərbaycan maarifçiliyinin aparıcı simalarından biri olmaqla, yalnız musiqi sənətində deyil, həm də təhsilin demokratikləşməsi və xalq maarifinin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Onun fəaliyyəti təkcə incəsənət sahəsində deyil, həm də jurnalist, müəllim, pedaqoq və maarifçi kimi cəmiyyətin maariflənməsi uğrunda mübarizə ilə səciyyələnir. O, təhsilin yalnız imtiyazlı təbəqələrin deyil, bütün xalqın hüququ olduğunu dönə-dönə vurğulamış, xüsusilə qadınların və kənd əhalisinin təhsildən kənarda qalmasının əleyhinə çıxmışdır.

Xalqına səmimi şəkildə xidmət edən Üzeyir Hacıbəylinin çoxşaxəli yaradıcılığının mühüm istiqamətlərindən biri də publisistik fəaliyyəti ilə bağlıdır. Ədəbi fəaliyyətə məhz publisistika ilə başlayan Ü.Hacıbəyli “Azərbaycan”, “Kaspi”, “Həyat”, “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “İqbal”, “Yeni İqbal” qəzetlərində, həmçinin Cəlil Məmmədquluzadənin redaktoru olduğu və 1906-cı ildə nəşrə başlayan “Molla Nəsrəddin” jurnalında çoxsaylı məqalə, felyeton və satirik miniatürlərlə çıxış etmişdir. “Molla Nəsrəddin” jurnalının fəal müəlliflərindən

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

biri kimi Ü.Hacıbəyli burada "Adı molla, özü bəy Filankəs", "Anaş Qurbağa", "Bala uşaq", "Bızbıza", "Çoban", "Həmişə Kefli", "Xoca Lələ", "Lal uşaq", "Millət tərəfdarı", "Namuslu", "Rəhimsiz", "Yalançı", "Zurnaçı" kimi müxtəlif gizli imzalarla yazdığı yazılarla cəsarətli və prinsipial jurnalist kimi tanınmışdır. Onun publisistik yaradıcılığı ruhən və ideoloji baxımdan "Molla Nəsrəddin" ədəbi məktəbinə və onun yaradıcı xəttinə olduqca yaxın idi. Ü.Hacıbəyli, bu satirik jurnalın ilk mətbuat nümunələrindən biri kimi geniş tanınmasına və cəmiyyətdə maarifçi ideyaların yayılmasına böyük dəyər verirdi (Babayeva, 2019, s. 14).

1905–1915-ci illər arasında "Kaspi", "İrşad", "Tərəqqi" və "Həqiqət" qəzetlərində dərc olunan publisistik məqalələrində Üzeyir bəy maarifin inkişafı ilə bağlı fikirlərini cəmiyyətə çatdırmışdır. Onun 1907-ci ildə "Kaspi" qəzetində yazdığı "Məktəb və müəllim haqqında" adlı məqaləsində müəllim hazırlığının keyfiyyətsizliyi, dünyəvi elmlərin tədrisinin zəifliyi və məktəblərin şəraitinin bərbad olması ciddi tənqid olunurdu. Həmin məqalədə o, yazırdı: "Millət ancaq elm və maarif ilə nicat tapa bilər. Elmsiz millət kor kimidir...". Bu fikir onun maarifçiliyə münasibətinin açıq ifadəsidir.

Ən çox tanınan bədii əsərlərində də Hacıbəyov maarifin, xüsusilə qadın təhsilinin təbliğinə geniş yer ayırmışdır. 1910-cu ildə yazdığı "O olmasın, bu olsun" musiqili komediyasında o dövr cəmiyyətində mövcud olan gerilik, savadsızlıq və qadınların azadlıqdan məhrum olması açıq tənqid obyektinə çevrilmişdir. Əsərin baş qəhrəmanlarından olan Gülnaz və Telli obrazları vasitəsilə müəllif qadınların təhsil almasının vacibliyini göstərir. Əsərdə qadınların fikirlərinin sayılmaması, onların təhsilsiz saxlanılması səbəbilə ailə və ictimai problemlərin yaranması yumoristik, lakin dərin mənalı bir şəkildə təqdim olunur.

https://doi.org/10.36719/2663-4619/0807/2025

Digər mühüm əsəri – 1913-cü ildə yazılmış "Arşın mal alan" musiqili komediyası da qadın azadlığı və təhsil mövzusunu qabardır. Şövkət obrazı təhsilli, savadlı və öz fikri olan bir qadın kimi təqdim edilir. Onun ən böyük arzusu təhsil almaq və oxumaqdır. Bu, həmin dövrün cəmiyyəti üçün radikal sayılacaq fikirlər idi. Üzeyir Hacıbəyov bu əsərlə qadınların ictimai həyatda yer almasının əsas şərtinin onların təhsilə çıxış imkanları ilə birbaşa əlaqəli olduğunu göstərmişdir (Dadaşova, 2020).

Bundan əlavə, Üzeyir bəyin maarif sahəsindəki əməyi yalnız ideoloji və bədii deyil, təşkilati və pedaqoji səviyyədə də təzahür etmişdir. O, 1920-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə yaradılan Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) ilk təşkilatçılarından və müəllimlərindən biri olmuşdur. Üzeyir Hacıbəyov burada həm musiqi nəzəriyyəsi, həm də Azərbaycan xalq musiqisinin elmi əsaslarla öyrənilməsi və tədrisinə rəhbərlik etmişdir. Onun təşəbbüsü ilə milli musiqi alətləri sinifləri açılmış, muğamlar ilk dəfə nota alınaraq sistemləşdirilmişdir. Bu isə milli musiqi təhsilinin elm səviyyəsində formalaşdırılmasına və geniş yayılmasına səbəb olmuşdur (Şiriyeva, 2023).

1931-ci ildə Üzeyir bəyin yazdığı və konservatoriyada dərs vəsaiti kimi istifadə olunan "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi əsəri onun təhsil sahəsindəki sistemli fəaliyyətinin məhsuludur. Bu əsərdə o, Azərbaycan musiqisinin nəzəri əsaslarını elmi şəkildə izah edərək, gələcək musiqiçi nəslin peşəkar təhsil almasına böyük zəmin yaratmışdır.

Nəticə olaraq qeyd etmək olar ki, Üzeyir Hacıbəyovun təhsilin demokratikləşməsindəki rolu yalnız bir maarifçi ideoloq kimi deyil, həm də praktiki addımlar atan müəllim və təşkilatçı kimi özünü göstərmişdir. Onun publisistik məqalələri, bədii əsərləri və musiqi təhsili sahəsindəki təşəbbüsləri xalqın maariflənməsi, qadınların təhsil hüququnun tanınması və milli musi-

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

qinin elmi əsaslarla tədrisi baxımından Azərbaycan maarifçilik tarixində mühüm yer tutur. Bu səbəbdən də Üzeyir bəyin fəaliyyəti təkcə musiqi mədəniyyətinin deyil, ümumilikdə milli təhsil sisteminin inkişafında dönüş nöqtəsi kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat

1. Babayeva, G. (2019). Üzeyir bəy Hacıbəylinin publisistik irsinə bir baxış. *525-ci qəzet*, s. 14.
2. Dadaşova, M. (2020). Musiqi təhsilinin bünövrəsini qoyan böyük pedaqoq. *Musiqi Dünyası*. https://www.musigi-dunya.az/new/read_magazine.asp?id=524
3. Şiriyeva, Z. (2023). Üzeyir Hacıbəyovun yaradıcılığı və maarifçilik fəaliyyəti. *Azərbaycan müəllimi*. https://www.old.muallim.edu.az/news.php?id=26370

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 122-125**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 122-125**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Nurlanə Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0009-0006-4381-767X
nurlanem50@gmail.com

# Milli ruh və milli düşüncə təəssübkeşi Üzeyir Hacıbəyli

***Açar sözlər:*** *milli ruh, milli düşüncə, ana dili, əxlaq kefiyyətləri, vətənə məhəbbət*
***Keywords:*** *national spirit, national thought, mother tongue, moral qualities, love for the homeland*

Görkəmli pedaqoq və maarifçi Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyəti tarixinin formalaşmasında böyük rolu vardır. Üzeyir bəy qaraguruhçuluqdan çıxmağın yolunu məktəblərdə, mətbuatda, maarif ocaqlarında görür və yarı ciddi, yarı satirik felyetonları ilə cahanşümul əsərlər ortaya qoyurdu. Hələ vaxtilə məslək və əqidə dostu Məmməd Səid Ordubadiyə ünvanlandığı məktubda yazırdı: "Qoçular da, molllar özləri də satirada özlərinin gülünc hədəfinə çevrilməsini gülə-gülə oxuyurlar. Ancaq bizim satira yazmaqda əsas məqsədimiz oxucuları yalnız güldürməyə fikir vermək yox, düşündürməyə çalışmalıyıq" (Camalov, 2015, s. 34).

Üzeyir Hacıbəyli daha çox narahat edən məsələlərdən biri də ana dili və onun tədrisi məsələsi olmuşdur. Ü.Hacıbəyov xalqın öz dilini öyrənməsini, öz dilində danışmasını, öz dilində düşünməsini və növcavanlara öz ana dilində təhsil verməsini məsləhət görürdü. Üzeyir bəy bu dilə etinasız münasibət göstərən "intilgent müəllim və ataları" acı bir gülüşlə məsxərəyə qoyurdu. Göstərir ki, bir ata oğlunun fars dilində təhsil almasını istəyir, bir başqa ata ərəb dilində, digər bir ata rus dilində, digər bir başqa ata isə uşağına elmin sirlərinin verilməsinin əleyhinədir. Ü.Hacıbəylinin "O yan – bu yan" adlı felyetonunda

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

oxuyuruq: “Bir ata – Cənabi müdiri-məktəb, sən mənim oğluma farsı, ərəbi, türki, nə bilim nə-nə deyirsən! Baba, oğul mənim dəyilmi? Mənim oğluma onlar lazım deyil. Mənim oğluma lazım olan odur ki, bu gün bir urusu görəndə onunla “işto-mişto” eliyə bilsin. Allah atana rəhmət eləsin. Mənim oğlumu urusca öyrət.

O biri ata – Cənabi molla! Sən mənim oğlumu kafir eləmək istəyirsən, amma mən razı olmayacağam. Oğul gərək müsəlmanlığında baqi qalsın. Təvəqqe eliyirəm, bundan sonra mənim oğluma bulud nədir, ildırım nədir, ulduz belə gəldi, filan... bu cürə sözləri deməyəsən. Mənim oğluma şəriət öyrət, şəriət. Çünki, istəyirəm sonra oğlumu təhsilə göndərəm.

Üçüncü – Cənabi müdərris! Hərçəndi ola bilsin ki, sən məndən çox oxuyubsan. Amma mən özüm də az oxumamışam. Bu saat “Tarixi- Nadiri” su kimi içərəm. "Gülüsta"nı sənin üçün göz yummadan oxuyaram. Firdovsidən yüz beyt əzbər bilirəm. Ona bina heç insaf deyil ki: Bər danayani romuzi agahi və dəqiqə şünasani hekməthayi ilahi... Ondan sonra:

Ki Rüstəm, yəli bud dər Sistan.
Mənəş kərdəəm Rüstəme-dastan,
Və bir də:
Bənde haman beh ke, ze təqsire xiş.
Ozr bədər gahe xoda avərəd

kimi dil bilən bir atanın oğluna bu cür sözləri öyrədəsən. Məsələn, Qasım atdan düşdü. Yanan yerdən tüstü çıxar. Atam dörd put saman aldı... “Həqiqət insafdan kənar işdir”. Sən mənim oğluma farsı öyrət, farsi.

Dördüncü – Cənabi molla, çox təvəqqe edirəm ki, mənim oğluma uruscanı öyrətmə. Qoy müsəlmanca oxusun. Urusca oxumasına böyük anası evdə razı olmur.

Beşinci – Ağa molla, sən ki mənim oğluma bəzi vaxt hesab, kitab öyrədirsən, məsələn, bir tacir 600 pud qənd alıb, pudunu 1

https://doi.org/10.36719/2663-4619/0807/2025

manatdan satdı, nə bilim, 89 dəfə 100 neçə olar! Sən gəl o hesabları de ancaq oğlumun əvəzindən onları mənim özüm axşamlar sənin üçün çötkədə hesablayıb, səhər uşaqnan göndərərəm, yoxsa, oğlum uşaqdır, indidən ona o cürə hesab, kitab öyrətsən, axırda uşaq xarab olub, dələduz çıxar, uşaq nədir, o cür hesab-kitab işinə qarışdı nədir? Onunku odur ki, dərs oxusun, dərs" (Əhmədov, 2011, s. 139). Göründüyü kimi, valideynlərin acınacaqlı halını yaradıcılığında açıq şəkildə təsvir edən Üzeyir Hacıbəyli tərbiyəçi, maarifçi kimi çıxış edir.

Üzeyir Hacıbəyli ana dilini öyrənmək, onu qoruyub saxlamağın ən güclü vasitəsini məktəblərdə tədrisin ana dilində aparılmasında görürdü. Hacıbəyli o zamanlar dilimizin yoxluğundan şikayət edən bəzi "ziyalılar"a cavab olaraq yazırdı ki, bizim türk dilimiz Avropa alim və filosoflarının rəyinə görə ən vüsətli və kamil bir dildir ki, onun vasitəsi ilə insan ən ali fikirlərini və dəqiq hisslərini bəyan etməyə qadirdir. Bu münasibətlə Üzeyir Hacıbəyli yazırdı: "Ümum müsəlmanlar doğurdan da cürbəcür millətlərdən əmələ gəlməkdədir və saniyən ittihadı-islam ondan ibarət deyil ki, ərəb, fars, türk və sair islamlar bir-birinə qarışıb bir millət olsunlar. Bu, mümkün olan iş deyildir. Çünki ərəb nə qədər istəsə də, heç vaxt türk ola bilməz. Ya türk çalışsa da, heç bir vaxt dönüb ərəb ola bilməz. Bu, təbii bir qanundur. Palıd ağacı heç vaxt armud ağacı ola bilməz. Əgər palıd ağacını armud ağacı eləmək istəyiriksə, vəsi almaq mümkündür. O halda da palıdı calamaq, peyvənd eləmək lazımdır. O surətdə genə palıdın özü yox, onun üzərincə qalanmış şaxdan alma gözləmək olar. Əlbəttə, əgər iş calanmağa qalsa, insanı da calamaq mümkündür. Məsələn, bir türk Ərəbistana gedib ərəb arvadı alar, sonra oğlunu da ərəb qızına evləndirər... Əlbəttə, nəvəsi ərəb olar... Amma madam ki, bizim bu surətlə ərəb və ya fars olmaq təşəb- büsündə dəyilik, ona görə türklüyümüzdə baqi qalırıq. Buna görə də dilimiz türk dilidir. İndi həmin bu türk dilimizin əvvəla, baqi qalması və saniyən

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

tərəqqi etməsi və islah olunması barəsində çalışmalıyıq" (Əhmədov, 2011, s. 141-142).

İstedadlı pedaqoq Üzeyir Hacıbəyli "ana dilində məktəblər açılmasını tələb edərkən" (Hacıbəyli, 2005, s. 273), müəllimin özünün də Azərbaycan dilinin xüsusiyyətlərini, dil tədrisi metodikasını yaxşı bilməsini zəruri sayırdı.

Sonda belə **nəticəyə** gəlirik:

1. Üzeyir Hacıbəyli Azərbaycanda milli ideologiyanın təbliğatçısı və ya carçısı olmuşdur;
2. Görkəmli pedaqoq Üzeyir Hacıbəyli Qori Müəllimlər Seminariyasında oxuduğu zamandan etibarən təlimin ana dilində aparılması ideyasının təəssübkeşlərindən sayılmışdır;
3. Üzeyir Hacıbəyli hər bir müəllimin pedaqoji-psixoloji-etik istiqamətdə təkmilləşməsini və formalaşmasını meyar saymışdır;
4. Üzeyir Hacıbəyli növcavanları vətənə və xalqa məhəbbət ruhunda böyütməyi, əxlaqi keyfiyyətləri yüksək təbliğ etməyi müəllimlər üçün ilk və son şərt hesab etmişdir.

## Ədəbiyyat

1. Camalov, K. (2015). *Mollanəsrəddinçilərin maarifçilik ideyaları* (365 səh.). Bakı: Elm və təhsil.
2. Əhmədov, H. (2011). *Azərbaycan pedaqoji antologiyası (XIX əsr – XX əsrin əvvəlləri)* (Üç clddə, III cild, 544 səh.). Bakı: Maarif.
3. Hacıbəyli, Ü. (2005). *Seçilmiş əsərləri* (İki cilddə, II cild, 456 səh.). Bakı: Şərq-Qərb.

*Üzeyir Hacıbəyli 140* **Beynəlxalq Elmi Konfrans 4 iyun 2025 / 126-129**
*Uzeyir Hajibeyli 140* **International Scientific Conference 4 iyun 2025 / 126-129**
**https://doi.org/10.36719/2663-4619/0807/2025**

**Həbibə Allahverdiyeva**
Naxçıvan Müəllimlər İnstitutu
https://orcid.org/0000-0003-4056-9173
habibe.allahverdiyeva@mail.ru

# Üzeyir Hacıbəyovun əsərlərinin Naxçıvan teatrında səhnəqrafiya ifadəsi və onun tərbiyəvi xüsusiyyətləri

***Açar sözlər:*** *Naxçıvan teatrı, rəssam, realist, kompazisiya, səhnəqrafiya*
***Keywords:*** *Nakhchivan theater, artist, realist, composition, scenography*

Yarandığı vaxtdan bu yana dünyəvi mütərəqqi ideyalara, humanizmə söykənən Naxçıvan teatrı yaratdığı dəyərli tamaşalarla insanlarda saf hisslər, insani dəyərlər, mübarizlik tərbiyyə etməyə çalışmış, xalqın həyatını, mübarizəsini, istək və arzularını əks etdirmişdir. Bu kimi ideyaların aydınlaşması, daha da qabardılması sahəsində teatr rəssamlığının – səhnəqrafiyanın rolu böyükdür. Səhnəqrafiyada teatr rəssamı əsərdəki ideyanı fırçasının gücü ilə cizgilərin, formaların və rənglərin dili ilə, kompazisya, işıq-kölgə, perspektiva kimi təsvir vasitələrilə yaradır, əsərin tam mahiyyətini, onun ruhunu ortaya qoyaraq, müəllifin çatdırmaq istədiyi tərbiyəvi məsələlərə işıq tutur.

Naxçıvan teatrının repertuarında dahi bəstəkar Üzeyir Hacıbəylinin yaradıcılığı hər zaman özünəməxsus yerlərdən birini tutmuş, onun əsərlərinə tez-tez müraciət olunmuşdur. XX əsr Azərbaycan mədəniyyəti tarixində silinməz iz buraxmış görkəmli bəstəkar Üzeyir Hacıbəylinin əsərləri ilə milli teatr sənətinin inkişafında mühüm rola malik olmuşdur. O, möhtəşəm inciləri ilə milli teatr sənətinə yeni nəfəs gətirmiş, onun

https://doi.org/10.36719/2663-4619/0807/2025

xəzinəsini zənginləşdirmişdir. Naxçıvan teatrında səhnəyə qoyulan Üzeyir Hacıbəyovun əsərləri sevilən və yaddaqalan tamaşalar sırasında xüsusi yer tutmuşdur. Naxçıvan Dövlət Milli Dram Teatrında fəaliyyət göstərən rəssamlar tərəfindən teatrın yarandığı gündən müasir dövrə qədər Üzeyir Hacıbəylinin repertuara salınmış əsərlərinə özünəməxsus yaradıcılıq üslub-ları, texnikaları ilə bir-birindən fərqli və maraqlı bədii tərtibatlar hazırlamışlar.

Naxçıvan teatrında görkəmli bəstəkarın, pedaqoqun Üzeyir Hacıbəylinin əsərinə ilk olaraq Bəhruz Kəngərli bədii tərtibat vermişdir. Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsəri 1916-ci ildə Rza Təhmasibin rejissorluğu ilə səhnəyə qoyulmuşdur. Təəssüf ki, Bəhruz Kəngərlinın tərtibat işinə aid heç bir nümunə saxlanılmamışdır. 1920-1921-ci illərdə digər tamaşalarla yanaşı Ü.Hacıbəylinin "Arşın mal alan" əsəri yenidən səhnəyə qoyulmuşdur. Naxçıvan teatr səhnəsində daha sonra Üzeyir Hacıbəyli yaradıcılığına nəzər salınmış, 1922-ci ildə Həsən Səfərlinin rejissorluğu ilə Üzeyir Hacıbəylinin "Məşədi İbad", "Şah Abbas və Xurşidbanu", "Leyli və Məcnun" əsərləri səhnələşdirilmişdir. Bu tamaşalara öz yaradıcılığında realist ənənələrə sadiq qalmış, 1922-ci ildən başlayaraq teatrda fəaliyyət göstərdiyi səkkiz il müddətində otuz altı tamaşaya bədii tərtibat vermiş teatr rəssamı Adil Qazıyev hazırlamışdır. Teatrın rəssamı Şamil Qazıyev səhnəqrafiya yaradıcılığında Üzeyir Hacıbəylinin əsərlərinin bədii tərtibatları yer almışdır. Belə ki, rəssam dahi bəstəkarın 1940-cı ildə teatırın repertuarına salınmış "Arşın mal alan", 1941-ci ilin repertuarında isə "Əsli və Kərəm" əsərinə bədii tərtibat vermişdir. Hər iki rəssamın tərtibatı ilə mühitin sosial reallıqları qabarıq qabarıq ifadəsinə təsir göstərmişdir.

Yaradıcılığı ilə teatr-dekor sənətinə töhvələr vermiş rəssam Əyyub Hüseynov Naxçıvan teatrında səhnəqrafiya sahəsində ərsəyə gəttirdiyi çoxlu sayda əsərlər içərisində Üzeyir

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

Hacıbəylinin yaradıcılıq nümunələri yer alır. 1942-ci ildən 1949-cu illədək 27 səhnə əsərinə tərtibat vermiş Əyyub Hüseynov Üzeyir Hacıbəylinin "Məşədi İbad", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu" əsərlərinə səhnə tərtibatı hazırlamışdır. Üzeyir Hacıbəylinin "Məşədi İbad" operettası sonrakı dövrlərdə də səhnələşdirilmişdir. Belə ki, əsər 1963-cü ilin teatrın repertuarına daxil edilərək İbrahim Həmzəyevin rejissorluğu və Məmməd Qasımovun bədii tərtibatı ilə səhnəyə qoyulmuşdur. Komediya janrının tələblərinə uyğun hazırlanmış tamaşanın tərtibatında dövrün real təsviri göz önünə gətirilmişdir. Mühitə, dövrə uyğun sosial təbəqələrə məxsus obrazların təsviri istər hadisələrin baş verdiyi məkanda-otaqların interyerində, istərsə də əlbəsələrdə öz əksini tapmışdır.

Müstəqillik illərində də böyük musiqişünas alim, istedadlı publisist, dramaturq və pedaqoq Üzeyir Hacıbəylinin əsərləri diqqətdə saxlanılmış, tez-tez repertuara salınmışdır. Naxçıvan Dövlət Milli Dram Teatırının baş rəssamı olmuş Hüseynqulu Əliyev teatr sahəsində fəaliyyəti müddətində bir neçə tamaşanın – 1993-cü ildə onun "O olmasın, bu olsun", "Məşədi İbad", 2006-cı ildə "Arşın mal alan" əsərinə səhnə təribatı vermişdir. Teatr rəssamlığı sahəsində öz yaradıcılıq xüsusiyyətləri ilə seçilən rəssam Əbülfəz Axundovun səhnəqrafiya yaradıcılığında Üzeyir Hacıbəylinin "Ər və arvad" tamaşası yer almışdır. Tamaşa 1997-ci ildə Əsgər Əsgərovun rejissorluğu ilə səhnələşdirilmişdir.

Rəssamların Naxçıvan Dövlət Milli Dram Teatrında tamaşalar üçün hazırladıqları səhnə tərtibatı ilə Üzeyir Hacıbəylinin dühasının böyük əzəmətini emosional boyalarla dərindən duyulmuş və maraqlı rəssam işi ilə daha aydın şəkildə diqqətə çatdırılmışdır.

Bəhs olunan əsərlərin səhnəqrafiyası müxtəlif vasitələr-işıq, rəng, forma, kompozisiya məsələlərinə düzgün diqqət yetirməklə əsərin bədi ruhunu, ideyasını tamaşaçıya çatdırılmasına

**https://doi.org/10.36719/2663-4619/0807/2025**

kömək etmiş, onlarda hiylə və riyakarlığa nifrət etməsinə, ülviyyətə, mənəvi paklığa səsləyişi diqqətə çatdırılmışdır. Səhnə qurluşundakı mizanların sadə və kompazisiya tamlığı, rəssam-rejissor birliyi ilə bu məqsədə daha tez nail olunmuşdur. Səhnə tərtibatında realizm prinsiplərinə sadiq qalan rəssamlar istifadə etdiyi rənglərin ahənginə, səhnədə dekorların kompozisiya bitkinliyinə daima diqqət vermiş, təsvir etdiyi mühitin daha real görünməsi üçün böyük səy göstərmişlər. Tamaşanın məzmununu açmağa, hadisələrin cərəyan etdiyi mühitin, dövrün xüsusiyyətlərini açıq göstərməyə xidmət edən hər bir detalın aydın, real təsviri bunun əyani sübutudur.

Yaradıcılığında əsas yer tutan hümanizm, dövrün acı reallıqlarına qarşı mübarizə ideyaları, insanları yeni imidlərlə sabaha səsləyişi, onlarlın arzuları ilə həmişə diqqətdə olan əvəzolunmaz bəstəkar, Şərqdə ilk operanın yaradıcısı Üzeyir Hacıbəylinin bədii irsi hər zaman sevilir, diqqət göstərilir. Belə ki əvvəlki dövlərdə olduğu kimi 3 fevral 2025-ci ildə Azərbaycan Respublikasının Prezidentinin böyük ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqındakı sərəncamı bu diqqətin bariz nümunəsidir.

# İÇİNDƏKİLƏR:
# CONTENTS:

**Sevinc Vəliyeva**
Üzeyir Hacıbəylinin satirik hekayələrində tərbiyə məsələləri .................................................................. 7
**Ülviyyə Nağıyeva**
Müasir təhsildə Üzeyir Hacıbəylinin yaradıcılığına pedaqoji yanaşmalar .................................................................. 12
**Azad Novruzov**
Üzeyir Hacıbəylinin ictimai və siyasi fəaliyyətlərinin Azərbaycan cəmiyyətinə təsiri .............................................. 15
**Tahirə Həsənova**
Üzeyir Hacıbəylinin maarifçilik fəaliyyəti ............................ 18
**Samirə Həsənova, Gülmira Əsədova**
Üzeyir Hacıbəyli yaradıcılığının üslub rəngarəngliyi və dil xüsusiyyətləri ................................................................... 23
**Tahirə Həsənova, Məhərrəm Həsənov**
Üzeyir Hacıbəylinin musiqi dünyası ...................................... 27
**Həsənəli Eyvazlı, Zeynab Mehdiyeva**
Şuşadan dünyaya süzülən musiqi sədaları ............................. 31
**Nazilə Muradova**
Üzeyir Hacıbəylinin yaradıcılığında riyaziyyat və musiqinin ahəngi ...................................................................................... 36
**Nəzakət İsmayılova, Sevinc Vəliyeva**
Üzeyir Hacıbəyli elm, maarif və məktəb haqqında ................ 39
**Şəhla Süleymanova**
Üzeyir Hacıbəylı yaradıcılığında estetik görüşlər .................. 43
**Rövşən Vəliyev, Aysen Məmmədova**
Üzeyir dünyasına bir baxış ..................................................... 46
**Mehmet Gökhan Özçubukçu, Ruhəngiz Əliyeva**
Üzeyir Hacıbəyov və "Molla Nəsrəddin" Jurnalı ................... 51

**Günay Şirəliyeva, Ülviyyə Fətəliyeva**
Üzeyir Hacıbəylinin yaradıcılığında təlim-tərbiyə məsələləri ........ 55
**Fəxriyyə Cəfərova**
Üzeyir Hacıbəyli və dilimiz ........ 59
**Vahid Rzayev**
Üzeyir Hacıbəylinin pedaqoji yaradıcılığında bir təlim üsulu haqqında ........ 63
**Qızıltac Şahbazova**
Üzeyir Hacıbəyli yaradıcılığında dünyəvi elmlərin tədrisi məsələləri ........ 67
**Nəzakət Yusifova, Qızıltac Şahbazova**
Üzeyir Hacıbəyovun jurnalist və ictimai fəaliyyəti ........ 71
**Gülmira Əsədova**
"Molla Nəsrəddin" jurnalında Üzeyir Hacıbəylinin şəxsiyyət tərbiyəsi haqqında görüşlərinə nəzəri baxış ........ 76
**Zeynab Mehdiyeva**
Üzeyir Hacıbəyov və pedaqoji düşüncələr ........ 80
**Ülviyyə Fətəliyeva**
Üzeyir Hacıbəyov yaradıcılığında müəllim və müəllim hazırlığı problemi ........ 82
**Leyla Əliyeva**
Üzeyir Hacıbəyli yaradıcılığında milli–mənəvi dəyərlərin təbliği məsələləri ........ 85
**Tamara Baxşəliyeva**
Üzeyir Hacıbəyov və milli özünüdərk ........ 88
**Əhruz Mahmudova, Nurlanə Məmmədova**
Üzeyir Hacıbəyovun yaradıcılığında dil məsələləri ........ 91
**Aynur Hüseynli**
Üzeyir Hacıbəyovun pedaqoji irsi: təhsilin keyfiyyətinin inkişafına maarifçi yanaşma ........ 95
**Günay Babayeva**
Üzeyir Hacıbəyovun "hesab məsələləri" dərsliyindəki pedoqoji fikirlər ........ 98

**Leyla Qurbanova**
Üzeyir Hacıbəyovun pedaqoji fəaliyyəti və onun Azərbaycan mədəniyyətinə töhfəsi ........................................................ 103
**Ruhəngiz Əliyeva**
Üzeyir Hacıbəyovun azərbaycançılıq ideyaları .................. 107
**Sarıngül Hacıyeva**
Üzeyir Hacıbəylinin ana dili və onun tədrisi uğrunda mübarizəsi ........................................................................ 110
**Xatın Ağayeva**
Üzeyir Hacıbəyli yaradıcılığında milli musiqi elementləri ..................................................................... 114
**Zeynab Abbaslı**
Üzeyir Hacıbəyovun təhsilin demokratikləşməsi prosesində rolu: publisistik və bədii irsinin təhlili ................................ 118
**Nurlanə Məmmədova**
Milli ruh və milli düşüncə təəssübkeşi Üzeyir Hacıbəyli .... 122
**Həbibə Allahverdiyeva**
Üzeyir Hacıbəyovun əsərlərinin Naxçıvan teatrında səhnəqrafiya ifadəsi və onun tərbiyəvi xüsusiyyətləri ......... 126

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” Nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: beyn.konfrans@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: beyn.konfrans@aem.az

İmzalandı: 28.05.2025
Onlayn çap: 05.06.2025
Kağız çapı: 10.06.2025
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 8.3 ç.v.
Sifariş: 55

Signed: 28.05.2025
Online publication: 05.06.2025
Paper printing: 10.06.2025
Format: 60x84, 1/16
Stock issuance: 8.3 p.s.
Order: 55

**“ZƏNGƏZURDA”**
Çap Evində çap olunub
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

It has been published in the printing house
**“ZANGAZURDA”**
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru